Daxil oldu: 02.09.2024
Baxışa göndərildi: 18.09.2024
Təsdiq edildi: 28.10.2024
Çap olundu: 30.11.2024

https://doi.org/10.36719/2706-6185/41/18-25

**Dağbəyi Allahverdiyev**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutu
iqtisad üzrə fəlsəfə doktoru
dagbeycahani@gmail.com
**Nigar Allahverdiyeva**
Bakı Dövlət Universiteti
UOT: 519,83

# Xarici fəaliyyət və davamlı iqtisadi artım şərtlərində səmərəlilik

**Xülasə**

Tədqiqatda dünya dövlətlərinin geosiyasi maraqların, xarici investisiyanın çoxalması, davamlı tərəqqi şərtləri, insan irifahı və xarici iqtisadi əlaqələrin mövcud vəziyyəti və mahiyyəti, iqtisadi səmərəliliyi təhlil edilmişdir. Davamlı iqtisadi artım dalğasının tarazlığı və optimal həll metodu sosial-siyasi rifah konteksində tədqiq edilmişdir. Mövcud şəraitdə ölkənin siyasi-iqtisadi məsuldarlığı və davamlı artımı şərtləndirən gəlir bərabərliyi, makroiqtisadi göstəricilər qiymətləndirilmişdir. İqtisadi tarazlığın təmin edilməsində riyazi təsviri ümumi daxili məhsulun artım tempində araşdırılmışdır.

***Açar sözlər:*** *iqtisadi artım, davamlı iqtisad artım dalğası, iqtisadi tərəqqi, insan rifahı, riyazi iqtisadi təsvir*

**Daghbeyi Allahverdiyev**
Ministry of Science and Education of the Republic of Azerbaijan
Institute of Economics
Doctor of Philosophy in Economics
daybeycahani@gmail.com
**Nigar Allahverdiyeva**
Baku State University
UOT: 519.83

# Efficiency in Foreign Activity and Conditions for Sustainable Economic Growth

**Abstract**

This study examines the current state and essence of geopolitical interests, the increase in foreign investments, conditions for sustainable progress, human welfare, and foreign economic relations across various countries. Economic efficiency is analyzed in terms of sustainable economic growth waves, with a focus on achieving equilibrium and an optimal solution method within the context of socio-political welfare. The paper evaluates key macroeconomic indicators and income equality that influence the political-economic productivity and sustainable growth of a country. Additionally, a mathematical model of economic equilibrium is investigated through the growth rate of gross domestic product.

***Keywords:*** *economic growth, sustainable economic growth waves, economic progress, human welfare, mathematical economic modeling*

## Giriş

İqtisadi artım şərtlərinin təhlili real şəraitdə diferensial inteqrasiyanı şərtləndirir. Belə hesablama real dünya iqtisadiyyatında artım tempinin riyazi modeli üçün tətbiqi effektli nəticələri şərtləndirmişdir. Beləliklə, tədqiq edilən real dünya iqtisadiyyatına tətbiq edilən iqtisadi model

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

siyasi-iqtisadi dalğalar pirinsipinə uyğun olaraq sənaye tərəqqisində əks edilmişdir. Belə ki, iqtisadi dalğalar nəzəriyyəsinə əsasən sənaye tərəqqisi Davud modelinin riyazi təsvirinin cəmi iqtisad elmində aktuallaşmışdır.

**Tədqiqat**

Belə ki, Davud iqtisadi artım dalğaları əmək-dəyər pirinsipi ilə yanaşı, effektivlik kontekisində qiymətləndirməni şərtləndirmişdir. Belə elmi yanaşma Alfred Marşallın "İqtisad elminin əsasları" (1891), "Sənaye və ticarət", "Faydalılıq", "Məhsuldarlıq" ideyalarından qaynaqlanmışdır. Bu iqtisadi artım dalğası elmi təcrübədə qrafik və riyazi metodlarla əsaslandırılmasına cəhd hesab edilir. Beləliklə, mikro və makroiqtisadi mənzərədə siyasi-iqtisadi tərəqqi sosial rifahın maddi əsasının təşkili ilə səciyələnir (Abbasov, 2019).

Beləliklə, iqtisadi dalğaların tətbiqi proqramına əsasən tərtib edilmiş riyazi modelə daxil olan səbəb faktoru siyasi-iqtisadi mənzərədə artımı aktuallaşdırır (Allahverdiyev, 2008). Beləliklə, modeldəki tədqiq olunan səbəb və nəticə meyarı optimal qiymətlərə müvafiq olaraq elastiklik əmsalında hesablama iqtisadi riyazi disturu nəticələndirir.

DİA= ƏDA 27,97 + 78,19

NDA=83

GDA=97

ƏDA = 595

Dalğalar pirinsipinə əsasən iqtisadi elastiklik əmsalının riyazi təhlilində formalaşan nəticə Azərbaycanda ticarət dövriyyəsinin ÜDM-un 19,83 % artımı, iqtisadiyyata yönələn investisiyaların artmı isə ÜDM-un 5,97 % artmını şərtləndirir.

Bu kontekisdə Azərbaycanın iqtisadi fəaliyyəti və investisiya səmərəliliyinin riyazi metodlarla təhlili ÜDM-da və xarici ticarət dövriyyəsində illəri əhatə edən müqaisəli üstünlüklər, ümumi siyasi-iqtisadi effektlik proqnozu üçün xarakterikdir. Bu səbəbdəndə, NDA, GDA və ƏDA 2025-ci il istiqaməti riyazi metod əsasında planlaşan qəbul meyarının fokuslaşmasını şərtləndirir.

Ölkənin siyasi-iqtisadi səmərəliliyində artımı zəruridir və ÜDM-un proqnoz meyarı riyazi modelə əsasən,

DİA = NDA +GDA+ ƏDA 372,19 + 273,19

iqtisadi məntiqi model ifadə olunmuş ədədlərin cəmində şərtlənir. Belə proqnozda Azərbaycanın iqtisadi artımı 2024 NDA (m) və 2025-ci ilədən ƏDA (III) şərti ilə davamlı artım meyarı ölkənin xarici iqtisadi fəaliyyətində və investisiya səmərəliliyində, riyazi metodlar əsasında ÜDM və makroiqtisadi sabitliyinin tənzimlənməsini zəruri edir (Əlirzayev, 2022).

Beləliklə, iqtisadiyyatda bərpa olunan enerji təminatı riyazi hesablamada səmərəli və davamlı iqtisadi tərəqqini şərtləndirir.

**I iqtisadi tərəqqinin artım zərurəti**

Belə qeyri-səlist elmi məntiqi təhlil sənayedə iqtisadi tərəqqinin dalğalar nəzəriyyəsi ilə xarakterikdir. Belə ki, iqtisadi tərəqqidə tətbiqin hesablama dalğası Rəqsvari sistemlərin riyazi təsviri və optimal həll metodları ilə effektliyi tarazlaşdırır (Muradov, 2021). Rəqsvari sistem üçün riyazi metodun təcrübədə iqtisadi artıma tətbiqi, sənaye iqtisadiyyatında dalğalar nəzəriyyəsinin proqram trayektoriyası kimi sabitliyi şərtləndirir. Belə məntiqi mühakimə mövcud siyasi-iqtisadi şəraitdə sənaye iqtisadiyyatında tərəqqi şərtlərinin idarə olunmasında tətbiqi səciyəvidir.

Beləliklə, bərpa olunan enerjinin iqtisadi səmərəliliyi siyasi-iqtisadi şəraitdə, törəmələr əsasında, mücərrəd mahiyyətin gücüləndirilməsini şərtləndirir.

**Cədvəl 2**

Bərpa olunan enerji və iqtisadi səmərəlilik ÜDM-un indeks




**Mənbə:** *Tədqiqat əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Belə ki, Azərbaycanda ÜDM-un artımında xarici iqtisadi fəaliyyəti əhəmiyyətlidir və investisiya səmərəliliyin effektivliyi siyasi-iqtisadi sabitliyi tarazlaşdırır. Beləliklə, 2024-cü il NDA(m) və 2025-ci ilin siyasi-iqtisadi proqnozu ƏDA(III) qəbul formulu əsasında, riyazi tənliyin tərtibat modelində, tərəqqi istiqamətini şərtləndirmişdir.

Azərbaycanda ÜDM, iqtisadiyyata yönəldilən investisiyalar və xarici ticarət dövriyyəsinin müqaisəli qiymətləri, standart və modelin proqnoz üçün xarakterikdir və bu modelin proqnoz əhəmiyyəti müəyyənləşmiş, 2025-ci ildə ÜDM proqnoza əsasən iqtisadi artım mənfəti 519,83 milyard manat olacagı müəyyən edilmişdir.

Azərbaycanda ÜDM-in proqnoz qiymətləri ilə Davud modeli əsasında riyazi tənliyin tətbiqii əhəmiyyətlidir, burada iqtisadi səmərəlilik tənzimləməli və ÜDM 2024 və 2025-ci ilərdə davamlı artımı təminatı ƏDA (III) siyasi-iqtisadi tarazlıq effektliyini şərtləndirir. Belə ki, siyasi-iqtisadi müvazinətin həcmində məcmu gəlir və məsrəfləri tənzimləyən Davud modeli iqtisadi səmərəliliyi məfətin cəmində formalaşdırır.

ÜMG = ƏDA+GDA + NDA

Bu riyazi iqtisadi modeldə istehlak DİA, investisiyalar ƏDA, dövlət mənafeyi NDA, GDA və gəlirlər artımında iqtisadi fəaliyyətin məcmu tələbini şərtləndirir.

**II iqtisadi səmərəliliyin artım təsviri**

Azərbaycan dünyada miqyasında siyasi-iqtisadi mənafelərinin təmin edilməsində qarşılıqlı faydalı, balanslaşdırılmış iqtisadi diplomatiyası təşkil edir.

Beləliklə, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramını, Azərbaycan Respublikasının məşğulluq strategiyası Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nı və 2008-2025 davamlı inkişaf Dövlət Proqramının təsdiq edilməsi barədə Azərbaycan prezidenti İlham Əliyevin sərəncamları, əsassən 2030-cu ili İnsan inkişafı və sosial-iqtisadi bərabərliyi şərtləndirir (Əliyev, 2023).

Beləliklə, mövcud proqrama əsasən səbəb və nəticə zirvə meyarı ümumi kontekisdə mövcud olan istehsal artımının tənzimlənməsini şərtləndirir. Bu səbəbdən də, iqtisadi-siyasi mənzərədə yeni proqramının reqressiya tənliyi aşağıdakı iqtisadi effektliyi zəruri edir.

Qiymət tənliyi və qrup meyarı:

ƏDA(III) = GDA + NDA + ƏDA(300+379)

ƏDA (III)= 679

**Ümumi Effekt**

ƏAD = 278 ƏDA+ 379 NDA

ƏDA= 655.19

NDA=83

GDA=97

ƏDA = 6.192378ADƏ + NDA 1,976256547 + GDA 578,595

ƏDA=6,559

Beləliklə, iqtisadi səmərəliliyin təşkili və xarici-daxili investisiya artımı riyazi tənliyə əsasən ÜDM-un 19,83 tam, xarici ticarət dövriyyə meyarı siyasi-iqtisadi (679,31 ədədi nəticəsində) davamlı artımı planlaşdırır (Allahverdiyev, 2008).

**Bu səbəbdən də, iqtisadi-siyasi mənzərənin zirvə meyarı,** $D^{tərəqqi}$ = a 78,239+ DİA 19,8378 + EDA 273,19 modelini şərtləndirir ki, bu siyasi-iqtisadi mənfəət səmərəliliyi NDA, GDA, ƏAD da əhəmiyyətini əks etdirir. Bu riyazi modeldə iqtisadi fəaliyyət səmərəli və effektli hesab edilir (Abbasov, 2019). Belə siyasi-iqtisadi fəaliyyət dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində, ekoloji cəhətdən keyfiyyətli məhsul istehsalında, davamlı iqtisadi tərəqqini gücləndirir.

**Cədvəl 3**
Azərbaycan və bəzi ölkələrlə enerji indeks




**Mənbə:** *Dünya İqtisadi Forumun məlumatı əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Beləliklə, bərpa olunan enerji təminatı indeksi hesablanmasında enerji mənbəyi kimi iqtisadiyyat və enerjinin növü, enerji səmərəliyində davamlı iqtisadi tərəqqini şərtləndirir. Belə ki, bərpa olunan enerji təminatı elmi hesablamalara əsasən 25 il müddətində ölkədə iqtisadi enerji səmərəliliyi 19 dəfə artımın təşkili zəruridir.

**III iqtisadi tərəqqini şərtləndirən sabitlik**

Belə ki, siyasi-iqtisadi tarazlıq anlayışı, onun nüansları və ənənəvi təcrübənin fərqləndirici cəhətlərinin tədqiqi zərurəti əsaslandırılır. İqtisadi səmərəlilikdə tənzimlənən istehsalın qlobal qarşılıqlı əlaqəsi, siyasi-iqtisadi metodları müəyyən edilmişdir. Burada əsas məqamı iqtisadi tarazlıq və kibertəhlükəsizlik konteksində səbəb, nəticə əlaqələrin mahiyyəti və əhəmiyyəti təhlil edilmişdir. Beynəlxalq iqtisadi fəaliyyətdə istehsal və istehlakın əlaqələndirilməsi kontekisində mahiyyəti şərh edilmişdir.

Makroiqtisadiyyatda innovasiya tarazlıq, siyasi-iqtisadi şəraitdə istehsal səmərəliliyin əsas istiqamətləri kimi elmi təhlili aktuallaşmışdır. Belə ki, iqtisadi tarazlıqda xarici investisiya siyasətində kapitalın beynəlxalq hərəkətini şərtləndirən meyarların əhatəliliyi iqtisadi effektlikdə müxtəlif dövlətlərin fərqli təcrübəsi ilə müqayisə edilir. Bu konteksdə dünya ölkələrinin iqtisadi tarazlıq naliyyətlərində qəbul edilən meyarları, makroiqtisadi və sosial-iqtisadi siyasətin tənzimlənməsi əsasında innovasiyalı səmərəliliyi əks etdirir.

Beləliklə, xarici investisiyaların iqtisadi tarazlığın təmin edilməsində əhəmiyyəti xarici kapital axınlarında və innovasiyalı təminat istiqamətində ÜDM artım səmərəliliyini şərtləndirir. Belə ki, kapitalın iqtisadi tərəqqidə səmərəliliyi rəqabət və beynəlxalq siyasi-iqtisadi mövqelərin qorunması ilə səciyyələnir.

Tədqiqat əsasında məlum olur ki, ölkəyə xarici kapitalın axını üçün tətbiq edilən makro və mikroiqtisadi siyasət konkret iqtisadi hədəfləri tənzimləməklə qəbul edilir. Belə ki, BMT-nin Ticarət və İnkişaf dair Konfransının əsas istiqaməti 2001-ci ildən etibarən makroiqtisadi sahədə investisiya siyasətində həyata keçirilən tarazlıq əsasən xarici investisiyaların təşviqi və liberal-

laşması təşkil etmişdir (Abbasov, 2019). Belə liberal iqtisadi tədbir xarici sərmayənin risk tempinin tarazlığını təmin edir.

Beləliklə, xarici investisiyalar iqtisadi tarazlığa və səmərəliliyə təsiri müxtəlif meyarlarla qiymətləndirilməsi effektivliyi şərtləndirir. Belə ki, əsas inkişafda olan ölkələrin iqtisadi səmərəliliyini artıran əsas meyarları siyasi-iqtisadi xarakteri innovasiyalı faktorlar təşkil edir. Belə ki, bu istiqamətdə müşahidə olunan tendensiyalar əsasən sosial-iqtisadi normalarla xarakterizə edilir. Burada müxtəlif ölkələrin iqtisadi səmərəliliyində investisiya və mülki tənzimlənmənin əsas istiqaməti kimi sosial-iqtisadi rifah artımında effektiv tarazlıq səciyyəvidir.

Belə ki, iqtisadi tarazlığı Dünya İqtisadi Forumunda ölkələrin beynəlxalq iqtisadi rəqabətliliyini əks etdirən "Qlobal Rəqabətlilik", eləcə də ABŞ-nin İrs Fondu tərəfindən tərtib edilən hesabatlarda mülkiyyət hüquqlarının tənzimlənməsi və investisiya fəaliyyətinin səmərəliliyini şərtləndirir. Bunlar makroiqtisadi səmərəlilikdə xarici iqtisadi fəaliyyətin əsas meyarları kimi iqtisadi səmərəlilik və siyasi-iqtisadi tarazlığın zəruri istiqamətlərinin formalaşmasında adekvatlıq təşkil edir. Qeyd etmək olar ki, xarici kapitalın tənzimlənməsi və hərəkət templəri marjinal iqtisadi proseslərə yönələn siyasi tarazlığın fərqli meyarları ilə formalaşır (Aliyev, 2022).

Beləliklə, beynəlxalq iqtisadi tərəqqinin əsas tempi makroiqtisadi səmərəlilikdə davamlı artımı şərtləndirir. Belə şəraitdə dünya təsərrüfatında mülki münasibətlərə iqtisadi maraq yaradan istehsal nəticələri, kapital, texnologiyalar, işçi qüvvəsi, həmçinin istehsal meyarları əks edilir. Beləliklə, mövcud dünya iqtisadiyyatında beynəlxalq və istehsal meyarları, texnologiya mübadiləsinin intensivliyi, kapitalın və işçi qüvvəsinin beynəlxalq hərəkəti makroiqtisadi səmərəliliyi zəruri edir.

Siyasi-iqtisadi konteksdə tarazlıq makro və mikroiqtisadi tədbirlər əsasında balanslaşdırılır. Belə ki, xarici iqtisadi fəaliyyətin əsas metodu investisiya siyasəti və bazar mexanizminin təkmilləşdirilməsi, qeyri-iqtisadi risk mənbələrinin tənzimlənməsi ilə səciyyələnir.

Tədqiqat əsasında müəyyən edilir ki, ABŞ, Asiya-Sakit okean regionu və Yaponiya dövlətlərində siyasi-iqtisadi ziddiyyətlərin əsas mahiyyəti dünya bazarlarında mövcud olan haqsız rəqabətdir. Belə şəraitdə istehsalçı tərəflərin məqsədi rəqibi dünya bazarından təcrid etmək və ya rəqibdən qorumaq üçün istehlakçı maraqlarını artırmaqdır. Beləliklə, sənaye iqtisadiyyatının inkişaf etmiş dövlətləri dünyada yeni rəqib ölkələrin formalaşmasına siyasi-iqtisadi metodlarla və ya digər güc meyarı vasitəsi ilə mane olmaq iqtisadi səmərəlilikdə effektivliyi formalaşdırır (Məmmədov, 2022).

Belə şəraitdə ölkənin təbii sərvəti və iqtisadi potensialın yetərliliyi dövlətin antiinhisar siyasəti xüsusi innovasiyalı iqtisadi fəaliyyətlə tənzimlənməsini şərtləndirir (Abbasov, 2019). Burada əsas istiqamət sosial-iqtisadi tarazlığı və iqtisadi səmərəliliyi minimum əməkhaqqı, sosial təminatı Cədvəl 1-də əhatəli təsvir edilmişdir.

**Cədvəl 1**

Ölkənin sosial-iqtisadi tərəqqisinin makroiqtisadi meyarları

| MEYARLAR | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Ümumi daxili məhsul, milyon manat | 104,6 | 105,9 | 13 51,9 |
| Əhalinin hər nəfərinə hesablanan ÜDM, manat | 105,9 | 109,5 | 1 519,5 |
| Sənaye məhsulu, milyon manat | 98,19 | 98,19 | 6 19,5 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat | 103,9 | 109,8 | 261,9 |
| Kənd təsərrüfatı məhsulu, milyon manat | 103,4 | 103,9 | 510,9 |
| Dövlət büdcəsinin gəlirləri, milyon manat | 151,9 | 151,9 | 597,8 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 159,7 | 151,9 | 973,1 |

*Cədvəl DSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Təhlilərdən məlum olur ki, 2022-ci ilin birinci rübündə dövlət büdcəsinin gəlirləri 3 milyard 591,9 milyon manat təşkil edib, büdcənin icrasında 1 milyard 951 milyon manatlıq və ya ümumi daxili məhsulun 10,5 faizi qədər profisit yaranıb. 2023-ci ildə isə dövlət büdcəsinin gəlirləri dövlət borcu və zəmanətli öhdəliklərin təminatından daxilolmalar da nəzərə alınmaqla 2 milyard 759,5 milyon manat təşkil edib. Büdcə vəsaitlərinin 27,9 faizi sosial müdafiə və sosial təminatı, 19,9 faizi müdafiə və milli təhlükəsizlik tədbirləri, 12,7 faizi ümumi dövlət xidmətləri təşkil etmişdir. Belə siyasi-iqtisadi şərait real əməkhaqqı sosial rifah tarazlığını şərtləndirir.

Bu kontekstdə ABŞ-nin də real əmək bazarının sosial-iqtisadi tarazlığa təsiri makroiqtisadi səmərəliliyin əhəmiyyəti ilə xarakterikdir. Belə ki, valyuta məzənnəsi bazar şəraitində tənzimlənir və bu istiqamətdə maliyyə dalğaları iqtisadi effektliyi şərtləndirir.

Beləliklə, Prezident İlham Əliyev Dünya Bankının Azərbaycan iqtisadiyyatında əhəmiyyətini makroiqtisadi səmərəlilik və əsasən ölkəmizin xarici borcun tənzimlənməsində müstəsna dəstək kimi xarakterizə etmişdir (Aliyev, 2022). Belə ki, DB-nın Azərbaycanda mövcud fəaliyyət istiqaməti ölkəmizin gələcəkdə və "Sosial-iqtisadi tərəqqisinə dair Prioritetlərə" uyğun olan yeni istiqamətlər kimi bərpa edilən enerji təminatı, tərəqqili iqtisadiyyatı, kənd təsərrüfatı sahələrində makroiqtisadi səmərəliliyin adekvatlığını təşkil edir.

Beləliklə, bərpa olunan enerji tarazlığı iqtisadi səmərəliliyin təşkilində keyfiyyətli və davamlı qiymət artımı ilə şərtlənir. Belə ki, Lütvizadənin qeyri-səlis məntiqinə əsasında iqtisadi tarazlıq siyasi hüquqi tənzimlənmənin zəruri keyfiyyət qiyməti kimi ƏA III formulunun şərti əsasında makroiqtisadi səmərəliliyi əks etdirir. Bu kontekstdə iqtisadi müqavimət bərpa olunan enerji təminatında ixtiyari ədədlərdə fokuslaşır, Dİ formulunda sabitləşərək tənzimlənən enerjinin ƏA balansında tarazlaşır (Allahverdiyev, 2022).

Beləliklə, ƏD iqtisadi müqavimətə davamlı qoşulmuş, ƏA müqaviməti ilə ƏD III qrupunda qərarlaşmanı şərtləndirmişdir. Belə ki, D müqavimətində bərpa olunan enerji təminatını idarə etmək və onun maksimal qiymət artımını təşkil etmək iqtisadi səmərəliliyi formalaşdırır. Bu kontekstdə iqtisadi tarazlığı aktuallaşır və ƏA qiymət artımına uyğun olaraq Dİ müqavimətində formalaşan enerji təminatı siyasi-iqtisadi gərginliyi tənzimləyir. Belə ixtiyari yanaşmanın ƏA müəyyənliyi əsasında iqtisadi səmərəliliyin qiymət tarazlığı, davamlı sosial-iqtisadi rifah təminatı kimi şərtlənir.

Qəbul edilmiş iqtisadi təhlillər təmin edilən müqaviməti ilə müəyyən olunmuş qiymət artımı ƏDA iqtisadi effektliyi formalaşdırır. Belə tarazlıq siyasi-iqtisadi səmərəliliyi və insan rifahında bərpa olunan enerji artımını şərtləndirir (Allahverdiyev, 2022).

Xarici iqtisadi fəaliyyət siyasi əlaqələr ölkənin xarici valyuta ehtiyyatlarına olan tələbini balanslaşdırır (Khasbulatov, 2001). Belə ki, ölkələrin təbii ehtiyyatları istehsal edilən əmtələrin dövlətlərin iqtisadi tarazlığına əlverişli şərait yaradır. Beləliklə, əhalinin istehsal tələbinin, ölkənin isə özünütəminetmə imkanlarının genişləndirilməsi əsasında ərzaq təhlükəsizliyinin tənzimlənməsinə əlverişli şərait formalaşdırır.

**Təsvir 1**

Xarici iqtisadi siyasətdə əsas meyarlar




**Mənbə:** *Müxtəlif məlumatları əsasında müəllif tərəfindən hazırlanılmışdır.*

Xarici ticarət siyasətində əsas üstünlük, yerli bazar tələbinin mütləq üstünlüyü ilə seçilən əmtəələrin idxal-ixracı məlum mənzərəni formalaşdırır (İsmayılov, 2021). Beləliklə, ticarətin qarşılıqlı mənfəəti iqtisadi tərəqqiyə və beynəlxalq ticarətdə səmərəliliyi artırır, əmtəə dövrüyyəsini həvəsləndirir. Xarici iqtisadi siyasətin makroiqtisadi siyasətdə əhəmiyyəti istehsal birliklər, iri şirkətlərlə birgə elmi-innovativ əməkdaşlığı formalaşdırır.

Belə ki, xarici ticarətdə transmilli iqtisadiyyatın diversifikasiyasında mühüm amillə xarakterizə edilən Azad İqtisadi Zonaların yaradılması innovasiyalı metodların tətbiqi şəxsi maraqları ilə əlaqəlidir.

Beləliklə, xarici iqtisadi siyasətdə dövlətin makroiqtisadi tarazlığı nəzərə alınmadan qeyri peşəkar innovativ metodun ictimailəşməməsi üçün digər məlum metodlarla reqresiyanı zərərsizləşdirmə təşəbbüslərinə cəhd edilmişdir. Belə innovasiyalı aqresiya makroiqtisadi sabitliyin pozulması ilə səciyələnir və iqtisadi təhlükə kimi xarakterizə edilir. Belə innovativ aqresiya nəticədə makroiqtisadi siyasətin balans əsasını şərtləndirir.

Belə ki, qlobal innovativ mənfi təsirlərin tənzimlənilməsi dövlətin iqtisadi-siyasi mənafeləri baxımından zəruri hesab edilir. Mövcud arqesiyalı innovativ metodların tətbiqi dövlətin siyasi-iqtisadi mənafeləri əsasında yerli istehsalçıların, istehlakçılarında iqtisadi maraqlarını nəzərə alınması zərururətini səciyələndirir.

Belə ki, dövlət yerli sahibkarlıq subyektlərinin iqtisadi fəaliyyəti nəticəsində istehsal edilmiş məhsulların ixaracından və ya xarici bazarda istehsal edilmiş məhsulların ölkəyə idxalı zamanı, dövlət gəlirlərinin təmin edilməsi kimi milli iqtisadiyyatın mənafelərini şərtləndirir. Beləliklə, məlum olur ki, xarici iqtisadi siyasət, ölkənin yalnız ixrac-idxal əməliyyatlarının reallaşdırılması ilə yanaşı, həmdə büdcəsinin vəsaitlərinin mütləq əksəriyyətini özündə birləşdirir (Muradov, 2021).

Belə ki, xarici iqtisadi siyasətdə makroiqtisadi tarazlıq zəruri şərtlərindəndir. Bu məqsədlə, xarici ticarətin makroiqtisadi tarazlığı zəruriliyi nəzərə alaraq, milli iqtisadiyyatın xarici bazarın qlobal təsirlərindən müdafiəsi məqsədilə qorunması siyasi-iqtisadi istiqamətdə əhəmiyyətlidir. Bu kontekisdə Azərbaycan dünya dövlətləri ilə siyasi, iqtisadi, mədəni, humanitar, hərbi və s. istiqamətdə əlaqələri siyasi-iqtisadi mövqeyin qorunmasına mühüm təsir edir.

## Nəticə

Beləliklə, siyasi-iqtisadi səmərəliliyin təşkili əsasında və qeyri-tarif tənzimləmə istiqamətli, maliyyə məzənnəsinin tarazlığı zəruridir. Bu istiqamətdə həyata keçirilən iqtisadi effektlik maliyyə-pul siyasəti ilə tənzimləni aktuallaşdırır. Belə ki, ölkənin maliyyə-pul, kredit siyasətinin əsası təsnifləşdirilmiş və ölkənin iqtisadi tərəqqi hədəfləri səciyyələnmişdir. Belə ki, iqtisadi tarazlıq dalğasının əhatəliliyi makroiqtisadi sabitlik və mülki münasibətlərin tənzimlənməsi ilə şərtlənir

Hər bir ölkənin iqtisadi gücü əsas sənaye potensialı və istehsalda sığortalı innovasiya subyeklərinin mövqeyi ilə müəyyən olunur. ƏDA iqtisadi müqaviməti III qrupunda qərarlaşmanı şərtləndirir.

Belə ki, NDA enerji təminatında maksimal qiymət artımını təşkil etməklə iqtisadi səmərəliliyi formalaşdırır. Bu konteksdə iqtisadi tarazlıq balanslaşır və ƏDA qiymət artımına uyğun olaraq NDA müqavimətində formalaşan enerji təminatı siyasi-iqtisadi gərginliyi tənzimləyir. Belə ixtiyari yanaşma ƏDA müəyyənliyi əsasında iqtisadi səmərəliliyin qiymət tarazlığı, davamlı sosial-iqtisadi rifah təminatını şərtləndirir.

## Ədəbiyyat

1. Abbasov, V. H. (2019). *Sənaye iqtisadiyyatının tənzimlənməsi.*
2. Allahverdiyev, H. (2008). *İqtisadi dövlət tənzimlənməsi*. Dərs vəsaiti.
3. Allahverdiyev, D. İ. (2022). *Dünya iqtisadiyyatı: İqtisadi mənafeylər, mövcud reallıqlar və perspektivlər*.
4. Əliyev, İ. H. (2023). *İnkişaf məqsədimizdir*.
5. Əlirzayev, Ə. (2022). *İqtisadi rifah və siyasi idarəçiliyin əsas prinsipləri.*
6. İsmayılov, M. H. (2021). *Azərbaycanın iqtisadi əməkdaşlığı yeni müstəvidə.*
7. Khasbulatov, R. I. (2001). *Mirovaya ekonomika*. Ekonomika.

8. Məmmədov, N. İ. (2022). *Geosiyasətə giriş*.
9. Muradov, Ş. (2021). *Demoqrafik inkişaf.*
10. Aliyev, F. A. (2022). *Prospects for the Development of Azerbaijani Science*. Science Publishing House.

Daxil oldu: 16.09.2024
Baxışa göndərildi: 30.09.2024
Təsdiq edildi: 08.11.2024
Çap olundu: 30.11.2024

https://doi.org/10.36719/2706-6185/41/26-30

**Şəlalə Mahmudova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
shalale.makhmudova@mail.ru

# Müasir Azərbaycan uşaq ədəbiyyatında hekayə janrı

**Xülasə**

Müasir uşaq yazarları oxucuların təbiətlə, ətraf aləmlə, əşya və predmetlərlə bağlı bilgilərini artırmaq məqsədilə hekayə janrının imkanlarından daha çox istifadə edirlər. Hekayə janrı, xüsusən kiçik məktəbyaşlı uşaqların oxusu üçün ən münasib janrdır. Bildiyimiz kimi, yüksək ideyalar aşılayan uşaq əsərləri yeni nəslin təlim-tərbiyəsində mühüm rol oynayır. Hekayə janrının yığcam süjet xəttinə malik olması onun aşağı siniflərdə tədrisinə əlverişli şərait yaradır. Bu janr kiçik həcmli olmaqla yanaşı, həm də tərbiyəvi əhəmiyyət daşıyır. Bu baxımdan, bu əsərlərin yazılmasına üstünlük verilmiş və bu gün də yazılmaqdadır.

Məqalədə 90-cı illərdən bu yana yazılan hekayələrin bir qisminə diqqət yetirilmişdir. Qeyd olunmuşdur ki, müasir mərhələdə Zahid Xəlil, Qəşəm İsabəyli, Rafiq Yusifoğlu kimi qocaman sənətkarlarla yanaşı orta nəslin nümayəndələrindən Gülzar İbrahimova, Reyhan Yusifqızı, Sevinc Nuruqızı müxtəlif yaş qruplarında olan uşaqlar üçün hekayələr yazır, uşaq ədəbiyyatının inkişafına xidmət göstərirlər.

Bu mərhələdə yazılmış hekayələrdə, əsasən, 2 mövzuya toxunulmuşdur. Bunlardan birincisi – ənənəvi olan dostluq, xeyirxahlıq, humanizm, mərhəmət, əməyə çağırış və s. əxlaqi motivlərdir. İkincisi isə – müstəqillik illərində Azərbaycanda baş verən tarixi hadisələr – Qərbi Azərbaycandan, Qarabağdan didərgin düşmüş soydaşlarımızın acı taleyi, 20 Yanvar və Xocalı faciəsi, şəhidlər mövzusu təşkil edir.

***Açar sözlər:*** *hekayə, süjet, obraz, mövzu, ideya, mənəvi dəyərlər*

**Shalala Mahmudova**
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Philology
shalale.makhmudova@mail.ru

# The Short Story Genre in Azerbaijani Modern Children's Literature

**Abstract**

Modern children's writers increasingly use the short story genre to enhance readers' knowledge about nature, the environment, objects, and items. The short story genre is particularly well-suited for young school-aged children. As we know, children's literature that conveys important ideas plays a significant role in the education and upbringing of the new generation. The compact plot structure of short stories makes them ideal for teaching in lower grades. Despite being brief, this genre also carries educational value. For this reason, such works have been favored in writing and continue to be produced today.

The article focuses on some of the short stories written since the 1990s. It is noted that, in the modern era, alongside veteran writers like Zahid Khalil, Gashem Isabeyli, and Rafiq Yusifoglu, representatives of the middle generation such as Gulzar Ibrahimova, Reyhan Yusifgizi, and Sevinj Nurugizi also write stories for children of various age groups, contributing to the development of children's literature.

In the stories written during this period, two main themes are primarily addressed. The first includes traditional moral motifs such as friendship, kindness, humanism, compassion, and the call to hard work. The second theme focuses on the historical events that occurred in Azerbaijan during

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

the years of independence, including the tragic fate of our compatriots displaced from Western Azerbaijan and Karabakh, as well as topics like the January 20 events, the Khojaly massacre, and the stories of martyrs.

***Keywords:*** *short story, plot, character, theme, idea, moral values*

## Giriş

Azərbaycan uşaq ədəbiyyatı yarandığı gündən bugünəcən durmadan inkişaf etmiş, bir çox mərhələlərdən, tarixi dönəmlərdən keçərək zənginləşmişdir. Tanınmış ədəbiyyatşünasların da qeyd etdiyi kimi, uşaqlar üçün əsər yazmaq böyüklər üçün yazmaqdan daha qəliz və əziyyətlidir. Çünki uşaq üçün yazan özü artıq uşaq deyil, o, uşaqların nə düşündüyünü, onların marağını daha çox nə cəlb etdiyini bilmək üçün onlar kimi düşünməyi bacarmalıdır. Bunun üçün yazıçı uşaqlar arasında çoxlu vaxt keçirməli, onlarla ünsiyyətə girməli, kənardan onları müşahidə etməlidir.

"Azərbaycan uşaq ədəbiyyatının son illər meydana gəlmiş ədəbi yaradıcılığını nəzərdən keçirdikdə belə bir nəticəyə gəlmək olur ki, uşaqlar üçün yazan qələm sahiblərimiz öz imkanları çərçivəsində balaca oxucuların təlim-tərbiyəsinə, mənəvi dəyərlərinin inkişafına və formalaşmasına təsir edən əsərlər yaratmağa çalışmışlar. Xüsusilə Azərbaycan Respublikasının əldə etdiyi azadlıqdan sonra uşaq ədəbiyyatında az da olsa, yeni səpgili əsərlərin yazılmasına meyil artmışdır" (Xəlil, Əsgərli, 2007, s. 433-434).

**Tədqiqat**

Müasir uşaq ədəbiyyatı nümayəndələri həm ədəbiyyatın şifahi qolundan, həm yazılı qolundan bəhrələnərək sələflərinin yolunu layiqincə davam etdirir, eyni zamanda dövrün tələblərinə cavab verən orijinal əsərlər ortaya qoyurlar. Azərbaycan uşaq ədəbiyyatı nəzm və nəsrlə yazılan gözəl əsərlər hesabına zənginləşir, inkaşaf edir. Lakin müasir mərhələdə uşaq üçün əsər yazmaq, onları təəccübləndirmək elə də asan deyil. "Yerin altını da, üstünü də bilən müasir uşaq həyatın elə bir problemi yoxdur ki, onunla maraqlanmasın. Uşaqların maraq selini səngitmək, onu lazımi məcraya yönəltmək üçün uşaq ədəbiyyatının xidməti əvəzsizdir. Hamıya məlumdur ki, insan dünya, kainat, təbiət, cəmiyyət və s. haqqında gərəkli informasiyaların əksəriyyətini körpə vaxtlarından hafizəsinə həkk edir. Elə buna görə də uşağın gələcək dünyagörüşünün formalaşmasında, onun layiqli vətəndaş kimi böyüməsində uşaq ədəbiyyatını əvəz edəcək ikinci bir vasitə yoxdur" (Yusifoğlu, 2006, s. 3). Bu səbəbdən uşaq ədəbiyyatı nümayəndələrinin üzərinə çox böyük bir məsuliyyət düşür. Hər bir uşaq yazarı bacardığı qədər bu məsuliyyətli işin öhdəsindən gəlməyə çalışır.

"Uşaq ədəbiyyatı dünyası öz mövzuları və süjetləri, fərqli qəhrəmanları, dili və üslubu olan bir ədəbiyyat kimi inkişaf edir. Müstəqillik dövründə Azərbaycan uşaq ədəbiyyatının bir neçə yaradıcı nəsli böyük ədəbiyyat meydanında öz sözünü deməkdədir" (Həbibbəyli, 2020)**.** Azərbaycan uşaq poeziyası və dramaturgiyası ilə yanaşı nəsri də durmadan inkişaf edır. Müasir mərhələdə Azərbaycan uşaq ədəbiyyatı nümayəndələrindən Gülzar İbrahimova, Reyhan Yusifqızı, Sevinc Nuruqızı müxtəlif janrlara müraciət etməklə yanaşı, hekayə janrında da bir-birindən maraqlı əsərlər yaratmışlar.

Digər janrlardan fərqli olaraq, hekayədə əhvalat və hadisə yığcam, konkret nəql olunur, surətlərin sayı az olur. Bu janr uşağı yormur, ona görə də bu əsərləri sevə-sevə dinləyir və oxuyurlar. Uşaq yazarları da hekayənin məhz bu xüsusiyyətini nəzərə alaraq, xüsusən kiçik yaşlı uşaqların xəyal aləminə uyğun, onları düşündürən mövzulara toxunmuşlar.

G. İbrahimovanın "Yaxşılıq", "Svetofor", "Əsl dost", "Yaxşı yoldaş", "Yeni il möcüzəsi", "Küsülülər", "Aramızda qalsın", "Dilli Güllü", "İcazə", "Dostlarım məndən qaçır", "Sehrli qar adamı" kimi hekayələri, Reyhan Yusifqızının "Xoşbəxt arı", "Mavi don", "Mən və nənəm", "İki qardaş", "Musanın əhvalatı", "Şəhrizad nağıl axtarır", "Dəcəl ilbizlər", "Ən gözəl", "Leyla və Günəş", "İgid şahin" və s. hekayələri, Sevinc Nuruqızının nisbətən böyük yaşlı uşaqlar üçün yazdığı "Şah İsmayıl Xətai", "Ağabəyim ağa", "Babək" hekayələri, kiçik yaşlı uşaqlar üçün qələmə aldığı "Al-qırmızı zanbaqlar", "Balaca və vicdanlı avtobus", "Bir nimçə çəmən", "Ağca və Cubbulu" və s. hekayələri təlimi-tərbiyəvi əhəmiyyətə malik olub, uşaqların zehni qabiliyyətlərinin inkişafına, leksikonlarının zənginləşməsinə, dünyagörüşlərinin artmasına şərait yaradır, həmçinin onlara müəyyən dərəcədə elmi biliklər aşılayır.

Bu hekayələrin əsas qəhrəmanları kiçik yaşlı uşaqlardır. Hər üç yazıçı yaratdığı surətlər vasitəsilə oxucularına dostluqda sədaqətli olmağı, dürüstlüyü, əməksevərliyi, vətənpərvərlik duyğularını təlqin edir.

Bu əsərlərdə uşaqların həyat tərzini təsvir edən hadisələr öz bədii əksini tapmış, müxtəlif yaş qruplarnı əhatə edən maraqlı mövzulara müraciət olunmuş, müasir oxucunu düşündürən problemlərə toxunulmuşdur.

Uşaqların sevimli yazıçısı, ədəbiyyat aləmində "Gülzar nənə" təxəllüsü ilə tanınan İbahimova ixtisasca iqtisadçı olmasına baxmayaraq, xalq yaradıcılığına, söz sənətinə olan məhəbbəti onu öz sehrinə salmış, ədəbiyyat aləminə gətirmişdir. Onun bu istedadını, bədii ədəbiyyata olan sevgisini görən BDU-nun professoru Qara Namazov yazıçıya öz xeyir-duasını vermiş, uşaqlar üçün gözəl əsərlər yazmağa davam etməsi üçün Gülzar xanıma yüksək dəyər verərək bu müqəddəs işdə ona mənəvi dəstək göstərmişdir. Q. Namazovun rəhbərliyi ilə təşkil edilmiş komissiya araşdırmalarından sonra Gülzar İbrahimova müasir uşaq yazıçısı kimi Bakı Dövlət Universitetinin "Azərbaycan Uşaq Ədəbiyyatı" dərsliyinə salınmışdır. Qara Namazov dərslikdə Gülzar xanımın yaradıcılığını belə qiymətləndirir: "O, müxtəlif bədii üsullardan istifadə edərək süjet qurur, əhvalata bəzək vurur, xalq nağıllarının dilinə uyğunlaşdırır, onun bədii formalarından ustalıqla istifadə edir" (Namazov, 2007, s. 435).

Müəllifin "Dostlarım məndən qaçar" adlı kitabı Qara Namazovun məsləhətçiliyi ilə çap olunmuşdur. Kitaba yazıçının dünya ədəbiyyatından iqtibas yolu ilə yazdığı "Yaxşılıq", "Svetofor", "Əsl dost", "Yaxşı yoldaş", "Yeni il möcüzəsi", "Küsülülər", "Aramızda qalsın", "Dilli Güllü", "İcazə", "Dostlarım məndən qaçır", "Sehrli qar adamı" kimi hekayələri daxil edilmişdir.

"Yaxşılıq" hekayəsinin qəhrəmanı Tərlan adlı oğlandır. Hekayədə yaxşılıq etməkdən və onun mahiyyətindən bəhs olunur. Səhərin açılmasına baxmayaraq, oğlunun hələ də yerindən qalxmadığını görən ana onun otağına gəlir və soruşur ki, bəlkə, nə düşündüyünü mənə də deyəsən? Bu vaxt Tərlan kiməsə yaxşılıq etmək haqqında düşündüyünü bildirir. Ana deyir ki: "əgər sən vaxtında yuxudan durub yatağını səliqəyə salsan, məni çox sevindirərsən. Bacını yelləncəyə aparsan, o, çox şad olar. Totuya su versən, bu sənin dilsiz canlıya yaxşılığın olar. Bax elə yaxşılıq da bundan ibarətdir" (İbrahimova, 2002, s. 7).

Hekayənin məzmunundan da göründüyü kimi, əsər tərbiyəvi əhəmiyyətə malikdir. Müəllif uşaqları xeyirxah, qayğıkeş, mərhəmətli olmağa səsləyir.

Müasir Azərbaycan uşaq ədəbiyyatının digər tanınmış nümayəndələrindən biri olan Reyhan Yusifqızı kiçik yaşlı oxucuların təxəyyülünə uyğun, sadə və anlaşıqlı bir dildə, müxtəlif janr və mövzularda əsərlər yazmış, bu əsərlərlə uşaqların qəlbinə yol tapmağa nail olmuşdur. R. Yusifqızı əsərlərində uşaqların tərbiyəsinə müsbət təsir göstərən, onların bədii zövqünü formalaşdıran, mütaliəyə həvəsini artıran tərbiyəvi əhəmiyyətə malik, gənc nəslin mənəvi cəhətdən zənginləşməsinə xidmət göstərən mövzulara toxunmuşdur. Bu əsərlər dilinin sadəliyi, axıcılığı, oxunaqlığı baxımından diqqəti cəlb edir. Müəllif kiçik oxucuların marağını nəzərə almış, əsərlərinin anlaşıqlı, yaddaqalan olmasına müvəffəq olmuşdur.

"Yazıçının yaradıcılığına nəzər salanda kiçikhəcmli hekayələrin üstünlük təşkil etdiyini görürük. "Mən və nənəm", "İki qardaş", "Musanın əhvalatı", "Şəhrizad nağıl axtarır", "Dəcəl ilbizlər", "Ən gözəl", "Leyla və Günəş", "Boz bala dovşanın qulaqları niyə əsirdi", "İgid şahin" kimi yığcam hekayələrdə müxtəlif mövzu və motivlərə toxunan Reyhan Yusifqızı hər bir əsərdə yeni problem ifadə edir, uşaqların maraqlarına uyğun məzmunda, oxunaqlı bədii əsərlər yaradır. Mövzunun uğurlu seçimi, süjet xəttinin ardıcıl quruluşu, uşaqların ruhuna yaxınlığı həmin əsərlərin sevilə-sevilə oxunmasına səbəb olur və onların şəxsiyyətinin formalaşması, bir fərd kimi yetişməsində əhəmiyyətli rolunu təcəssüm etdirir" (Qəmbərova, 2024, s. 18).

Reyhan Yusifqızı "Xoşbəxt arı", "Mavi don", "Mən və nənəm", "İki qardaş", "Musanın əhvalatı", "Şəhrizad nağıl axtarır", "Dəcəl ilbizlər", "Ən gözəl", "Leyla və Günəş", "İgid şahin" və s. hekayələrində uşaqları düşündürən mənəvi-əxlaqi mövzulara toxunmuşdur.

R. Yusifqızının "Mavi don" hekayəsinin mövzusu real həyatdan götürülmüşdür. Hekayədə Birinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman atanın ailəsindən, onların qarşılaşdıqları çətinliklərdən söhbət açılır.

Ata şəhid olduqdan sonra ailənin qayğısı ananın zərif çiyinlərinə düşür. İndiyəcən heç yerdə çalışmayan ana xeyirxah insanların köməkliyi ilə işə düzəlir. Ailənin böyük övladı Səiddir, o, bacısı Leylanın arzuladığı mavi donu almaq üçün mağaza müdirindən ona iş verməsini xahiş edir. Onun məktəbli olduğunu görən müdir əvvəlcə razı olmur, lakin işləmək arzusunun səbəbini bildikdən sonra müdir mağazanın qarşısındakı maşını göstərib, deyir: "O maşını ehtiyac olduqca beş-altı dəfə yusan, paltarı götürüb apara bilərsən" (Yusifqızı, 2023, s. 23). Səid bacısının mağazada gördüyü mavi donu almaq üçün bir neçə dəfə maşın yumalı olur.

Burada Səidin bacısının arzusunu yerinə yetirmək üçün günlərlə əziyyətə qatlaşması, bacısını sevindirmək istəyi onun fədakarlığından, xeyirxah təbiətə malik bir uşaq olmasından xəbər verir.

Azərbaycan uşaq yazarı, şair, tərcüməçi, publisist Sevinc Nuruqızı uşaqlar üçün müxtəlif janrlarda və rəngarəng mövzularda əsərlər yazmış, oxucularına milli-mənəvi dəyərlər, estetik zövq aşılamağa çalışmışdır. S. Nuruqızının nisbətən böyük yaşlı uşaqlar üçün yazdığı "Şah İsmayıl Xətai", "Ağabəyim ağa", "Babək" hekayələri, kiçik yaşlı uşaqlar üçün qələmə aldığı "Al-qırmızı zanbaqlar", "Balaca və vicdanlı avtobus", "Bir nimçə çəmən", "Ağca və Cubbulu" və s. hekayələri təlimi-tərbiyəvi əhəmiyyətə malikdir.

Məzmununa, dil-üslub xüsusiyyətlərinə görə, müəllifin ən yaxşı əsərlərindən biri hesab olunan bu hekayə 6-cı sinif ədəbiyyat dərsliyinə daxil olunmuşdur. Hekayədə Ağabəyim ağanın qürbətdə keçirdiyi xiffət, nisgil dolu həyatından, onun Vətən həsrətindən bəhs olunur. Əsər məktəbyaşlı oxucularda Vətənə məhəbbət hissi oyadır. Əsərin ideyası "Qürbət cənnət olsa da, yenə Vətən yaxşıdır" atalar sözü ilə səsləşir.

Yazıçının vətənpərvərlik mövzusunda yazdığı "Cənnətdə görüşərik" hekayəsi Azərbaycanın milli qəhrəmanı Mübariz İbrahimova həsr olunmuşdur. Müəllif digər tarixi mövzuda yazdığı əsərlərində olduğu kimi bu əsərində də real faktlara əsaslanmış, Mübarizin qəhrəmanlığı haqqında olan mənbələrə müraciət etmişdir. Əərin sonluğu oxucuya güclü təsir bağışlayır: "Sonra haradansa xain bir güllə gəldi. Vəhşi bağırtıyla uğuldadı... Uladı... Mübarizin sinəsinə sancıldı. Düşdüyü yeri parçaladı, dağıtdı... Sanki bir dağ çökdü. Ucadan uca bir dağ. Bir qaya paramparça oldu. Şiş ucu göylərə meydan oxuyan bir qaya. Bir oğul yıxıldı – "YA VƏTƏN", – deyib çağırdığının sinəsinə. Yıxıldı… Üzündə təbəssüm, səmaya dirənmiş gözlərində sonsuz sevinc: Allahım! Qürurla ölmək nə böyük xoşbəxtlik imiş. Nə qədər uca zirvə imiş ŞƏHİDLİK ZİRVƏSİ!" (Nehmətova, 2020, s. 17)

Sevinc xanımın həm əxlaqi, həm də tarixi mövzularda yazdığı hekayələr maraqlı süjet xəttinə, ibrətamiz xüsusiyyətinə və dilinin sadəliyinə, oxunaqlığına görə diqqəti cəlb edir. Eyni zamanda bu əsərlər müasir uşaq nəsrinin inkişafında mühüm rol oynayır.

Məktəbyaşlı uşaqların bu kimi hekayələri mütaliə etməsi, sinifdənxaric oxusunun, müzakirəsinin təşkili onların təfəkkürünün, bədii zövqünün formalaşmasında mühüm rol oynayır. Hər üç yazarın uşaqlar üçün yazdığı hekayələr həcmcə yığcam, dili sadə və anlaşıqlıdır. Bu əsərlər uşaqların dünyagörüşünün artmasına, nitqlərinin zənginləşməsinə, elmi biliklərinin möhkəmlənməsinə, vətənpərvər ruhda böyüməsinə xidmət göstərir. Bu baxımdan, uşaqlar üçün yorulmadan bir-birindən gözəl əsərlər yaradan qələm sahiblərinə yeni-yeni yaradıcılıq uğurları, geniş oxucu auditoriyası arzulayırıq.

## Nəticə

Hekayə janrı həcmcə yığcam olduğuna görə, xüsusən kiçik yaşlı məktəblilərin oxusu üçün əlverişlidir və aşağı siniflərdə − ədəbiyyat fənninin tədrisində bu janra, təbii ki, dil-üslub baxımından və ideyaca yüksək keyfiyyətə malik hekayələrə üstünlük verilməsi tövsiyə olunandır. Bu janr yığcam olmaqla yanaşı, həm də tərbiyəvi əhəmiyyət daşıyır, bu baxımdan, bu əsərlərin yazılmasına bütün zamanlarda üstünlük verilmiş və bu gün də yazılmaqdadır.

Azərbaycan uşaq ədəbiyyatının müasir mərhələsində hekayə janrında yeni-yeni əsərlər meydana çıxmışdır. G. İbrahimova, R. Yusifqızı, S. Nuruqızı kimi yazarlar bu janrda bir-birindən maraqlı, rəngarəng mövzularda əsərlər yaradır, uşaq ədəbiyyatının inkişafına xidmət göstərirlər.

**Ədəbiyyat**

1. *Fantastikadan reallığa*. (2024). https://edebiyyatqazeti.az/news/edebi-tenqid/11776-fantastikadan-realliga
2. Xəlil, Z., Əsgərli, F. (2007). *Uşaq ədəbiyyatı*. "ADPU" nəşriyyatı.
3. İbrahimova, G. (2002). *Dostlarım məndən qaçar*. "Oskar" NPM.
4. Nehmətova, K. A. (2020). *Yazi işinin təşkili metodikası.* Təhsil İnstitutu.
5. Namazov, Q. (2007). *Azərbaycan uşaq ədəbiyyatı*. "Bakı Dövlət Universiteti" nəşriyyatı.
6. Nuruqızı, S. (2010). *Ağabəyim ağa*. Aspoliqraf.
7. *Uşaq dünyasında ədəbiyyat və uşaq ədəbiyyatı dünyası*. (2020). https://edebiyyatqazeti.az/news/edebi-tenqid/5754-usaq-dunyasinda-edebiyyat-ve-usaq-edebiyyati-dunyasi
8. Yusifoğlu, R. (2006). *Uşaq ədəbiyyatı*. Şirvannəşr.
9. Yusifqızı, R. (2023). *Yağışın altında*. TEAS Press.
10. Yusifli, V. (2019, 12-14 yanvar). Uşaqların Gülzar nənəsi. "*Kaspi" qəzeti*.

Daxil oldu: 26.09.2024
Baxışa göndərildi: 09.10.2024
Təsdiq edildi: 16.11.2024
Çap olundu: 30.11.2024

https://doi.org/10.36719/2706-6185/41/31-36

**Arzu Xəlilzadə**
Bakı Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
arzuxelilzade89@gmail.com

# Azərbaycan Respublikasında iqtisadiyyatın şaxələndirilməsi siyasəti (2003-2020)

## Xülasə

Azərbaycan Respublikasında sənayenin inkişafı yalnız neft, qaz istehsalını əhatə etmir. Tədqiq olunan illərdə sənayenin digər sahələri, xüsusilə ağır sənaye və maşınqayırma sənayesi, nəqliyyat və logistika, informasiya-kommunikasiya texnologiyaları sahəsində müəyyən praktik addımlar atılmış, kiçik və orta sahibkarlığın inkişafı diqqət mərkəzində olmuşdur. Bu sahədə strateji inkişafa nail olmaq üçün Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə konsepsiya və fəaliyyət planları qəbul edilmiş, konkret məqsəd və vəzifələr müəyyənləşdirilmişdir. Dövlət müstəqilliyinin bərpasından sonra iqtisadiyyatın şaxələndirilməsi, ənənəvi iqtisadi sahələrlə yanaşı, müasir dünyanın çağırışlarına cavab verən sənaye sahələrinin yaradılması və inkişafı strateji vəzifələr olaraq qəbul edilmişdir.

Bu baxımdan məqalədə 2003-2020-ci illər ərzində Azərbaycan Respublikasında iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlər, qeyri-ənənəvi sənaye sahələrinin inkişafı ilə bağlı qəbul edilən sənədlər və praktik nəticələr öyrənilmiş, bu istiqamətdə meydana çıxan çətinliklərin səbəbləri təhlil edilmişdir.

Müəllif məqalədə maşınqayırma sənayesinin inkişafı və yerli avtomobillərin istehsalı sahəsində müəyyən bölgələrin inkişafı, ayrı-ayrı zavodların yaranması və sənaye sahələri ilə yanaşı, kiçik və orta sahibkarlığın inkişafının vacibliyi, bu sahədə aparılan dövlət siyasəti, meydana çıxan problemlər barəsində təhlillər aparmış, Azərbaycanın Cənubi Qafqazda Şərq – Qərb, Şimal – Cənub nəqliyyat dəhlizlərinin mərkəzində yerləşməsi, əlaqələndirici dövlət statusunda olması, bunun Azərbaycan üçün üstünlüklərini göstərmişdir.

Müəllif belə nəticəyə gəlmişdir ki, kiçik və orta sahibkarlığın inkişafı cəmiyyətin vacib elementi hesab olunur, nəqliyyat və logistika sahəsində Azərbaycanın Azərbaycanın Asiya və Avropanı əlaqələndirməsi ölkənin əhəmiyyətini artrır və eyni zamanda informasiya mərkəzinə çevirmiş olur.

***Açar sözlər:*** *Azərbaycan, ağır sənaye, maşınqayırma, nəqliyyat və logistika, sahibkarlıq, informasiya texnologiyaları*

**Arzu Khalilzade**
Baku State University
Doctor of Philosophy in History
arzuxelilzade89@gmail.com

# Economic Diversification Policy in the Republic of Azerbaijan (2003-2020)

## Abstract

The development of industry in the Republic of Azerbaijan includes not only oil and gas production. In the studied years, certain practical steps were taken in other areas of industry, especially in the field of heavy industry and machine-building industry, transport and logistics, information and communication technologies, and the development of small and medium-sized enterprises was in the spotlight. In order to achieve strategic development in this area, the relevant orders of President Ilham Aliyev adopted concepts and action plans, defined specific goals and objectives. After the restoration of State independence, diversification of the economy, along with

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

traditional economic sectors, the creation and development of industries that meet the challenges of the modern world were recognized as strategic tasks.

From this point of view, the work carried out in the direction of diversification of the economy in the Republic of Azerbaijan during 2003-2020, the documents and practical results adopted on the development of non-traditional industries were studied, and the causes of difficulties in this direction were analyzed.

In the article, the author analyzed the importance of development of small and medium-sized enterprises along with the development of the machine–building industry and the development of certain regions in the field of production of domestic cars, the establishment of separate factories and industries, state policy in this area, emerging problems, the location of Azerbaijan in the center of East–West, North–South transport corridors in the South Caucasus and its status as a coordinating state, have shown its advantages for Azerbaijan.

***Keywords:*** *Azerbaijan, heavy industry, mechanical engineering, transport and logistics, entrepreneurship, information technology*

## Giriş

Azərbaycanda neft sənayesinin inkişafı ilə yanaşı, iqtisadiyyatın digər sahələrində də şaxələndirmə siyasəti həyata keçirilmiş, alternativ sənaye sahələri də inkişaf etmişdir.

Dövlət müstəqilliyinin bərpa edilməsindən sonra Azərbaycanda ağır sənaye və maşınqayırma sənayesinin inkişafı diqqət mərkəzində olmuşdur. Bu sənaye sahələrinin inkişaf yolu tarixi əhəmiyyətə malikdir. Maşınqayırma sənayesi 150 illik bir tarixə malik olmuş və onun idarəetmə strukturu dəfələrlə dəyişmişdir. İlk dəfə 1935-ci ildə Azərbaycanda neft-qaz maşınqayırma sənayesi birliyi yaradılmışdır. Sonralar neft-mədən avadanlıqlarının və alətlərinin istehsalı və təmiri müəssisələrinin birləşdirilməsi nəticəsində Ümumittifaq Neftmaşınqayırma Tresti "Az-neftmaş" yaradıldı və bu da sonralar Ümumittifaq Sənaye Birliyi (ÜSB) "Soyuzneftmaş"a, daha sonra isə "Azneftkimyamaş" Dövlət Şirkətinə çevrildi. Bu sahədə sonrakı dövrdə struktur dəyişikliklər davam etdirildi. 2001-ci ilin mart ayında Prezident Heydər Əliyevin Sərəncamı ilə "Azneft-kimyamaş" Dövlət Şirkətinin bazasında eyniadlı açıq səhmdar cəmiyyəti yaradıldı. Bununla Azərbaycanın neft maşınqayırma sənayesi yeni bir mərhələyə qədəm qoydu (Abbasov, Əliyev, 2018, s. 70-74).

### Tədqiqat

2004-cü ilin dekabr ayından "Gəncə avtomobil zavodu İstehsalat Birliyi fəaliyyət başlamış, müəssisədə "OKA", "UAZ", "ÇAN-QAN" markalı avtomobillərin yığımı həyata keçirilmiş, 2007-ci ilin mart ayından etibarən Belarusun Minsk avtomobil və traktor zavodları ilə bağlanmış müqaviləyə əsasən Gəncə avtomobil zavodunda müxtəlif markalı traktor və MAZ avtomobillərinin istehsalına başlanılmışdır. Azərbaycanda "Azsamond" avtomobillərinin istehsalına 2005-ci ildən başlanılmışdır. İran tərəfi ilə əldə olunmuş razılığa əsasən, avtomobillərin ehtiyat hissələri bütünlükdə İrandan gətirilir və Şamaxı Avtomobil Zavodunda montaj olunurdu.

Azərbaycan ərazisində ümumi maşınqayırma sənayesinə aid edilən bir sıra müəssisələr Müdafiə Sənayesi Nazirliyinin tərkibindədir. Artıq Azərbaycanda "Oka", "Azsamand"la yanaşı, "Aziz", "Lifan" minik avtomobilləri istehsal edilir və çeşidləri genişləndirilir (Abbasov, Əliyev, 2018, s. 70-74).

Azərbaycanda ağır sənayenin inkişafı məqsədilə 2016-cı il dekabrın 6-da "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi" hazırlanmışdır. Bu strateji yol xəritəsi Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli Sərəncamı ilə müəyyən edilmiş vəzifələrin icrası məqsədilə hazırlanmışdır (Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 2016). Strateji Yol Xəritəsinin əsas məqsədi qeyri-neft sənayesini inkişaf etdirmək, iqtisadiyyatın şaxələndirilməsi, ağır sənaye və maşınqayırma sahəsində məşğulluğun artırılması, ətraf mühitin qorunması və dayanıqlı iqtisadi inkişafa nail olmaq, əhalinin həyat səviyyəsinin yaxşılaş-

dırılmasından ibarət idi. Ağır sənaye və maşınqayırma sahəsində əsas strateji hədəflər rəqabətədavamlı sektorun yaradılması, maliyyə dəstəyinin təmin edilməsi və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi idi (Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi, 2016).

2004-cü ildən etibarən Azərbaycanda sənayenin yeni inkişaf dövrü başlamış, neft-qaz sənayesindən əldə edilən gəlirlərin bir hissəsi sənayenin müxtəlif sahələrinin inkişafına yönəldilmiş, regionlarda sənaye strukturunun optimallaşdırılması üçün dövlət proqramları tərtib edilmişdir (Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi, 2016). Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2014-cü il "Sənaye ili" elan olunmuş, sənayenin inkişafı üzrə tədbirlər planı icra edilmişdir ("Azərbaycan Respublikasında 2014-cü ilin "Sənaye ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2014).

Tədqiq olunan illərdə Azərbaycanın metallurgiya və maşınqayırma sahələrində ciddi irəliləyişlər olmuşdur. Maşınqayırma sənayesində məhsul istehsalı 15 dəfəyə yaxın artmış, sahənin qeyri-neft emalı sənayesində payı 21,5 faizə çatmışdır. Ağır sənaye və maşınqayırma sahəsində yeni istehsal müəssisələri istismara verilmişdir. Sumqayıt Texnologiyalar Parkı, Sumqayıt Alüminium Zavodu, Gəncə Alüminium Yarımfabrikatı Zavodu, Sumqayıt, Gədəbəy və Daşkəsəndə qızıl-mis emalı zavodları, Qaradağ Sement Zavodu, Naxçıvan Avtomobil Zavodu və s. müəssisələr bu qəbildəndir və ölkə iqtisadiyyatı üçün əhəmiyyətli olmuşdur (Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi, 2016).

Tədqiq olunan illərdə bu sahədə əsas təhlükələr xarici maliyyə bazarlarına çıxışın çətinliyi, ölkənin dünya sənayesində gedən proseslərdən və yeni tələblərdən geridə qalması, ətraf mühitin qorunmasının aktuallığı, idxal məhsulları sahəsində rəqabətin artması, xammal idxalından asılılıq və ölkədə mövcud olmayan xammala idxal rüsumlarının tətbiqi idi (Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi, 2016).

This article assessed the development prospects of "ASAN service" centers in the liberated territories, with significant emphasis on the application of modern innovative approaches to service delivery, the use of digital solutions, and establishing intelligent infrastructure. First of all, this means the digitalization of government services and simplification of citizen service procedures, setting new standards in government-citizen relations. It reviews the application of smart technologies in the Karabakh region, showing such solutions as "Smart Parking," "Smart Waste Bins," "Smart Light Poles", and "Intellectual Cameras". Special attention was paid to developing electronic services in the region through the use of such technologies as Voice and Facial Recognition System, biometric devices, and QR code scanners that make access to services outcomes more available and easy. It debates the advantages that this approach can bring in dealing with utility management problems, security, and other concerns, and its implementation prospects. The article has discussed the role of digital technologies in the improvement of regional governance and enhancement of economic potential in an extensive manner by applying variants of theoretical and practical methodologies. It is underlined that these models finally contribute to the sustainable

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

regional development, improvement of the quality of life of citizens, and optimization of government services.

***Keywords:*** *ASAN service, territories liberated from occupation, intellectual infrastructure, digital technologies, smart services.*

## Giriş

İşğaldan azad edilmiş ərazilərdə yeni xidmət növlərinin və formalarının tətbiqi dedikdə, ilk növbədə innovativ yanaşmaların və müasir texnologiyaların həmin regionlarda tətbiqi nəzərdə tutulur. Xidmət innovasiyaları anlayışı, xidmət sektorunun müasir iqtisadiyyatda artan önəmini və bu sektorun inkişafında rəqəmsal həllərin xüsusi çəkisinin yüksəlməsini əks etdirir. Müasir müştərilərin, xüsusilə də texnologiyanın həyatın bütün sahələrinə inteqrasiya olunduğu rəqəmsal dövrdə, maksimum rahatlıq və sadəlik gözləntiləri olduğu müşahidə edilir. Məsələn, bir toxunuşla həyata keçirilən ödəniş sistemləri, xidmət innovasiyalarının ən bariz nümunəsi kimi təqdim edilə bilər. Bu kimi texnoloji həllərin tətbiqi, müasir xidmətlərə olan tələbin dinamik olaraq artmasına səbəb olmuş və azad olunmuş ərazilərdə də bu cür innovativ həllərə olan ehtiyacı artırmışdır (Günay, 2022).

**Tədqiqat**

Cəmiyyətin həyatında internetin rolunun sürətlə genişlənməsi ilə dövlət qurumları bu dəyişikliklərə uyğunlaşmaq və fəaliyyətlərini müasir texnologiyalarla inteqrasiya etmək məcburiyyətindədir. Elektron hökumət təşəbbüsləri həm inkişaf etmiş, həm də inkişaf mərhələsində olan ölkələr üçün strateji əhəmiyyət kəsb edir. Xüsusilə sürətlə inkişaf edən dövlətlərdə bu proqramlar, infrastrukturun təkmilləşdirilməsinə və kiçik və orta sahibkarlığın dəstəklənməsinə ciddi təsir göstərmişdir. E-hökumət həlləri, dövlət idarələri arasında sənəd və məlumat mübadiləsini daha çevik və effektiv hala gətirməklə yanaşı, məlumatların vahid platformada saxlanılmasını təmin edir. Bununla yanaşı, bu yanaşma həm idarəetmədə şəffaflığı artırır, həm də resursların daha məhsuldar istifadəsinə imkan yaradır (Əsədov, Əsədov, 2017).

Buna görə də işğaldan azad edilmiş ərazilərdə qurulacaq hər hansı xidmət sahəsinin mütləq şəkildə müasir innovativ standartlara cavab verməsi zəruridir. Bu yanaşma yalnız xarici investorların həmin regiona marağını artırmaqla kifayətlənməyəcək, eyni zamanda yaradılan müəssisələrin daha dayanıqlı, uğurlu və gəlirli fəaliyyət göstərməsinə şərait yaradacaqdır. Azərbaycanda bu istiqamətdə həyata keçirilən ən uğurlu təşəbbüslərdən biri, şübhəsiz ki, “ASAN xidmət” modelidir. Bu innovativ konsepsiya Prezident İlham Əliyevin 2012-ci il 13 iyul tarixində imzaladığı 685 nömrəli Fərman əsasında yaradılmışdır. “ASAN xidmət” mərkəzləri, dövlət qurumlarının göstərdiyi xidmətləri vahid bir çərçivədə koordinasiya etməklə vətəndaşlara daha səmərəli şəkildə təqdim olunmasını təmin edən unikal bir struktur kimi fəaliyyət göstərir (Hacıyeva, 2013).

Bu mərkəzlər, dövlət qurumları tərəfindən həm fiziki, həm də hüquqi şəxslərə təqdim olunan müxtəlif xidmətləri bir araya gətirərək onların daha sürətli, rahat və effektiv şəkildə əldə edilməsini təmin edir. “ASAN xidmət” mərkəzləri, eyni zamanda xidmətlərin elektron formada təqdim olunmasını dəstəkləyərək istifadəçilərə məhsuldar və funksional həllər təqdim edir. Bu mərkəzlər, dövlət xidmətləri sahəsində innovativ yanaşmanın bariz nümunəsi olmaqla yanaşı, dövlətin vətəndaşların artan tələblərinə çevik və effektiv cavab verə bilməsi üçün tətbiq etdiyi qabaqcıl bir modeldir.

*Qədim Diyar* Beynəlxalq Elmi Jurnal. 2024 / Cild: 6 Sayı: 11 / 58-62 ISSN: 2706-6185
*Ancient Land* International Scientific Journal. 2024 / Volume: 6 Issue: 11 / 58-62 e-ISSN: 2709-4197

**Qrafik 1**

"ASAN xidmət" mərkəzlərinə illər üzrə müraciət sayı




**Mənbə**: *http://99.https//vxsida.gov.az/statistics/*

"ASAN xidmət" mərkəzlərinin yaradılmasının əsas məqsədi, dövlət qulluqçularının fəaliyyətində vətəndaş məmnuniyyətinə yönəlmiş yeni strategiyanın tətbiqini təmin etməkdir. Bu mərkəzlər, vətəndaşlarla dövlət qurumları arasında münasibətlərin tamamilə yeni standartlara uyğunlaşdırılmasına imkan verir. "ASAN xidmət" mərkəzləri, prosedurların sürətləndirilməsini, vətəndaşlar üçün daha rahat və əlçatan xidmətlərin təqdim edilməsini təşkil edən bir platforma rolunu oynayır. Eyni zamanda, bu mərkəzlər, dövlət orqanlarının ictimaiyyətlə qarşılıqlı əlaqələrini daha sistemli və məhsuldar şəkildə qurmasına şərait yaradır. Bu müasir xidmət modelinin effektivliyini sübut etməsinin nəticəsidir ki, hazırda "ASAN xidmət" mərkəzlərinin ölkə daxilində sayı artıq 30-a çatmışdır.

**Qrafik 2**

"ASAN xidmət" mərkəzlərinin illər üzrə sayı




**Mənbə**: *http://99.https//vxsida.gov.az/statistics/*

İşğaldan azad edilmiş şəhər və rayonlarda yeni "ASAN xidmət" mərkəzlərinin yaradılması zamanı smart texnologiyaların və rəqəmsal həllərin geniş tətbiqi planlaşdırılır. Proaktiv xidmətlərin təqdim edilməsi, xidmət köşkləri və müxtəlif elektron cihazlar vasitəsilə vətəndaşların tələbatına daha uyğun həllərin təklif olunmasını təmin edəcək. Rəqəmsal köşklərə səs tanıma texnologiyaları, üz tanıma sistemləri, biometrik skanerlər, elektron imza paneli, plastik kart oxuyucular və QR-kod skanerlərin inteqrasiyası vasitəsilə xidmətlərin daha əlçatan və sürətli şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Bu yanaşma, vətəndaşlara maksimum rahatlıq və operativlik təmin edəcək (Musayev, 2021).

Qarabağ bölgəsində bu sistemin tətbiqi, kommunal xidmətlər, nəqliyyat və yol problemləri, infrastrukturun idarə olunması və kanalizasiya məsələləri kimi sahələrdəki çətinliklərin effektiv həllini nəzərdə tutur (Müzəffərli, İsmayılov, 2010). Bundan əlavə, təhlükəli materialların, partlayıcı maddələrin, silah qalıqlarının və minaların mövcudluğu ilə bağlı vətəndaş şikayətlərinin operativ şəkildə aşkar edilməsi və idarə olunması üçün də bu sistemin istifadəsi planlaşdırılır. Belə

məlumatlar elektron xəritə texnologiyaları vasitəsilə aidiyyəti dövlət qurumlarına ötürüləcəkdir. Bu yanaşma, dövlət orqanlarının vətəndaş müraciətlərini daha çevik və şəffaf bir şəkildə qiymətləndirməsinə və nəticələri izləməsinə imkan yaradır.

Qarabağ regionunda intellektual infrastruktur komponentlərinin tətbiqi, regional idarəetmənin səmərəli şəkildə qurulmasında və əhalinin həyat keyfiyyətinin yüksəldilməsində mühüm əhəmiyyətə malikdir (Müzəffərli və b., 2023). Əvvəllər "ASAN xidmət" mərkəzlərində nümayiş etdirilən və sınaqdan keçirilmiş intellektual mühitin xüsusi komponentlərinin tətbiqi, bölgə əhalisinin həyat şəraitinin yaxşılaşdırılmasına və iqtisadi resurslara qənaət edilməsinə səbəb olacaqdır.

"Smart Parking" təşəbbüsü, park yerlərinin idarə olunmasında innovativ yanaşma təqdim edir. Bu sistem, məlumat ötürücüləri, sensorlar və digər texnoloji avadanlıqları bir araya gətirir. Park yerlərinə yerləşdirilmiş sensorlar, mövcud yerlərin doluluq vəziyyətinə dair məlumatları toplayır və bu məlumatları mərkəzi sistemə göndərir. Mobil tətbiq vasitəsilə istifadəçilər park yerlərinin mövcudluğu barədə məlumat əldə edə və bu yerləri əvvəlcədən rezervasiya edə bilirlər.

"Ağıllı tullantı qutuları" layihəsi, tullantı idarəçiliyində müasir texnologiyalardan istifadəni nəzərdə tutur. Bu qutular, yanğın təhlükəsini aşkar edə və tullantıların doluluq səviyyəsini izləmək üçün sensorlardan istifadə edir. Sensorlar, tullantıların doluluğunu real vaxt rejimində izləyərək mərkəzi idarəetmə sisteminə xəbərdarlıq göndərir. Yanğın halında isə sistem dərhal məlumat ötürərək vaxtında müdaxilə etməyə imkan verir. Bu sistem, tullantı toplama marşrutlarının optimallaşdırılmasına və ətraf mühitin təmizliyinin artırılmasına xidmət edir.

"Ağıllı işıq dirəkləri" enerjiyə qənaət edən və çevik idarəetmə imkanları təmin edən müasir işıqlandırma texnologiyalarıdır. Bu dirəklər, ətraf mühitin işıqlandırma ehtiyacına uyğun olaraq işıq səviyyəsini avtomatik tənzimləyir. Eyni zamanda, havanın çirklənməsi və rütubət səviyyəsini ölçə bilir və bu məlumatları monitorlarda əks etdirə bilir.

"İntellektual kamera" sistemləri isə təhlükəsizlik və nəzarət sahəsində süni intellekt texnologiyalarını tətbiq edir. Bu kameralar, icazəsiz giriş, oğurluq, qanunsuz parklanma, zibilləmə kimi halları müəyyən edir və real vaxt rejimində təhlükələri təhlil edərək aidiyyəti qurumlara xəbərdarlıq göndərir. Eyni zamanda, yardım ehtiyacı olan şəxslərin və ya digər fövqəladə vəziyyətlərin aşkarlanması zamanı dərhal müdaxilə edilməsi üçün şərait yaradır.

## Nəticə

İşğaldan azad edilmiş ərazilərdə xidmət sektorunun inkişafı, müasir texnologiyaların tətbiqi və intellektual infrastrukturun qurulması ilə əhalinin həyat şəraitinin yaxşılaşdırılmasını və regional idarəetmənin optimallaşdırılmasını təmin edir. "ASAN xidmət" modelinin bu ərazilərdə tətbiqi, dövlət-vətəndaş münasibətlərinin yeni mərhələyə yüksəldilməsini və xidmətlərin daha səmərəli, şəffaf şəkildə təqdim olunmasını reallaşdıracaqdır. Rəqəmsal texnologiyaların, o cümlədən smart köşklər, səs və üz tanıma sistemləri, biometrik cihazlar və digər həllərin tətbiqi, xidmətlərin sürətini və əlçatanlığını artıracaqdır. Ekoloji cəhətdən səmərəli həllər, o cümlədən ağıllı işıq dirəkləri və tullantı idarəetmə sistemləri, regionun davamlı inkişafına mühüm töhfə verəcəkdir. Ümumilikdə, bu yanaşmalar həm iqtisadi resurslara qənaət etməyi, həm də müasir standartlara uyğun xidmətlər vasitəsilə regional inkişafı təmin etməyi hədəfləyir.

**Məqalə çərçivəsində aşağıdakı təkliflər irəli sürülür:**

1. İşğaldan azad olunmuş ərazilərdə rəqəmsal həllərin tətbiqi daha da genişləndirilməli, xüsusilə smart şəhər texnologiyalarına fokuslanılmalıdır;
2. Regionda ekoloji problemlərin qarşısının alınması üçün ağıllı tullantı sistemləri və enerjiyə qənaət edən həllər daha geniş tətbiq edilməlidir;
3. "ASAN xidmət" mərkəzlərinin fəaliyyətində vətəndaşların tələbatına daha çevik cavab verə biləcək fərdiləşdirilmiş xidmətlər tətbiq olunmalıdır;
4. İntellektual nəzarət sistemlərinin, xüsusən süni intellektə əsaslanan kameraların genişləndirilməsi ilə ictimai təhlükəsizlik səviyyəsi artırılmalıdır.

## Ədəbiyyat

1. Abdullayev, J. M. (2024). Formation of a favorable business environment in the service sector in the liberated territories. *İqtisadi artım və ictimai rifah*, 1, 70-80.
2. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi. http://99.https//vxsida.gov.az/statistics/
3. Əsədov, A. M., Əsədov, Ə. M. (2017). *Elektron xidmətlərin təşkili: reallıqlar və perspektivlər*. Dərs vəsaiti. Avropa nəşriyyatı.
4. Günay, Q. (2022). *Yeni Qarabağnamə: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarinda post-konflikt quruculuğu*. "AzPrint" nəşriyyatı.
5. Hacıyeva, L. A. (2013). *Xidmət sahələrinin marketinqi*. Biznes Universiteti nəşriyyatı.
6. Musayev, A. F. (2021). *Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sosial-iqtisadi inkişafın əsas istiqamətləri*. Beynəlxalq elmi-praktiki konfransın materialları.
7. Müzəffərli, N., İsmayılov, E. (2010). *Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar*. Qafqaz nəşriyyat evi.
8. Müzəffərli, N., Musayev, A., Muradov, A., Qənbərov, F., Zeybalov, M., Əhmədov, B. (2023). *Post-konflikt ərazilər: iqtisadi potensial və müqayisəli üstünlüklər*. Qafqaz nəşriyyat evi.

Daxil oldu: 16.09.2024
Baxışa göndərildi: 23.10.2024
Təsdiq edildi: 01.11.2024
Çap olundu: 30.11.2024

https://doi.org/10.36719/2706-6185/41/63-69

**Pərvanə Məmmədova**
Gəncə Dövlət Universiteti
dissertant
mammedovaparvane@gmail.com

# Türk dünyası və Azərbaycan diasporu

**Xülasə**

Müstəqillik illərində ciddi inkişaf yolu keçən Azərbaycan diasporunun qarşısında duran əsas vəzifələrdən biri də digər xalqların diaspor təşkilatları ilə əlaqələr qurmaq, birgə əməkdaşlıq nəticəsində fəaliyyət göstərdiyi ölkələrdə öz mövqelərini möhkəmləndirmək idi. Bu sırada Azərbaycan diasporunun türkdilli respublikaların diaspor təşkilatları ilə əməkdaşlığı mühüm əhəmiyyət kəsb edirdi. Xüsusilə Azərbaycan diasporu türk diasporu ilə əlaqələrə üstünlük verir, qarşılıqlı faydalı əməkdaşlıq inkişaf etdirilirdi. Azərbaycan diasporunun türk diasporu, eləcə də türkdilli ölkələrin diaspor təşkilatları ilə əlaqələrinin inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin zamanında daha qabarıq şəkildə özünü büruzə verdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider xarici siyasət sahəsində dünya dövlətləri ilə əməkdaşlıq sırasında türkdilli respublikalara xüsusi önəm verirdi. Heydər Əliyevin Azərbaycanın dünyaya inteqrasiyasının strateji istiqamətlərini müəyyənləşdirərkən ölkəmizin türk dünyası, türkdilli ölkələrlə münasibətinə xüsusi yer ayrılmışdı. Bu baxımdan Azərbaycan-Türkiyə əlaqələrinin keyfiyyətcə yeni məcrada qurulması prioritet önəm kəsb edirdi.

Ümummilli liderin hakimiyyəti illərində təkcə Türkiyə deyil, eləcə də digər türkdilli respublikalarla Azərbaycan arasında ikitərəfli əlaqələr inkişaf etdirildi, yüksək səviyyəli dövlətlərarası münasibətlər quruldu. Heydər Əliyevin ayrı-ayrı türkdilli respublikalara səfəri zamanı həmin ölkələrdəki soydaşlarımızla görüşməsi bu respublikalardakı Azərbaycan diasporunun inkişaf etməsinə, orada yaşayan azərbaycanlıların mövqelərinin möhkəmlənməsinə şərait yaradırdı.

***Açar sözlər:*** *türk xalqları, Azərbaycan-Türk dövlətlərinin münasibətləri, diaspora, Azərbaycan diasporu*

**Parvana Mammadova**
Ganja State University
dissertation student
mammedovaparvane@gmail.com

# Turkish World and Azerbaijan Diaspor

**Abstract**

One of the main tasks facing the Azerbaijani diaspora, which underwent serious development during the years of independence, was to establish relations with the diaspora organizations of other nations and strengthen their positions in the countries where they operate as a result of joint cooperation. At the same time, the cooperation of the Azerbaijani diaspora with the diaspora organizations of Turkic-speaking republics was of great importance. In particular, the Azerbaijani diaspora preferred relations with the Turkish diaspora, mutually beneficial cooperation was being developed. The development of the relations of the Azerbaijani diaspora with the Turkish diaspora, as well as the diaspora organizations of Turkic-speaking countries, became more prominent during the time of national leader Heydar Aliyev. The national leader, who returned to power in 1993 at the insistence of the people, gave special importance to the Turkic-speaking republics in the field of foreign policy cooperation with the countries of the world. When Heydar Aliyev defined the strategic directions of Azerbaijan's integration into the world, a special place was reserved for our country's relationship with the Turkic world and Turkic-speaking countries. From this point of

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

view, the establishment of Azerbaijan-Turkey relations in a qualitatively new channel was of priority importance.

During the reign of the national leader, bilateral relations were developed not only between Turkey, but also between other Turkic-speaking republics and Azerbaijan, and high-level interstate relations were established. Heydar Aliyev's meeting with our compatriots in those countries during his visit to individual Turkic-speaking republics created conditions for the development of the Azerbaijani diaspora in these republics and the strengthening of the positions of the Azerbaijanis living there.

***Keywords:*** *Turkic peoples, Azerbaijan-Turkish relations, diaspora, Azerbaijani diaspora*

## Giriş

Xarici siyasətin düzgün müəyyənləşdirilməsi Azərbaycan üçün həm ötən dövrlərdə, həm də indi müstəsna əhəmiyyətə malikdir. Belə ki, ölkəmiz öz milli maraqlarını, regionda aparıcı dövlət statusunu qorumaqla yanaşı, Qərb, islam ölkələri, türk dünyası və Müstəqil Dövlətlər Birliyinin siyasi iqtisadi-mədəni məkanları ilə qarşılıqlı faydalı münasibətlər qurur, beynəlxalq əməkdaşlığı və bərabərhüquqlu tərəfdaşlıq əlaqələrini genişləndirir (Ekspress, 2018, s. 10).

Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrdən etibarən, Azərbaycan dövləti Avropa və Amerika qitəsindəki dövlətlərlə əməkdaşlığa önəm verməklə yanaşı, türkdilli ölkələrlə dostluq münasibətlətini qoruyub saxlanılmasını diqqət mərkəzində saxlamışdı.

XX əsrdən etibarən türkçülük ideyalarının meydana çıxması türk xalqlarının tarixində yeni bir mərhələnin əsasını qoymuşdur. Ötən əsrin əvvəllərindən başlayaraq Osmanlı İmperiyasında vüsət alan, daha sonra Azərbaycana və Mərkəzi Asiyaya yayılan türkçülük hərəkatı türklərin yenidən dünyanın siyasi səhnəsinə çıxmalarına imkan yaratmışdır.

**Tədqiqat**

Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra Türkiyə ilə əlaqələr xeyli dərəcədə zəifləsə də, mədəni, iqtisadi və humanitar sahədə əlaqələr qismən də olsa qorunub saxlanılmışdır. 1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bütün digər sahələrdə olduğu kimi xarici əlaqələr sahəsində də, Azərbaycan ciddi nailiyyətlərə imza atmağa müvəffəq olmuşdur. Belə ki, 70-ci illərdə Azərbaycan Türk dünyası ilə iqtisadi, mədəni və elmi-texniki sahədə əlaqələr yarada bilmiş və onları inkişaf etdirməyə nail olmuşdur. Ulu öndər Heydər Əliyev sovet rəhbərliyinin Türk dünyası ilə bağlı siyasətinə xüsusi həssaslıqla yanaşmış, Azərbaycanın türkologiya sahəsində ən qabaqcıl mərkəzə çevrilməsinə çalışmışdır. Hakimiyyəti illərində Heydər Əliyev SSRİ ərazisindəki türk xalqlarının milli-mənəvi dəyərlərinin qorunması üçün daim onlar arasında mədəni əlaqələrin inkişafına səy göstərmiş, hər bir türk xalqının sahib olduğu dəyərlərə xüsusi diqqətlə yanaşmışdır (Azərbaycan-Türkiyə: bir millət, iki dövlət vahid diaspor, 2007, s. 120).

Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub. Azərbaycanın mərhum prezidenti Heydər Əliyevin "bir millət, iki dövlət" olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Eyni zamanda türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini bu gün şərtləndirən ən mühüm amillərdən biri də Azərbaycan və Türkiyənin münasibətlərinin inkişafından keçir. Prezident İlham Əliyev bununla bağlı dəfələrlə bildirmişdir: "Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda bütün türk dünyası üçün də mühüm rol oynayır. Biz türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk" (Hürriyyət, 2019, s. 12).

Heydər Əliyev Türkdilli ölkələrin dövlət başçılarının 1994-2001-ci illərdə keçirilmiş 6 sammitinin hamısında (18-19 oktyabr 1994-cü il – İstanbul, 28 avqust 1995-ci il – Bişkek, 21

oktyabr 1996-cı il − Daşkənd, 9-10 iyun 1998-ci il − Astana, 8 aprel 2000-ci il − Bakı, 26-27 aprel 2001-ci il − İstanbul) iştirak etmişdir və bu əməkdaşlıq formatında Azərbaycanın fəal, təşəbbüskar mövqeyi hər zaman öndə olmuşdur. Bu gün Azərbaycanın Mərkəzi Asiyadakı türk respublikaları ilə münasibətlərinə, həmin respublikaların Türkiyə ilə əməkdaşlıq mənzərəsinə, ortada olan iqtisadi layihələrə nəzər salsaq, onların hamısında Azərbaycanın təşəbbüslərini, Heydər Əliyevin müəllifliyini qeyd edə bilərik. 1998-ci ildə «Böyük İpək yolu» layihəsinə (Avropa-Asiya nəqliyyat dəhlizi) Bakıda, Azərbaycanın ev sahibliyi ilə start verilməsi, 1999-cu ildə Qazaxıstan, Özbəkistan, Türkmənistan, Azərbaycan və Türkiyənin iştirakı ilə Şərq-Qərb enerji dəhlizi üzrə tarixi İstanbul anlaşmalarının əldə olunması məhz Heydər Əliyevin liderliyinin nəticəsi idi. Türk dövlətlərinin mədəni inteqrasiyasının mühüm təməli olan TÜRKSOY təşkilatının formalaşması, bu formatda bir çox layihələrin reallaşması da Azərbaycanın fəal rolu sayəsində mümkün olub. «Türkdilli dövlətlər dünyanın çox mühüm coğrafi-strateji bir regionunda yerləşirlər. Onlar əlverişli mövqeyə, zəngin təbii ehtiyatlara, yüksək intellektual potensialı olan insan resurslarına malikdirlər. Əminəm ki, yeni əsr dövlətlərimiz üçün sabitlik, dinamik inkişaf, konstruktiv dialoq, qarşılıqlı faydalı əməkdaşlıq və rifah əsri olacaqdır. Bütün bunlara biz əldə etdiyimiz tarixi nailiyyətlərin − milli azadlığımız, dövlət müstəqilliyimiz və müştərək iş birliyimizin daha da möhkəmləndirilməsi nəticəsində nail olacağıq» − deyə Heydər Əliyev Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə Toplantısında bəyan etmişdi (Əliyev, 2009, s. 82).

Azərbaycan Respublikası xarici siyasətdə, diplomatiyada Türkdilli dövlətlərlə əlaqələrə önəm verdiyi kimi, həmin ölkələrdə Azərbaycan diasporunun formalaşmasına və diaspor quruculuğu işinin yüksəksəldilməsinə xüsusi diqqət yetirir.

Dünyanın müxtəlif yerlərində məskunlaşmış azərbaycanlıların mütəşəkkil diaspor kimi formalaşması, lobbi quruculuğu sahəsində Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu isə, əslində, respublikamızda aparılan dövlət siyasətində ümummilli mənafelərin reallaşdırılması deməkdir. Azərbaycan Respublikası dünya azərbaycanlıları tərəfindən milli-tarixi təkamülün bəhrəsi, milli mənliyin rəmzi, tarixi Vətən anlayışının inikası kimi qəbul edilmişdir (Azərbaycan Diasporu: böyük yolun başlanğıcı, 2006, s. 22).

1993-ci ildə respublikamızın müstəqilliyinin başı üzərini ağır təhlükə aldığı bir vaxtda Azərbaycanın rəhbərliyini, son dərəcə çətin bir şəraitdə belə məsuliyyətli vəzifəni öz üzərinə götürən Heydər Əliyev qısa müddət ərzində nəinki ölkəmizi bu böhrandan çıxarmağa nail oldu, həm də xaricdəki soydaşlarımızla əlaqələrin genişlənməsi, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində diasporun qüvvəsindən lazımi səviyyədə istifadə olunması sahəsində böyük uğurlar qazandı. Azərbaycan prezidenti diasporun formalaşmasına iki aspektdən təsir göstərir. Birinci, o, xarici ölkələrdə rəsmi səfərlərdə olduğu vaxt dövlət başçıları, rəsmi dairələr, eləcə də soydaşlarımızla görüşdüyü zaman ölkəmiz haqqında geniş mə lumat verir, erməni təcavüzkarlarının əsl simasını ifşa edir, böyük siyasi uzaqgörənliklə və məqsədyönlü fəaliyyəti ilə informasiya blokadasını yarıb müstəqil respublikamızın mövcud vəziyyəti barədə dolğun və obyektiv təsəvvür yaradır. Onun bu səfərləri həmin ölkələrdə diasporun inkişafı üçün real zəmin hazırlayır, soydaşlarımıza qarşı formalaşmış mənfi münasibət alt-üst olur ki, bu da xaricdəki azərbycanlıların geniş fəaliyyət göstərməsində böyük əhəmiyyət kəsb edir. İkincisi, möhtərəm prezidentimiz xaricdəki soydaşlarımız, habelə ölkəmizə gəlmiş diaspor nümayəndələri ilə görüşlərində onlar qarşısında son dərəcə vacib, elə aktual problemlər qaldırır ki, onları yerinə yetirmədən diasporun fəaliyyətini lazımi səviyyədə qurmaq olmaz (Həbiboğlu, 2001, s. 10).

Azərbaycan Respublikası xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətini həyata keçirərkən beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə, o cümlədən insan hüquq və azadlıqlarına hörmət və digər dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanır. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti Azərbaycan Respublikasının daxili və xarici siyasətinin ayrılmaz tərkib hissəsidir. Milli qanunvericiliyində qeyd olunduğu kimi, "Azərbaycan Respublikası onun vətəndaşı olan və onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan azərbaycanlıların hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir". Azərbaycan Respublikasının vətəndaşı olan və onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan azərbay-

canlılar Azərbaycan Respublikasının ərazisində yaşayan Azərbaycan Respublikası vətəndaşları ilə bərabər hüquqlara malikdir və bərabər vəzifələr daşıyırlar (Axundova, 2016, s. 15).

Dünya azərbaycanlılarının hal-hazırda 10 milyondan çoxu Azərbaycandan kənarda yaşayır. Dünyanın 70-dən çox ölkəsində, yəni 5 qitədə məskunlaşan soydaşlarımızın iqtisadi, sosial-siyasi və mədəni fəaliyyəti mühacirət etdikləri ölkələrdə mövcud olan şərait və mənəvi dəyələr kimi müxtəlifdir.

Avrasiya türk xalqlarının öz vətənlərindən başqa, digər Asiya ölkələrində məskunlaşması, onların etno-diferensiasiyası və etno-inteqrasiyası da daxil olmaqla, kifayət qədər mürəkkəb proses olmuşdur. Eyni zamanda müəyyən tarixi-siyasi səbəblərlə şərtlənən bu prosesdə onların Asiyada diasporlaşması, əsasən, iki istiqamətdə baş vermişdir: 1. Avrasiyanın türk dövlətləri və imperiyaları daxilində yaşayan türk xalqları bir-birlərinin ölkələrində məskunlaşmışlar; 2. Türk xalqları Asiyanın digər (qeyri-türk) dövlətlərində məskunlaşmış, öz tarixi diaspor ərazilərini yaratmış, yaxud sonradan fərdi və kompakt halda həmin ölkələrə köç etmişlər (Feyziyev, 2017, s. 218).

1980-ci illərin sonu 1990-cı illərin əvvəllərində həmvətənlərimizin Mərkəzi Asiyaya olan miqrasiyasının əsas səbəbi işsizlik və iqtisadi problemlərlə bağlı idi. Belə ki, SSRİ-nin süqutu və yeni müstəqillik qazanmış ölkəmizin iqtisadiyyatının bazar iqtisadiyyatına uyğunlaşdırılması üçün "keçid dövrü" başlamışdır. Bu zaman ölkəmizdə olan köhnə iş yerlərinin bir çoxunun bağlanması, yenilərinin isə hələ açılmaması nəticəsində ölkəmizdə işsizlik problemi kəskin səviyyəyə qalxmışdır. İş tapmaq üçün dünyanın müxtəlif yerlərinə müxtəlif sayda köç etmiş həmvətənlərimizin bir hissəsi də Mərkəzi Asiyada məskunlaşmışlar.

Beləliklə, tarixi faktlar sübut edir ki, müxtəlif dövrlərdə azərbaycanlılar dövrün ictimai-siyasi hadisələri ilə bağlı bu və ya başqa səbəblərdən vətənlərindən kənarda yaşamaq məcburiyyətində qalmışlar. Bu gün həmin həmvətənlərimiz Azərbaycan diasporunun aparıcı qüvvələrinə çevriliblər. Müasir dövrdə diaspor amilinin beynəlxalq aləmdə xalq diplomatiyasının subyekti statusu qazanmasını nəzərə alsaq bu həmvətənlərimizin xalqımız, dövlətçiliyimiz üçün nə dərəcədə qiymətli olduğu aydın olar (Cəfərova, 2019, s. 60).

2001-ci ilin noyabr ayının 9-10-da Bakı şəhərində Dünya azərbaycanlılarının I Qurultayının keçirilməsi Azərbaycan diaspor tarixində ən önəmli hadisələrdən birinə çevrildi. "Bu gün keçirilən qurultay xaricdə yaşayan soydaşlarımızın daha da həmrəy olması, təşkilatlanması üçün yeni bir mərhələnin başlanğıcıdır" – deyə onun əhəmiyyətini xüsusi vurğulayan ümummilli lider Heydər Əliyev öz nitqində dünya azərbaycanlıları ilə əlaqələri təmin edən dövlət qurumunun yaradılmasına ehtiyac duyulduğunu da bildirmişdir: "Mən qurultayın sonunda belə nəticəyə gəldim ki, həqiqətən Azərbaycanda diaspor ilə iş üçün xüsusi bir dövlət orqanı yaradılmalıdır. Qurultayda Mərkəzi Asiya respublikaları də daxil olmaqla 49 xarici ölkədən 593 nümayəndə və 388 nəfər qonaq iştirak etmişdir. Bu nümayəndələr və qonaqlar yaşadıqları ölkələrin ictimai-siyasi, iqtisadi və mədəni həyatının müxtəlif sahələrində fəal iştirak edən, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə daim dəstək verən tanınmış alimlər və ziyalılar, iş adamları, müxtəlif ölkələrin parlament üzvləri, siyasi və ictimai xadimlər idilər (Cəfərova, 2019, s. 70).

İyun ayının 6-da Antalyada keçirilən Dünya Azərbaycanlı Ziyalılarının Forumu çərçivəsində Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının növbəti toplantısı keçirilmişdir. Toplantıda təşkilatın strukturlarının yaradılması və Azərbaycan icmalarının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı məsələlər müzakirə edilmişdir (Dünya Azərbaycanlılarının II Qurultayından keçən dövr ərzində diaspor quruculuğu sahəsində görülmüş işlərlə bağlı məlumat, 2008, s. 11).

2006-cı il sentyabr ayının 13-də Türkiyənin İstanbul şəhərində İstanbul Azərbaycanlılarının Kültür və Dayanışma Dərnəyinin II konfransı keçirilmişdir. Toplantıda qurumun ötən müddət ərzindəki fəaliyyətinə qiymət verilmiş və qarşıda duran vəzifələrlə bağlı fikir mübadiləsi aparılmışdır. 2006-cı ilin noyabr ayında Türkiyədə təsis edilmiş Türkiyə-Azərbaycan Strateji Araşdırmalar Mərkəzinin əsas fəaliyyət istiqamətlərindən biri «erməni soyqırım» iddiaları ilə bağlı elmi-praktik konfranslar təşkil elmək, bu iddiaların reallıqdan tamamilə uzaq olduğunu sübut edən elmi araşdırmaların nəticələri barədə dünya ictimaiyyətini məlumatlandırmaqdan ibarətdir. Mərkəzin nəzdində ayrı-ayrı sahələr üzrə fəaliyyət göstərən bölmələrin qurulması da nəzərdə tutulmuşdur. Mərkəz Azərbaycanla Türkiyə arasında münasibətlərin inkişafına da töhfə verməyə çalışacaq, iki

qardaş ölkənin dostluq və əməkdaşlıq əlaqələrinin dərinləşməsinə xidmət edən tədbirlər təşkil edəcəkdir. 2006-cı ilin dekabr ayında Türkiyənin İzmit şəhərində bu ölkənin 14 vilayətində fəaliyyət göstərən Azərbaycan Evi Dərnəklərinin toplantısı keçirilmişdir. Tədbirin keçirilməsində məqsəd bu dərnəklərin Azərbaycan Evi Mədəniyyət Dərnəkləri Federasiyası (AEMDF) adı altında birləşməsini təşkil etmək olmuşdur. Toplantı iştirakçıları bu təşəbbüsü dəstəklədiklərini yekdilliklə bildirmiş və qurumun təsis olunmasını məqsədəuyğun hesab etmişlər (Dünya Azərbaycanlılarının II Qurultayından keçən dövr ərzində diaspor quruculuğu sahəsində görülmüş işlərlə bağlı məlumat, 2008, s. 16).

Türk icmalarının rəhbərləri ilə görüşlər zamanı erməni diasporunun Azərbaycan və Türkiyə əleyhinə apardığı təbliğat kampaniyasının qarşısının alınması yolları da müzakirə olunmuşdur. Bildirilmişdir ki, ermənilərin sözdə soyqırım iddialarının tarixi əsaslardan məhrum olduğunu sübut etmək, habelə bu ölkənin Azərbaycana qarşı işğalçılıq siyasəti yürütdüyünü göstərmək üçün diasporlar arasında əlaqələrin gücləndirilməsinə ciddi ehtiyac var.

2006-cı ilin iyun ayının 7-də Türkiyə Respublikasının Antalya şəhərində Azərbaycan və türk icmalarının birgə fəaliyyət strategiyasının hazırlanmasına həsr olunmuş konfrans keçirilmişdir. Konfransda dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan və Türk diaspor təşkilatı rəhbərləri, Azərbaycanın aparıcı qəzet, televiziya şirkətlərinin rəhbər və nümayəndələri iştirak etmişlər. Bundan başqa, konfransa xaricdə yaşayan tanınmış azərbaycanlı ziyalılar, mədəniyyət və incəsənət xadimləri, Azərbaycan Respublikasının və Türkiyə Respublikasının dövlət və hökumət nümayəndələri, Azərbaycan və Türkiyə parlamentinin üzvləri, hər iki ölkədə fəaliyyət göstərən ictimai birliklərin, qeyri-hökumət təşkilatlarının rəhbərləri, kütləvi informasiya vasitələrinin nümayəndələri dəvət edilmişdir. Müzakirələr zamanı qeyd olunmuşdur ki, Azərbaycan və Türk xalqlarının dərin tarixi, mədəni köklərə malik qardaşlığı bütün sahələrdə yaxından əməkdaşlıq etməyə, ən çətin və mürəkkəb məqamlarda birgə fəaliyyət göstərməyə imkan verir. Dünyanın «qloballaşma» adlı mürəkkəb bir mərhələyə daxil olduğu, mədəniyyətlərarası dialoqun tarixi zərurətə çevrildiyi, beynəlxalq münasibətlər sistemində yeni nizamın yarandığı bir vaxtda Azərbaycan və Türk xalqlarının bir-birinə daha sıx yaxınlaşması mühüm əhəmiyyət kəsb edir (Dünya Azərbaycanlılarının II Qurultayından keçən dövr ərzində diaspor quruculuğu sahəsində görülmüş işlərlə bağlı məlumat, 2008, s. 35).

İndiki dövrdə dövlətlərdən daha çox qeyri-hökumət təşkilatlarının apardığı təbliğatın inandırıcı olması və daha ciddi nəticələr verə bilir. Bu baxımdan Avropa, Rusiya və ABŞ-dakı Azərbaycan və Türkiyə diaspor qurumlarının fəaliyyətlərinin istiqamətləndirilməsi və koordinasiya edilməsi olduqca əhəmiyyətlidir. Hər iki ölkənin dünyada fəaliyyət göstərən diaspor nümayəndələrinin sayı təxminən 10 milyon nəfərdir. Bu, olduqca ciddi rəqəmdir. Onlar doğru şəkildə təşkilatlansa, istənilən müvəffəqiyyəti əldə etmək mümkün ola bilər. Bu diaspor qurumlarının fəaliyyəti mövsümi olmamalıdır; müntəzəm şəkildə həyata keçirilən fəaliyyətlə nəticəyə çatmaq daha asan olar. Amma bu diaspor qurumları, ümumiyyətlə, qondarma erməni soyqırımının gündəmə gəldiyi 24 aprel və Xocalı soyqırımının gündəmə gəldiyi 26 fevral tarixlərində daha gərgin fəaliyyət göstərir, sonra isə arxa planda qalırlar. Şübhəsiz, müntəzəm olmayan təbliğat işləri istənilən nəticəni verməyəcək (Mərkəzi Azərbaycan-Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar, 2011, s. 143).

SSRİ-nin dağılması ərəfəsində, onun tərkibində olan respublikaların liderləri öz ölkələrini bürümüş iqtisadi və siyasi böhranı aradan qaldırmaq məqsədilə Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin dəvəti ilə 1991-ci ilin oktyabr ayında Almatı şəhərinə toplaşaraq SSRİ-nin dağılmasını gözləmədən öz gələcək inkişaflarını müzakirə etmişlər. 1991-ci il 30 sentyabr-2 oktyabr tarixlərində Azərbaycan Respublikası nümayəndə heyətinin Qazaxıstana rəsmi səfərinin yekunu olaraq oktyabr ayının 1-də "Azərbaycan SSR ilə Qazaxıstan SSR arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında" müqavilə imzalanmışdır (Cəfərova, 2019, s. 88)

Astana şəhərində Qazaxıstan Azərbaycanlılarının Mədəni Mərkəzləri İttifaqı fəaliyyət göstərir. Bu ittifaq böyük bir qurum olmaqla yanaşı həm də Koordinasiya mərkəzidir. Burada 12 diaspor təşkilatı birləşmişdir. Qazaxıstanda Azərbaycan diasporunun nəzdində Bazar günü məktəbi fəaliyyət göstərir Məktəbdə əsasən üç fənn geniş tədris olunur: Azərbaycan dili və ədəbiyyatı, Folklor, Tarix və mədəniyyət. Məktəbdə iki sinif fəaliyyət göstərir. Ümumilikdə Astana şəhərində

ayrı-ayrı xalqlara məxsus olan 11 bazar günü məktəbi fəaliyyət göstərir. Hər il bu məktəblər arasında bilik bayramları çərçivəsində elmi yarışlar keçirilir. Bu yarışlarda çox aktiv iştirak edən Azərbaycan bazar günü məktəbi 3 dəfə qələbə əldə edərək mükafatlandırılmışlar. Qazaxıstanda Azərbaycan diasporunun nəzdində fəaliyyət göstərən Qadınlar cəmiyyəti 1996-cı ildə təsis olunmuşdur. Bu cəmiyyətin üzvü olan qadınlar ictimai tədbirlərdə yaxından iştirak etməklə yanaşı, Azərbaycan mətbəxini, milli kulinariyamızı da yeri gəldikcə yüksək səviyyədə təbliğ edirlər. Belə ki, hər il Novruz bayramı Qazaxıstanda da dövlət səviyyəsində keçirilir. Qazaxıstan Respublikasında Azərbaycan diasporu əsasən mədəni və ictimai fəaliyyətlə məşğul olur. Hüquq, iqtisadiyyat, ictimai işlər, elmi və digər sahələrdə çalışan soydaşlarımızın müəyyən hissəsi öz peşəsi üzrə təkminləşərək, mühüm vəzifələr tutmuşlar (Cəfərova, 2019, s. 98).

1997-ci ilin iyun ayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Özbəkistan Respublikasında rəsmi səfərdə olmuşdur. Bu səfər zamanı aparılan ikitərəfli danışıqlar və imzalanmış müqavilələr müstəqil suveren dövlətlərin və iki dost, qardaş xalqın əməkdaşlığına, münasibətlərinin inkişafına yeni bir mərhələ kimi daxil olmuşdur, eyni zamanda siyasi və sosial-iqtisadi, mədəni münasibətlərin qarşılıqlı etimad şəraitində möhkəmləndirilməsinə xüsusi təkan vermişdir. Özbəkistan Respublikasının qanunlarına uyğun olaraq oradakı həmvətənlərimiz özlərinin bir neçə ictimai, milli-mədəni təşkilatlarını yaratmışlar. Buradakı soydaşlarımızın ağsaqqallar şurası, qadınlar cəmiyyəti, gənclər təşkilatı və digər ictimai qurumları var. Özbəkistanda bir neçə Azərbaycan mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Onlardan ən birincisi, 1989-cu ildə Daşkənddə fəaliyyətə başlayan "Qardaşlıq" Azərbaycan Mədəniyyət Mərkəzi olmuşdur. Mərkəzin əsas məqsədi bir diaspor təşkilatı olaraq Özbəkistanda yaşayan soydaşlarımız arasında sıx əlaqələr yaratmaq, onları Azərbaycanda baş verən hadisələrlə yaxından tanış etmək, milli mənəvi dəyərlərin qorunub saxlanılmasına çalışmaq, Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının xalqları arasında dostluq əlaqələrini möhkəmləndirməkdir (Cəfərova, 2019, s. 113).

3 oktyabr 2009-cu ildə Naxçıvan şəhərində imzalanan Naxçıvan müqaviləsi ilə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan arasında Türk Dövlətləri Təşkilatı adlı beynəlxalq təşkilat qurulmuşdur. Bu əməkdaşlıq şurasının qurulması fikri ilk dəfə 2006-cı ildə Qazaxıstan prezidenti Nursultan Nazarbayev tərəfindən təklif edilmişdir. Özbəkistan 30 aprel 2018-ci ildə qatılma niyyətinin olduğunu açıqlamış və 4 sentyabr 2019-cu ildə üzv olmuşdur.

2022-ci il martın 28-də Türkiyənin Bursa şəhərində Türk Dövlətləri Təşkilatının II Diaspor Forumunun açılış mərasimi keçirilib. TDT ilə əməkdaşlıq çərçivəsində ötən müddət ərzində diasporlar arasında konkret fəaliyyətin həyata keçirildiyi, Azərbaycanın diaspor siyasəti, Şuşa Bəyannaməsinin tələbləri, 2021-ci ilin noyabrında Nyu-York şəhərindəki "Türk Evi"ndə türk dövlətləri diasporlarının birgə fəaliyyətinin müzakirə edildiyi, Azərbaycan və türk diasporları arasındakı əlaqələrin möhkəmlənməsi, kommunikasiyaların təkmilləşdirilməsi üçün həyata keçirilən tədbirlərin öz bəhrəsini verdiyi, panel iclasının türk dövlətləri diasporlarının gələcək fəaliyyət üçün davamlı və həmrəy addımlar atmaq naminə yeni imkanlar açacağı nəzərə çatdırılıb.

Forumun akademik sessiyası "TDT-yə üzv olan ölkələrin diasporlarının tarixi prosesi", QHT-lər sessiyası "Diasporda QHT-lərin bacarıqlarının artırılması – çağırışlar" mövzularına həsr edilib. Bu istiqamətdə aparılan panel müzakirələri türk dünyasının elm xadimləri və QHT nümayəndələrinin iştirakı ilə davam edib (Türk Dövlətləri Təşkilatının II Diaspor Forumu baş tutub, 2022).

2023-cü il 15 sentyabrda İstanbulda Dünya Türk Biznes Şurasının (DTİK) 10-cu Qurultayının açılış mərasimi çərçivəsində "Türk Dövlətləri Təşkilatı ilə 5 Dövlət 1 Diaspor" sessiyası təşkil edilib. Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin rəsmilərinin, biznes dairələri və beynəlxalq təşkilatların nümayəndələrinin qatıldığı tədbirdə iqtisadi əməkdaşlıq, təşkilata üzv ölkələrin diaspor təşkilatları arasında tərəfdaşlığın genişləndirilməsi, birgə investisiya imkanları barədə müzakirə aparılıb ("Türk Dövlətləri Təşkilatı ilə 5 Dövlət 1 Diaspor" sessiyası keçirilib, 2023).

Yeri gəlmişkən, bir məqamı da qeyd edək ki, son illərdə, xüsusilə Azərbaycanın Qarabağdakı zəfərindən sonra Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında əlaqələr və əməkdaşlıq daha da güclənib və bu, yüksələn xətlə inkişaf edir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsi zamanı qazandığı parlaq zəfər sayəsində tarixən var olan türk birliyinin etnosiyasi coğrafiyası da bərpa edildi.

Son illər Prezident İlham Əliyevin Mərkəzi Asiya ölkələrinə ardıcıl səfərləri, həmçinin bu regiondakı ölkələrin dövlət başçılarının Azərbaycana səfərləri dərinləşən əlaqələrin göstəricisidir. Bu səfərlər zamanı imzalanan sənədlər ölkələr arasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsi üçün vacib rol oynayır.

Türkdilli ölkələr təkcə siyasi, iqtisadi deyil, digər sahələrdə də güclərini birləşdiriblər. İşğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzurun mədəni irsinin bərpa olunması istiqamətində türkdilli ölkələr Azərbaycana dəstəklərini göstərirlər. Bu qardaşlıq dəstəyinin daha bir nümunəsi isə Şuşa şəhərinin 2023-cü il üçün türk dünyasının mədəniyyət paytaxtı seçilməsidir. İşğaldan azad olunmuş Azərbaycan ərazilərində Türkiyə şirkətlərinin podratçı kimi bir çox infrastruktur layihəsində fəal iştirakı, Füzuli rayonunda Özbəkistan tərəfindən məktəbin, həmçinin Qazaxıstan tərəfindən yaradıcılıq mərkəzinin inşa olunması da türkdilli xalqların arasında olan qardaşlığın göstəricisidir (Türk dünyası birliyinə Azərbaycanın töhfəsi).

## Nəticə

Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amallarına sadiq qalacaq. Ölkəmizin türk dövlətlərinin birgəliyində, əməkdaşlığında özünəməxsus və aparıcı rolu var. Prezident İlham Əliyevin şəxsi səyləri nəticəsində bu gün türk birliyi ən yüksək əməkdaşlıq zirvəsinə qalxıb, türk dövlətləri dünyada baş verən bütün qlobal siyasi proseslərə, eləcə də təbii böhranlara qarşı birgə mübarizə aparırlar.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Diasporla İş Üzrə Dövlət Komitəsi. (2008). *“Dünya Azərbaycanlılarının II Qurultayından keçən dövr ərzində diaspor quruculuğu sahəsində görülmüş işlərlə bağı məlumat”.*
2. Azərbaycan Respublikasının Prezidenti Yanında Strateji Araşdırmalar Mərkəzi. (2011). Azərbaycan-Türkiyə Əlaqələri Son 20 ildə: Uğurlar və imkanlar (Məqalələr toplusu).
3. Axundova, J. (2016). *Müxtəlif ölkələrdə diaspor və ictimai-mədəni diplomatiya*. Elm və təhsil.
4. Cavanşir, Ə. F. (2017). *Türk Dünyasi: 5 kitabda. İkinci kitab: Türk xalqları*. Mütərcim.
5. Cəfərova, R. (2019). *Mərkəzi Asiya respublikalarında Azərbaycan diasporunun təşəkkülü və fəaliyyəti tarixi*. “Turxan” NPB.
6. *Ekspress*. (2018, 1 avqust). № 137, 10.
7. Əliyev, Z. (2009). *Türkdilli xalqların diasporları*. Adiloğlu.
8. Həbiboğlu, V. (2001). *Heydər Əliyev və Azərbaycan diasporu*. Qartal.
9. *Hürriyyət*. (2019, 13-14 iyun). № 104, 12.
10. Xarici ölkələrdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi. (2006). *Azərbaycan Diasporu: böyük yolun başlanğıcı*. Çaşıoğlu.
11. Xarici ölkələrdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi. (2007). *Azərbaycan-Türkiyə: bir millət, iki dövlət vahid diaspor*. Çaşıoğlu.
12. *Türk dünyası birliyinə Azərbaycanın töhfəsi*. https://www.azerbaijan-news.az/az/posts/detail/turk-dunyasi-birliyine-azerbaycanin-tohfesi-1679004579
13. *"Türk Dövlətləri Təşkilatı ilə 5 Dövlət 1 Diaspor” sessiyası keçirilib.* (2023, 15 sentyabr). https://apa.az/maliyye/turk-dovletleri-teskilati-ile-5-dovlet-1-diaspor-sessiyasi-kecirilib-foto-785905
14. *Türk Dövlətləri Təşkilatının II Diaspor Forumu baş tutub*. (2022). https://diaspor.gov.az/xeberler2020/x4091.php

Daxil oldu: 09.09.2024
Baxışa göndərildi: 25.09.2024
Təsdiq edildi: 18.10.2024
Çap olundu: 30.11.2024

https://doi.org/10.36719/2706-6185/41/70-73

**Aysel Əsədova**
Naxçıvan Dövlət Universiteti
ayselesedova111@gmail.com

# Dilin biologiyası haqqında nəzəriyyələr

**Xülasə**

Bu tədqiqat, dilin biologiyası haqqında əsas nəzəriyyələri və onların insan beynində dilin formalaşması və inkişafı ilə əlaqəsini müzakirə edir. Dilin biologiyası, dilin insan beynində necə formalaşdığı və işlədildiyi ilə bağlı fundamental suallara cavab axtaran bir elmi sahədir. Bu mövzu, dilin yalnız sosial və mədəni bir fenomen olmadığını, eyni zamanda bioloji bir proses olduğunu ortaya qoyur. Dilin biologiyası, dil qabiliyyətinin genetik və nevroloji əsaslarını araşdıraraq, insanın kommunikasiya sisteminin necə inkişaf etdiyini başa düşməyə imkan tanıyır. Son illərdə aparılan tədqiqatlar, dilin beyindəki struktur və funksiyalarını daha dərindən anlamağa kömək etmişdir. Noam Çomski tərəfindən irəli sürülən universal qrammatika nəzəriyyəsi, dilin bioloji olaraq beynin bir hissəsi olduğunu irəlilədərək, bu sahədəki araşdırmalara yeni bir perspektiv gətirmişdir.

***Açar sözlər:*** *dilin biologiyası, beyin və dil, dilin inkişafı, universal qrammatka nəzəriyyəsi, genetik və nevroloji əsalar*

**Aysel Asadova**
Nakhchivan State University
ayselesedova111@gmail.com

# Theories About the Biology of Language

**Abstract**

This research discusses the main theories of language biology and their connection to how language is formed and developed in the human brain. Language biology is a scientific field that seeks answers to fundamental questions about how language is shaped and used within the human brain. This topic reveals that language is not only a social and cultural phenomenon but also a biological process. By examining the genetic and neurological foundations of language ability, language biology allows for an understanding of how human communication systems develop. Recent studies have helped deepen our understanding of the brain's structures and functions related to language. The theory of universal grammar, advanced by Noam Chomsky, introduces a new perspective to this field, suggesting that language is biologically embedded within the brain.

***Keywords:*** *language biology, brain and language, language development, universal grammar theory, genetic and neurological foundations*

## Giriş

Dilin biologiyası, dilin insan beynində necə formalaşdığı və işlədildiyi ilə bağlı fundamental suallara cavab axtaran elmi bir sahədir. Bu mövzu, dilin təkcə sosial və mədəni bir fenomen olmadığını, eyni zamanda bioloji bir proses olduğunu ortaya qoyur. Dilin biologiyası, dil qabiliyyətinin genetik və nevroloji əsaslarını araşdıraraq, insanın kommunikasiya sisteminin necə inkişaf etdiyini başa düşməyə imkan tanıyır. Bu sahə, dilin təkamül tarixi, insan beyni ilə dil arasındakı qarşılıqlı əlaqə və genetik amillərin dilin formalaşmasındakı rolu haqqında geniş müzakirələr doğurur.

**Tədqiqat**

Son illərdə, dilin biologiyası sahəsində aparılan tədqiqatlar, dilin beyindəki struktur və funksiyalarını daha dərindən anlamağa imkan tanımışdır. Noam Çomski tərəfindən irəli sürülən universal qrammatika nəzəriyyəsi, dilin bioloji olaraq beynin bir hissəsi olduğunu iddia edərək, bu

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

sahədəki araşdırmalara yeni bir perspektiv gətirmişdir. Eyni zamanda sosial-interaktionist nəzəriyyəsi, dilin öyrənilməsində sosial mühitin rolunu vurğulayır və bu sahədəki tədqiqatların genişlənməsinə səbəb olur. Bu tədqiqat işində dilin biologiyası haqqında əsas nəzəriyyələr müzakirə ediləcək, onların fərqli aspektləri və bir-biri ilə əlaqələri təhlil olunacaq. Dilin bioloji mexanizmlərinin öyrənilməsi, təkcə dilçilik sahəsində deyil, həm də psixologiya, nevrologiya və genetik tədqiqatlar sahələrində yeni imkanlar açır. Nəticədə, bu tədqiqatlar, dilin daha dərindən anlaşılmasına və insan kommunikasiya qabiliyyətinin inkişafına yönəldilmişdir.

**Universal qrammatika nəzəriyyəsi**

Universal qrammatika nəzəriyyəsi, müasir dilçilikdə Noam Çomski tərəfindən irəli sürülmüş bir konsepsiya olaraq, insan dilinin bioloji və kognitiv əsaslarını anlamağa yönəlmiş fundamental bir yanaşmadır. Bu nəzəriyyə, insanlara xas olan dil qabiliyyətinin tədqiqinə həsr olunmuşdur. Çomski, dilin yalnız bir sosial fenomen deyil, eyni zamanda insanların beynində yerləşən bir sistem olduğunu vurğulayır. Universal qrammatikanın əsas iddiası, bütün dillərin arxasında ortaq olan strukturların və qanunların mövcudluğudur (Chomsky, 1965).

Universal qrammatikanın mərkəzi düşüncəsi, insan beyninin dil qabiliyyətinin genetik olaraq kodlaşdırılmış olmasıdır. Bu o deməkdir ki, insan beynində dil öyrənmək və istifadə etmək üçün müəyyən bir mexanizm mövcuddur. Uşaqlar, doğuşdan sahib olduqları bu bioloji dil qabiliyyəti sayəsində ətraf mühitdən eşitdikləri dili analiz edərək, dilin qrammatik strukturlarını və qaydalarını öyrənirlər. Bu proses, universal qrammatikanın mövcudluğunu və insanların dil öyrənmə mexanizminin təbii bir qabiliyyət olduğunu təsdiq edir. Uşaqların dili öyrənmə sürəti, onların təbiətindəki bu bioloji proqramın nəticəsidir (Dehaene, 2009).

Universal qrammatika, dilin yalnız struktural aspektlərini deyil, həm də dilin sosial və mədəni kontekstlərini də nəzərə alır. Bu nəzəriyyə, dilin müasir tədqiqatları çərçivəsində dil pozğunluqları və afaziya kimi vəziyyətlərin başa düşülməsində də mühüm rol oynayır. Bu pozğunluqlar, insanların dil qabiliyyətini pozan xəstəliklərdir və universal qrammatikanın tələbləri ilə ziddiyyət təşkil edə bilər. Belə hallarda, dilin bioloji mexanizmlərinin pozulması, dilin normal fəaliyyətinin başa düşülməsində dəyərli məlumatlar təqdim edir. Nəzəriyyənin bir digər əhəmiyyətli tədqiqat sahəsi, müxtəlif dillərin struktural bənzərliklərini və fərqliliklərini araşdırmaqdır. Bu sahədə aparılan tədqiqatlar, dil ailələri arasındakı ortaq elementlərin və qrammatik strukturların müəyyən edilməsinə yönəlmişdir. Bu, dilin universal aspektlərinin və spesifik regional xüsusiyyətlərin başa düşülməsinə kömək edir.

Universal qrammatika nəzəriyyəsinin tətbiqi aspektləri də mühüm əhəmiyyət kəsb edir. Bu nəzəriyyə, dilin tədrisi və öyrənilməsi ilə bağlı yeni yanaşmaların inkişafına səbəb olmuşdur. Müxtəlif dillərin öyrənilməsində universal prinsiplərin tətbiqi, dil öyrənmə metodlarının daha effektiv şəkildə hazırlanmasına imkan tanıyır. Eyni zamanda, universal qrammatika, dilin süni intellekt və robot texnologiyaları sahələrində tətbiqi üçün yeni imkanlar yaradır. İnsan beyninin dil emalı prinsiplərinin öyrənilməsi, daha inkişaf etmiş dil texnologiyalarının yaradılmasına gətirib çıxarır (Hauser, Chomsky, & Fitch, 2002).

**Neurobiologiya nəzəriyyəsi**

Neurobiologiya nəzəriyyəsi, dilin insan beynində necə formalaşdığını, işlədiyini və insanın dil qabiliyyətini necə inkişaf etdirdiyini araşdıran bir yanaşmadır. Bu nəzəriyyə, dilin biologiya və nevrologiya sahələri ilə sıx bağlı olduğunu vurğulayır, dilin təkcə sosial və mədəni fenomen olmadığını, eyni zamanda beynin strukturlarının və funksiyalarının dilin inkişafında və istifadəsində əhəmiyyətli rol oynadığını göstərir. Neurobiologiya, dilin neurofizioloji əsaslarını, dilin beyindəki emal mexanizmlərini və dil pozğunluqlarının bioloji köklərini öyrənmək məqsədini güdür.

Neurobiologiya nəzəriyyəsi, dilin beyindəki spesifik strukturlar vasitəsilə emal edildiyini irəliləyir. Araşdırmalar, beynin sol yarımkürəsinin dilin emalında mərkəzi rol oynadığını göstərir. Broca və Wernicke bölgələri, dilin istehsalı və anlaşılırlığı ilə bağlı olan iki əsas bölgədir. Broca bölgəsi, dilin nitq formasının yaradılmasında, Wernicke bölgəsi isə dilin anlamında mühimdir. Bu bölgələrin funksiyaları, beynin dil qabiliyyətinin inkişafında və istifadəsində necə çalışdığını başa düşməyə kömək edir. Neurobiologiya nəzəriyyəsinin tədqiqatları, müxtəlif metodlar və texnologiyalar vasitəsilə aparılır. Beyin görüntüləmə metodları, məsələn, funksional maqnit rezonans

görüntüləmə (fMRI) və elektroensefalogram (EEG), dilin beyindəki emal proseslərini real vaxtda izləməyə imkan tanıyır. Bu metodlar, dil öyrənmə və istifadə zamanı beynin hansı bölgələrinin aktivləşdiyini və bu proseslərin necə baş verdiyini anlamağa kömək edir. Bu yanaşma, dilin neurobioloji əsaslarını daha dərindən öyrənməyə imkan yaradır (Friederici, 2009, pp. 303-312).

Neurobiologiya nəzəriyyəsi, dil pozğunluqlarının, məsələn, afaziya, disleksiya və digər dil xəstəliklərinin bioloji əsaslarını araşdırır. Bu pozğunluqlar, beynin spesifik bölgələrindəki zədələnmə və ya inkişaf pozğunluqları nəticəsində meydana gələ bilər. Neurobioloji tədqiqatlar, bu xəstəliklərin diaqnozu və müalicəsi üçün yeni yanaşmaların inkişafına səbəb olur. Eyni zamanda, bu sahədəki tədqiqatlar, dilin beyin inkişafında əhəmiyyətli rol oynayan genetik faktorları və nevroplastikliyi də öyrənir. Neurobiologiya nəzəriyyəsinin tapıntıları, dil tədrisi və öyrənilməsində yeni yanaşmaların yaranmasına imkan tanıyır. Məsələn, dilin öyrənilməsi prosesinin daha effektiv şəkildə təşkil edilməsi üçün beynin necə işlədiyini nəzərə alan metodlar inkişaf etdirilir. Neurobiologiyanın bilikləri, dil öyrənənlərin daha yaxşı nəticələr əldə etmələrinə kömək edən strategiyaların tətbiqini asanlaşdırır. Bununla yanaşı, süni intellekt sahəsindəki tədqiqatlar, insan beyninin dil emalı prinsiplərinin təqlid olunmasına yönəlib (Pinker, 1994).

**Təkamül nəzəriyyəsi**

Təkamül nəzəriyyəsi, dilin inkişafının və dil qabiliyyətinin insanların təkamül prosesində necə formalaşdığını araşdıran bir yanaşmadır. Bu nəzəriyyə, insanların dil qabiliyyətinin biologiyası, psixologiyası və sosial konteksti ilə birgə təkamül edərək inkişaf etdiyini iddia edir. Təkamül nəzəriyyəsi, dilin yalnız müasir insanlar arasında yayılmadığını, həmçinin insanın əcdadları arasında da var olduğunu və onların kommunikasiya sistemlərinin dilin inkişafına təsir etdiyini vurğulayır (Tomasello, 2003).

Təkamül nəzəriyyəsi, dilin insan növünün inkişafında mühüm rol oynadığını göstərir. İnsanların sosial həyatı və mürəkkəb münasibətləri dilin yaranmasına və inkişafına zəmin yaratmışdır. Dil, insanların qruplar halında yaşamalarını asanlaşdıran, əməkdaşlıq etmələrini təmin edən və mədəni bilikləri nəsildən-nəsilə ötürməyə imkan tanıyan bir vasitədir. Tədqiqatlar, insanların dil qabiliyyətinin digər primatlarla müqayisədə daha inkişaf etmiş olduğunu və bunun insanın təkamül prosesinin bir hissəsi olduğunu sübut edir.

Təkamül nəzəriyyəsinin bir aspekti, dilin inkişafının insanın sosial tələbləri ilə sıx bağlı olduğunu göstərir. İctimai mühitdəki dəyişikliklər, insanların kommunikasiya ehtiyaclarını artırmışdır. Mürəkkəb sosial strukturlar, insanların bir-biri ilə daha effektiv ünsiyyət qurmağı tələb edir. Bu, dilin daha mürəkkəb formasının meydana çıxmasına səbəb olmuşdur. Dilin inkişafı, insanların sosial münasibətlərini təşkil etmək, təcrübələri bölüşmək və mədəniyyətləri qorumaq üçün vacib olmuşdur (Vygotsky, 1986).

Təkamül nəzəriyyəsi, dil qabiliyyətinin genetik və nevroloji aspektlərini də özündə əks etdirir. Tədqiqatlar, müəyyən genlərin dil qabiliyyətinin inkişafında və nevroloji strukturların dil emalında mühüm rol oynadığını göstərir. İnsan beyninin təkamülü, dilin inkişafını mümkün edən dəyişiklikləri əhatə edir. Beynin spesifik bölgələrinin dilin emalı üçün adaptasiya edilməsi, dil qabiliyyətinin təkamül prosesinin bir hissəsi kimi qəbul edilir.

Təkamül nəzəriyyəsi, dilin mədəniyyət ilə necə bağlı olduğunu da vurğulayır. Mədəniyyət, dilin inkişafında əhəmiyyətli bir amil olmuşdur. Fərqli mədəni mühitlər, müxtəlif dil formalarının yaranmasına və inkişafına yol açmışdır. Dil, mədəniyyətin ötürülməsi və qorunmasında əsas vasitədir. İnsanların mədəni dəyərlərini, inanclarını və ənənələrini ifadə etmələri üçün dilə ehtiyacı vardır. Bu, təkamül prosesinin dilin formalaşmasında mədəniyyətin rolunu necə əks etdirdiyini göstərir (Lieberman, 2000).

## Nəticə

Dilin biologiyasının öyrənilməsi, təkcə akademik mühitlər üçün deyil, həm də cəmiyyətin dil bacarıqlarının inkişafı və kommunikasiya texnologiyalarının irəliləməsi üçün fundamental bir əhəmiyyət kəsb edir. Bu sahə, insanın kommunikasiya qabiliyyətinin təkamülü, dilin öyrənilməsi və istifadəsi ilə bağlı fundamental suallara cavab verir. Dil biologiyasının tədqiqi, dilin insan beynində necə formalaşdığını və emal edildiyini anlamağa kömək edir. Eyni zamanda bu sahə, dil

pozğunluqlarının araşdırılması, müalicəsi və dil öyrənmə metodlarının inkişafı üçün də əhəmiyyətlidir. Müasir dövrdə, dilin biologiyasının öyrənilməsi, süni intellekt texnologiyalarının inkişafında mühüm rol oynayır. İnsan dilinin emalı mexanizmləri, bu texnologiyaların yaradılmasında təməl prinsipləri təqdim edir. Məsələn, təbii dil emalı sistemləri, dilin insan beynindəki emal prinsiplərini simulyasiya edərək, daha dəqiq və təsirli nəticələr əldə etməyə imkan tanıyır. Bununla yanaşı, dil biologiyası, müxtəlif sahələrdə, o cümlədən psixologiya, nevrologiya və süni intellektin inkişafında da əhəmiyyətli təsir göstərir. Dil biologiyasının öyrənilməsi, həmçinin beynəlxalq tədqiqat layihələrini stimullaşdırır. Bu layihələr, müxtəlif mədəniyyətlərdən olan tədqiqatçıların birgə əməkdaşlığına əsaslanaraq, dilin müxtəlif aspektlərini daha geniş bir kontekstdə araşdırmağa imkan yaradır. Nəticədə, dilin biologiyası, beynəlxalq səviyyədə elmi əməkdaşlıq və mübadilə üçün də bir platforma təşkil edir.

## Ədəbiyyat

1. Chomsky, N. (1965). *Aspects of the Theory of Syntax*. MIT Press.
2. Dehaene, S. (2009). *Reading in the Brain: The New Science of How We Read*. Viking.
3. Friederici, A. D. (2009). Pathways to language: Fiber tracts in the human brain. *Nature Reviews Neuroscience*, 10(4), 303-312.
4. Hauser, M. D., Chomsky, N., & Fitch, W. T. (2002). The faculty of language: What is it, who has it, and how did it evolve? *Science*, 298(5598), 1569-1579.
5. Lieberman, P. (2000). *Human Language and Our Reptilian Brain: The Subcortical Bases of Speech, Syntax, and Thought*. Harvard University Press.
6. Pinker, S. (1994). *The Language Instinct: How the Mind Creates Language*. William Morrow.
7. Tomasello, M. (2003). *Constructing a Language: A Usage-Based Theory of Language Acquisition*. Harvard University Press.
8. Vygotsky, L. S. (1986). *Thought and Language*. MIT Press.

Daxil oldu: 04.09.2024
Baxışa göndərildi: 09.10.2024
Təsdiq edildi: 20.11.2024
Çap olundu: 30.11.2024

https://doi.org/10.36719/2706-6185/41/74-77

**İsmayıl Zeynalov**
Naxçıvan Dövlət Universiteti
ismayil.zeynalov@gmail.com
https://orcid.org/0009-0005-0368-0835

# Zəmanəmizin qlobal problemləri: bəşəriyyəti daha çox narahat edən məsələlərdən biri olan ekoloji problem

**Xülasə**

Müasir dövrün qlobal problemləri sırasında ekoloji problem mühüm yer tutur. Bu problemlərin əsas mahiyyəti insan taleyinin qorunmasıdır. Ekoloji problem ətraf mühitin, havanın, suyun, torpağın çirklənməsi, zərərli istehsal tullantılarının hidrosferə – okeanlara, dənizlərə, çaylara və göllərə axıdılması, planetin yaşıl örtüyünün tədricən azalması deməkdir. Ona görə də ekoloji problemin həlli XXI əsrin qarşısında duran ən mühüm məsələlərdən biridir.

Məqalədə ekoloji problemin həlli istiqamətində Azərbaycanda və Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirlər məhz bu baxımdan öz əksini tapıb.

***Açar sözlər:*** *ekologiya, problem, xalq, uğurlu həyat, Azərbaycan, Naxçıvan*

**Ismayil Zeynalov**
Nakhchivan State University
ismayil.zeynalov@gmail.com
https://orcid.org/0009-0005-0368-0835

# Global Problems of Our Time: Environmental Problem Which is one of Humanity's Most Concerned Issues

**Abstract**

Among the global problems of the modern era, the ecological problem occupies an important place. The main essence of these problems is the protection of human destiny. Ecological problem means the pollution of the environment, air, water, soil, discharge of harmful production waste into the hydrosphere, oceans, seas, rivers and lakes, and the gradual reduction of the green cover of the planet. Therefore, solving the environmental problem is one of the most important and important issues facing the XXI century.

It is from this point of view that the measures taken in Azerbaijan and its Nakhchivan Autonomous Republic in the direction of solving the environmental problem are reflected in the article.

***Keywords:*** *ecology, problem, people, successful life, Azerbaijan, Nakhchivan*

## Giriş

Müasir dövrün qlobal problemləri arasında ekoloji problem mühüm yer tutur. Bu problemlərin əsas məğzi insan taleyinin mühafizə edilməsindən ibarətdir. Ekoloji problem dedikdə, ətraf mühitin, havanın, suyun, torpağın çirkləndirilməsini, zərərli istehsal tullantılarının hidrosferə – okeanlara, dənizlərə, çaylara, göllərə axıdılması və planetin yaşıl örtüyünün getdikcə azalması başa düşülür. Ona görə də ekoloji problemin həll olunması XXI əsrdə qarşıda duran ən vacib və mühüm məsələlərdən biridir. Məhz bu baxımdan, məqalədə ekoloji problemin həlli istiqamətində Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında görülən tədbirlər öz əksini tapır.

**Tədqiqat**

Qeyd etmək lazımdır ki, həmişə olduğu kimi, hazırkı dövrdə də bəşəriyyəti daha çox narahat edən məsələlərdən biri ekoloji problemdir. İndi ekoloji təhlükə o qədər böyük və genişdir ki, onu tam əsasla nüvə müharibəsi təhlükəsi ilə eyni sıraya qoymaq olar. “Ekologiya” termini daha geniş

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

mәna daşıyır, lakin insan cәmiyyәti ilә tәbiәt arasındakı qarşılıqlı tәsir öyrәnildikdә ekoloji yanaşmaya böyük üstünlük verilir (Uşaq kitabxanalarında ekoloji tәrbiyә ilә bağlı biliklәrin gәnc kitabxanaçılara, oxuculara çatdırılması mәqsәdilә mәrkәzi kitabxanaların uşaq şöbәlәri, MKS-in şәhәr, qәsәbә, kәnd kitabxana filialları üçün hazırlanmış metodik vәsait, 2018, s. 15). Ekoloji problem dedikdә, әtraf mühitin, havanın, suyun, torpağın çirklәndirilmәsini, insanların tәbiәtә qarşı insafsızlığını vә qәddarlığını, onun qanunauyğunluqlarına tәcavüz edәnlәri, onları pozmağa çalışanları vә s. başa düşürük.

Ekologiyada baş verәn әn ciddi dәyişikliklәrdәn biri müxtәlif istehsal tullantılarının hidrosferә – okeanlara, dәnizlәrә, çaylara, göllәrә, yeraltı sulara axıdılmasıdır. "Mәlumat üçün bildirәk ki, planetimizdә olan suyun hәcmi 1.4-1.6 milyard kubkilometrә bәrabәrdir. Onun 94 %-i dünya okeanlarında, müәyyәn hissәsi isә buzlaqlarda vә atmosferdәdir. Birinci növbәdә, lazım olan içmәli su bütün hidrosferin ancaq 2 %-ni tәşkil edir. Bu da sәnaye tullantıları vә digәr zәrәrli maddәlәrlә çirklәndirilir. Bәzi sәnayesi inkişaf etmiş ölkәlәrdә çay sularının 25 %-ә qәdәri çirklәndirilir. Planetimizdә 2 milyard adam içmәli su mәnbәlәrinә malik deyillәr" ("Elm vә Hәyat" jurnalı, 1990, s. 317-318).

Hәmçinin dünyanın bir çox yerlәrindә, xüsusәn Asiya, Afrika vә Latın Amerikasında әhali suyun keyfiyyәtindәn әziyyәt çәkir. Çirkli sudan istifadә üzündәn bu bölgәlәrdә xәstәliklәr çoxalmışdır. Bu mәnada, bütün xәstәliklәrin 5/4 hissәsi bölgәlәrin payına düşür.

Ekoloji cәhәtdәn dünya okeanlarının vәziyyәti dә bu mәnada daha acınacaqlıdır. Onar haqlı olaraq su axıtma çuxuru adlandırılır. Çünki bütün su axıntıları әvvәl axır okeanlarda toplanır. O, planetin ciyәri rolunu oynayır. Buna görә dә onu çirklәndirmәk çox tәhlükәlidir.

"Ekoloji tarazlığın pozulmasına planetimizin yaşıl örtüyünün getdikcә azalması da güclü tәsir göstәrir. Müәyyәn sәbәblәr – quraqlıq, yanğınlar, tufanlar, daşqınlar, enerji çatışmazlığı, meşәlәrә qәddarcasına münasibәt yeni meşәlәr salınmasına diqqәt yetirmәmәk meşәlәrin vә ağacların qırılıb şәhәrlәr salınması vә ya binalar tikilmәsi vә s. meşәlәrin getdikcә mәhv olmasına doğru aparır" ("Elm vә Hәyat" jurnalı, 1990, s. 318).

Elmi-texniki inqilab vә onun nәticәlәri insanların sәhhәtinә, yaşayış tәrzinә vә psixologiyasına tәsir göstәrir. 1986-ci ildә Çernobılda atom elektrik stansiyasının 4-cü enerji blokunda baş verәn qәza buna misal ola bilәr. Qәza nәticәsindә keçmiş SSRİ-nin 17 milyon әhali yaşayan 11 vilayәti zәrәr çәkmişdir. Qәza on minlәrlә insanın ölümünә, yaralanmasına vә әlil olmasına sәbәb olmuşdur. Ekoloji vәziyyәtin pislәşmәsi tәhlükәli xәstәliklәrin meydana gәlmәsinә sәbәb olmuşdur.

Qlobal problemlәr Azәrbaycanda da özünü göstәrir. ETİ şәraitindә yararlı torpaqların sıradan çıxması aşınma nәticәsindә yararsız torpaqların artması Azәrbaycanda da ekoloji tarazlığa ciddi tәsir göstәrmişdir. Son 70 ildә Azәrbaycanda adambaşına düşәn yararlı torpaq sahәsinin hәcmi 2.5 dәfәdәn çox azalmışdır.

Azәrbaycanın әvәzsiz sәrvәti olan Xәzәrin ekoloji vәziyyәti narahatlıq doğurur. Xәzәrin әsl neftçıxarma meydançasına çevrilmәsi buraya Rusiyadan, Ermәnistandan, Gürcüstandan, İrandan çirkab vә zәhәrli tullantıların axıdılması Xәzәrdә ekoloji tarazlığı tamamilә pozmuşdur ("Şәrq qapısı" qәzeti, 2006, s. 28-29).

Vaxtilә Sovet mәrkәzi iradәsi ilә, xüsusәn SSRİ kimya sәnaye naziri ermәni A. Kostandyanın tәşәbbüsü ilә Sumqayıtın kimya şәhәrinә çevrilmәsi Xәzәrin ekologiyasına mәnfi tәsir göstәrmişdir. Sumqayıt Azәrbaycanın ölüm zonasına çevrilmişdir. Azәrbaycanda әtraf mühitin ekologiyasının pislәşmәsinә Rusiyanın Azәrbaycan әrazisindәki Qәbәlә RLS-nin böyük tәsiri vardır. Stansiyanın yerlәşdiyi zonada vә onun әtrafinda meşәlәr, torpaqlar, çәmәnliklәr sıradan çıxmış vә radiasiyanın tәsiri ilә tәhlükәli xәstәliklәr artmış, ölü vә xәstә körpәlәr dünyaya gәlmәyә başlamışdır.

Ermәnistan vә Gürcüstan әrazisindәn axıb gәlәn Araz vә Kür çaylarının gәtirdiyi zәhәrli maddәlәr vә çirkablar Azәrbaycanın ekologiyasını daim korlayır. Azәrbaycanda ekologiyanın pislәşmәsinә Dağlıq Qarabağla әlaqәdar Azәrbaycan-Ermәnistan müharibәsinin dә böyük tәsiri olmuşdur. Ermәnilәr tәrәfindәn Qәrbi Azәrbaycandan qovulanlarla yanaşı, Ermәnistan silahlı qüvvәlәri tәrәfindәn işğal edilmiş әrazilәrdә hәr şey dağıdılmışdır. Odur ki müstәqil şәraitdә hәlә dә davam edәn çәtinliklәrin aradan qaldırılması üçün daima mübarizә aparılmışdır (Mәmmәdov, Mәmmәdov, 2004, s. 357).

Hər bir dövləti öz xalqının, millətinin, nəhayət, bəşəriyyətin taleyi, mövcudluğu maraqlandırırsa, öncə öz ərazisində, vətənində ətraf mühitin qayğısına qalmalıdır. Bunun üçün nəinki həyati əhəmiyyəti olan qanun və qərarlar qəbul edilməli, həm də həmin qanunların yerlərdə icrasının hamılıqla yerinə yetirilməsinə ciddi əməl edilməlidir. Bu mənada, Azərbaycan dövlətinin qurucusu ümummilli lider Heydər Əliyev ekoloji problemin həlli istiqamətində çox işlər görmüşdür. Heydər Əliyevin istər Azərbaycanda 1969-1982-ci illər hakimiyyətinin birinci dövründə, istərsə də hakimiyyətinin 1993-2003-cü illər ikinci dövründə sosial islahatların mühüm tərkib hissəsindən biri olan ekologiya ilə bağlı məsələləri daim diqqət mərkəzində saxlamış, ətraf mühitin sağlamlaşdırılması istiqamətində iri layihələrin uğurla həyata keçirilməsinə nail olmuşdur. Ulu öndər Heydər Əliyev "mövcud ekoloji problemlərin həll edilməsi üçün dövlətimizin Ekologiya və Təbii Sərvətlər Nazirliyi ərafında beynəlxalq təşkilatlarla, o cümlədən BMT-nin İnkişaf, ətraf mühit, qlobal ekoloji təşkilatlarla əlaqələrin genişləndirilməsinə" xüsusi önəm vermişdir ("Şərq qapısı" qəzeti, 2005, s. 2).

Ümummilli liderimiz Heydər Əliyevin dövründə olduğu kimi, hazırda da ekoloji problemlə bağlı məsələlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Ölkəmizdə ekoloji vəziyyətin sağlamlaşdırılması istiqamətində bölgələrdə müvafiq dövlət proqramları çərçivəsində ardıcıl işlər görülür. Bu baxımdan, Naxçıvan Muxtar Respublikasında ekoloji problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlər və görülən işlər diqqətəlayiqdir. Muxtar respublikada 1995-ci ildən başlayaraq, ekołoji problemlərin həlli istiqamətində ardıcıl olaraq bir çox işlər görülmüşdür. İlk növbədə muxtar respublikada əhalinin ekoloji cəhətdən içməli su ilə təminatının yaxşılaşdırılması üzrə Ali Məclisin sərəncamı əsasında təmiz suya ehtiyacı olan şəhər əhalisini, istərsə də ayrı-ayrı yaşayış məntəqələrində bir çox işlər həyata keçirilmişdir. "Şəhərin su təminatını Naxçıvan çayında dren üsulu ilə həyata keçirilmiş və əhalinin suya ehtiyacı olan bir çox yaşayış məntəqələrində subartezian quyuları qazılıb xalqın istifadəsinə verilmişdir. Bəzi kəndlər içməli su ilə təmin olunmasında modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır ("Azərbaycan" qəzeti, 2010, s. 2).

Bundan əlavə, Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks tədbirlər planının icrası ilə əlaqədar Heydər Əliyev adına Beynəlxalq Hava limanı ətrafında "Ashabi-Kəhf" yolu istiqamətində, Naxçıvan − Sədərək magistral yolu kənarlarında yaşıllaşdırma işləri aparılmışdır ki, bunlar eklogiyanın sağlamlaşmasında mühüm rol oynamaqdadır. Ali Məclisin "Magistral avtomobil yollarının mühafizə zolaqlarının yaşıllaşdırılması haqqında" Sərəncamının icrası ilə əlaqədar Naxçıvan − Şahbuz, Naxçıvan − Şərur, Naxçıvan − Ordubad magistral yollarının estetik görünüşləri xeyli yaxşılaşmışdır. Bu magistral yollarda 500 mindən artıq ağac əkilmişdir. Muxtar respublikanın rayon və kəndlərində 1995-ci ildən 2009-cu ilə qədər 3 milyondan çox ağac əkilmiş və ətraf mühit yaşıllaşdırılmışdır (Korobkin, Peredelski, 2013, s. 2).

Həmçinin muxtar respublikanın flora və faunasının mühafizəsi üzrə ciddi tədbirlər həyata keçirilir və nəzarət artırılır. 1995-2009-cu illərdə xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsi genişləndirilmişdir.

Ölkəmizdə ekoloji vəziyyətin tənzimlənməsində mühüm əhəmiyyət daşıyan bu sənəd, eyni zamanda ekoloji təbliğat və ekoloji maarifləndirməni, bu sahədə görüləcək işlərin geniş əhali kütləsinə çatdırılmasını tələb edir (Alışova, Səfərəliyeva, 2009, s. 7).

2009-cu il iyun ayında muxtar respublika ərazisində "Arpaçay Dövlət təbiət yasaqlığı, Şahbuz rayon Batabat yaylağında heyvanat aləminin mühafizasi ilə bağlı Qoruq elan edilməsi respublikada fauna və floranın sağlamlaşmasına ciddi təsir göstərmişdir. 2005-2009-cu illərdə yardımçı təsərrüfat sahəsi üzrə xeyli işlər görülmüşdür. Təbii ət, meyvə, qoz, fındıq, bal tədarük edilmişdir. Respublikada yanğın əleyhinə vaxtaşırı profilaktik tədbirlər aparılır. Bundan başqa, iri həcmli investisiya tələb edən regional əhəmiyyətli layihələr ekspertizasına xüsusi diqqət yetirilmiş, onların respublikanın iqtisadi inkişafında əhəmiyyəti nəzərə alınaraq, ekoloji və sosial qiymətləndirmələri aparılmış və muxtar respublikada "Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ətraf mühitin mühafizəsi sahəsindəki çoxşaxəli fəaliyyətində ictimaiyyətin məlumatlandırılması və maarifləndirilməsi işi əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilmişdir" (Korobkin, Peredelski, 2013, s. 12).

1995-2009-cu illərdə ekoloji maariflənməyə xidmət edən müxtəlif kütləvi tədbirlər həyata keçirilmişdir. Belə ki, ölkədə ekoloji mühitin sağlamlaşdırılması sahəsində misilsiz xidməti olan ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə 1970-ci ildən etibarən həyata keçirdiyi yaşıllaşdırma, ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən istifadəetmə siyasətinin daha geniş təbliğ olunması, onların qorunub saxlanmasını təmin etmək məqsədilə Naxçıvan Dövlət Universitetinin tələbələri arasında "Ətraf mühitin indiki və gələcək nəsillər naminə mühafizəsi" adlı məruzə ilə çıxışlar təşkil edilmiş və hər dəfə maraqla qarşılanmışdır. İnsanlar təbiətin zəngin təbii sərvətlərindən bol-bol istifadə edir, ondan çox şey alırlar. Bunun müqabilində isə insanlar təbiətə olduqca az şey bəxş edirlər (Korobkin, Peredelski, 2013, s. 28).

## Nəticə

Ekoloji təqvim günlərində (Yer günü, Ətraf mühit günü, Dəniz günü və s.) qəzet və jurnallarda məqalələr dərc olunmuş, televiziya və radio kanallarında çıxışlar edilmiş, respublikanın yaşayış məntəqələrində təmizlik və abadlıq işləri aparılmış, iməcliklər təşkil olunmuşdur. Həmçinin Naxçıvan Dövlət Universitetinin müəllimləri ekoloji mövzularda dəyirmi masa arxasında söhbətlər aparmış və regionlarda əhali arasında "Havanı təmiz saxlayaq", "Kəndlərin zibillənməsi", "Tullantıların zərəri" kimi mövzular ilə çıxış etmişlər. Hər il olduğu kimi, ölkədə ekoloji vəziyyətin sağlamlaşdırılması, təbiətdən davamlı istifadə ideyalarının yayılması və əhalinin məlumatlandırılması məqsədilə müəllimlər 5 iyun "Ümumdünya ətraf mühit günü" ərəfəsində ekoloji mövzuda radio və televiziya verilişlərində tələbələr arasında da məruzə ilə çıxışlar təşkil etmişlər. Beləliklə, muxtar respublikada mütəmadi olaraq əhali arasında ekoloji maarifləndirmə işi aparılmışdır. Son illər ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ekoloji problemlərin operativ yoluna qoyulmasına, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaratmışdır. Dövlət başçısı, eləcə də Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə reallaşdırılan layihələr Azərbaycanda ekoloji problemlərin həyata keçirilməsini sürətləndirir. Məhz elə buna görə də, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2010-cu ili "Ekologiya ili" elan etmişdir ("Şərq qapısı" qəzeti, 2007, s. 2). 2010-cu ilin "Ekologiya ili" elan edilməsi, ölkə vətəndaşlarının, dövlət qurumlarının, hüquq-mühafizə orqanlarının, kütləvi informasiya vasitələrinin qarşısına mühüm vəzifələr qoymuşdur. Bu işdə Naxçıvan rəhbərliyi ətrafında sıx birləşən zəhmətkeşlərin də üzərinə böyük məsuliyyət düşür.

## Ədəbiyyat


1. "*Azərbaycan" qəzeti*. (2010, 1 yanvar).
2. *"Elm və Həyat" jurnalı*. (1990). 3, 28-29.
3. Korobkin, V. İ., Peredelski, L. V. (2013). *Ekologiya* (dərslik) (rus dilindən tərcümə). "İqtisad Universiteti" Nəşriyyatı.
4. Məmmadov, İ., Məmmədov, Ç. (2004). *Siyasi tarix*.
5. *"Şərq qapısı" qəzeti*. (2006, 23 dekabr).
6. *"Şərq qapısı" qəzeti.* (2007, 17 yanvar).
7. Tahirov, K. (ixtisas red.), Alışova, N. (tərt.), Səfərəliyeva, G. (red.). *Ekologiya və kitabxanaların qarşısında duran vəzifələr.* (2009). M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası.
8. *Uşaq kitabxanalarında ekoloji tərbiyə ilə bağlı biliklərin gənc kitabxanaçılara, oxuculara çatdırılması məqsədilə mərkəzi kitabxanaların uşaq şöbələri*. MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait. (2018).


Daxil oldu: 27.08.2024
Baxışa göndərildi: 12.09.2024
Təsdiq edildi: 04.10.2024
Çap olundu: 30.11.2024

https://doi.org/10.36719/2706-6185/41/78-83

**Günel Mustafayeva**
Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası
mustafayevagunel90@gmail.com

# Ətraf mühit hüququ: dayanıqlı inkişafın hüquqi çərçivəsi

**Xülasə**

"Ətraf mühit hüququ: dayanıqlı inkişafın hüquqi çərçivəsi" məqaləsində ətraf mühit hüququnun əhəmiyyətini və insan fəaliyyətinin ekosistemlərə təsirini tənzimləyən hüquqi çərçivəni müzakirə edilir. Ətraf mühit hüququ, ekosistemlərin mühafizəsi və insanın təbiətlə qarşılıqlı əlaqələrinin tənzimlənməsi məqsədini güdür. Bu sahənin inkişafı, qlobal miqyasda 1972-ci ildə Stokholm Konfransında təsdiqlənmiş prinsiplərlə başlayır. Məqalədə çirklənmə, təbii resursların idarə edilməsi, biomüxtəlifliyin qorunması və iqlim dəyişikliyi ilə mübarizə kimi əsas sahələr araşdırılır. Eyni zamanda beynəlxalq konvensiyalar, o cümlədən Ramsar və UNESCO Dünya İrsi Konvensiyaları, ətraf mühitin mühafizəsi üçün əsas hüquqi bazanı formalaşdırır.

Məqalə həmçinin Azərbaycan Respublikasının Konstitusiyasında və Ətraf Mühitin Mühafizəsi qanununda ətraf mühit hüquqlarının tanınmasını və mühafizəsinin əhəmiyyətini vurğulayır. Dövlətin ekoloji tarazlığın qorunması, resursların səmərəli istifadəsi və vətəndaşların hüquqlarının təmin olunması məqsədilə həyata keçirdiyi tədbirlər də izah edilir.

***Açar sözlər:*** *ətraf mühit hüququ, ekosistemlərin mühafizəsi, təbii resurslar, Stokholm Bəyannaməsi, dayanıqlı inkişaf*

**Gunel Mustafayeva**
The Academy of Justice of the Ministry of Justice of the Republic of Azerbaijan
mustafayevagunel90@gmail.com

# Environmental Law: The Legal Framework for Sustainable Development

**Abstract**

In the article "Environmental Law: The Legal Framework for Sustainable Development," the importance of environmental law and the legal framework regulating the impact of human activities on ecosystems is discussed. Environmental law aims to protect ecosystems and regulate the interactions between humans and nature. The development of this field began with the principles established at the Stockholm Conference in 1972 on a global scale. The article examines key areas such as pollution, natural resource management, biodiversity conservation, and combating climate change. Additionally, international conventions, including the Ramsar Convention and the UNESCO World Heritage Convention, form the legal basis for environmental protection.

The article also highlights the recognition of environmental rights in the Constitution of the Republic of Azerbaijan and the importance of their protection under the Law on Environmental Protection. It explains the measures taken by the state to ensure ecological balance, efficient use of resources, and the protection of citizens' rights.

***Keywords:*** *environmental law, ecosystem protection, natural resources, Stockholm Declaration, sustainable development*

## Giriş

Ətraf mühit hüququ, insan fəaliyyətinin ekosistemlərə təsirini tənzimləyən və mühafizə etməyə yönəlmiş kompleks bir hüquq sahəsidir. Ətraf mühit hüququ yalnız ekosistemlərin qorunmasına deyil, həm də insanın onlarla qarşılıqlı əlaqələrinin tənzimlənməsinə yönəlib, inkişaf ehtiyacını ətraf mühitin qorunması zərurəti ilə tarazlayır (Birnie, Boyle, Redgwell, 2009, p. 56). Hüquqi kontekstdə ətraf mühit, hava, su, torpaq və canlı orqanizmləri əhatə edən fiziki, kimyəvi və bioloji sistemlərin

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

cəmini ifadə edir. Bununla yanaşı, insan fəaliyyətləri nəticəsində yaranan mədəni və süni mühit də ətraf mühit anlayışının bir hissəsidir. Bu sahənin tənzimləmələri, insanın ekosistemlə olan qarşılıqlı əlaqələrini hüquqi normativlər əsasında müəyyən edir. Ətraf mühit hüququ, resursların dayanıqlı istifadəsini, çirklənmənin azaldılmasını və biomüxtəlifliyin qorunmasını əhatə edən qanunları özündə birləşdirir. Qlobal miqyasda, 1972-ci ildə Stokholmda keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İnsan Ətraf Mühiti üzrə Konfransı, beynəlxalq ətraf mühit hüququnun əsasını qoymuş və ətraf mühitin qorunması üçün mühüm prinsipləri müəyyən etmişdir. Bu məqalədə ətraf mühit hüququnun məqsədləri, əsas tənzimləmə mexanizmləri və beynəlxalq hüquq çərçivəsindəki rolu daha ətraflı araşdırılacaq, eləcə də cəmiyyətin ekosistemlərə qarşı məsuliyyətini artırmağa yönəlmiş hüquqi normalar müzakirə olunacaq.

**Tədqiqat**

Ətraf mühit hüququ insan fəaliyyətinin ətraf mühitə mənfi təsirlərini tənzimləyən və onu qorumağa yönələn mürəkkəb və çoxşaxəli hüquq sahəsidir. Ətraf mühit termini geniş mənaya malikdir və onun həm hüquqi, həm də elmi və sosial-iqtisadi kontekstlərdə tətbiqi müxtəlifdir. Hüquqi baxımdan ətraf mühit bizi əhatə edən fiziki, kimyəvi və bioloji sistemlərdən ibarətdir — hava, su, torpaq və canlı orqanizmlər, o cümlədən insanlar. Bundan əlavə, ətraf mühit dedikdə, insan fəaliyyətləri nəticəsində formalaşan mədəni və süni mühit də nəzərdə tutulur. Beləliklə, ətraf mühit hüququ yalnız təbii elementlərə deyil, həm də cəmiyyətin təbiətlə qarşılıqlı əlaqələrinə dair məsələləri tənzimləyir.

Ətraf mühit sözünün mənşəyi fransız dilindəki “environner” sözündən götürülmüşdür və "əhatə etmək" mənasını verir. Bu, insan və ya ekosistemlərin əhatəsində olan şərait və ya şərtləri ifadə edir. Bu anlayış müasir ətraf mühit hüququnun əsasını təşkil edir və insanlar ilə onların ətrafındakı mühit arasındakı münasibətləri tənzimləmək məqsədi daşıyır, resursların dayanıqlı istifadəsini və qorunmasını təmin etməyə yönəlmişdir. Ətraf mühit hüququ qeyri-müəyyənliklə doludur. Siz müəyyən bir vaxtda və məkanda bəzi insanları digərlərinin xeyrinə tənzimləyirsiniz, lakin həmin insanlara belə, qarşısını almağa çalışdığınız hadisənin mütləq baş verəcəyini əminliklə söyləyə bilmirsiniz (Richard Lazarus, 2004, p. 18).

Hüquqi kontekstlərdə ətraf mühitin tərifləri elmi yanaşmalarla üst-üstə düşür və burada ətraf mühit "fiziki, kimyəvi və bioloji faktorların kompleksi" olaraq təyin edilir və ekosistemlərin davamlılığı bu faktorlarla müəyyən edilir. Ətraf mühit hüququ bu təbii resursların istifadəsi, qorunması və bərpasını tənzimləmək üçün öhdəliklər, məhdudiyyətlər və hüquqlar çərçivəsini müəyyən edir.

Əsas ətraf mühit hüququ sahələrinə aşağıdakılar daxildir:

1. Çirklənməyə qarşı qanunlar − bu qanunlar havaya, suya və torpağa tullantıların atılmasını tənzimləyir ki, bu da insan sağlamlığına və ekosistemlərə zərər verilməməsini nəzərdə tutur.
2. Təbii resursların idarə edilməsi − torpaq, meşə, mineral və dəniz resurslarının dayanıqlı istifadəsi ilə bağlıdır.
3. Biomüxtəlifliyin qorunması − nəsli kəsilməkdə olan növlərin və ekosistemlərin mühafizəsinə yönəlmişdir.
4. İqlim dəyişikliyinə qarşı tənzimləmələr − istixana qazı emissiyalarının azaldılmasına və dəyişən ekoloji şərtlərə uyğunlaşmağa yönəlmiş tədbirlərdir.

Əsasən, ətraf mühit hüququ insan inkişafı ilə təbiət arasında tarazlığı təmin etmək məqsədilə hüquqi müdafiə vasitəsi kimi çıxış edir, ətraf mühitin tənəzzülünün qarşısını almaqla bərabər təbii resursların məsuliyyətli istifadəsini təmin edir. Bu hüquq sahəsi ekoloji ədalətin təmin edilməsində, ictimai sağlamlığın qorunmasında və gələcək nəsillər üçün ekosistemlərin qorunmasında mühüm rol oynayır. Çünki dayanıqlı inkişaf ekosistemin ümumi bütövlüyünü qorumaq məqsədilə hava, su və digər təbii elementlərin keyfiyyətinə mənfi təsirlərin minimuma endirilməsini tələb edir (Helle Tegner Anker & Birgitte Egelund Olsenl, 2018, p. 10).

1972-ci ildə keçirilən Birləşmiş Millətlər Təşkilatının İnsan Ətraf Mühiti üzrə Konfransı “Stokholm Bəyannaməsini” qəbul etdi. Bu bəyannamə insan ətraf mühitinin qorunması və inkişafı üçün fundamental prinsipləri müəyyənləşdirdi. Həmçinin bu bəyannamə beynəlxalq ətraf mühit

idarəçiliyinin təməlini qoyaraq, mövcud və gələcək nəsillər üçün təbii resursların qorunması məqsədilə qlobal fəaliyyətin əlaqələndirilməsinə ehtiyac olduğunu vurğuladı (Philippe Sands & Paolo Galizzi, 2004, p. 3). Bu deklarasiya Stokholmda keçirilən konfransda qəbul edilmiş və qlobal miqyasda ətraf mühitin qorunması üçün əsas prinsipləri müəyyənləşdirir. Deklarasiya ətraf mühitin dəqiq tərifini verməsə də, ətraf mühitin qorunmasının insanların rifahı və dünya üzrə iqtisadi inkişaf üçün vacib olduğunu vurğulayır. Deklarasiyada təbii resursların – hava, su, torpaq, flora və fauna kimi, həmçinin nümayəndə ekosistemlərin – mövcud və gələcək nəsillər üçün qorunmasının vacibliyi qeyd olunur. Bu da ətraf mühit hüququnda əsas prinsiplərdən biri olan nəsillərarası bərabərlik anlayışını formalaşdırır və gələcək nəsillərin təbii resurslara çıxışının təmin olunmasını nəzərdə tutur.

Hüquqi baxımdan ətraf mühit hüququ insan fəaliyyətinin ətraf mühitə təsirini tənzimləyən hüquqi qaydalar, normalar və prosedurlar toplusu kimi geniş şəkildə təyin edilə bilər. Lakin demək olar ki, bütün insan fəaliyyəti və təbii hadisələr ətraf mühitə birbaşa və ya dolayı təsir göstərir. Buna görə də, ətraf mühitin qorunması yalnız bir hüquq sahəsi ilə məhdudlaşmır, müxtəlif hüquqi sahələrdə və siyasətlərdə yer alır.

Nəticə etibarilə, ətraf mühit hüququ tək bir hüquq sahəsi deyil, təbii resursların dayanıqlı idarə edilməsini və gələcək nəsillər üçün qorunmasını təmin etmək məqsədilə müxtəlif hüquqi standartları birləşdirən və daim inkişaf edən bir sahədir (UNESCO World Heritage Convention).

Ətraf mühitin qorunmasının əsasları əslində çox qədimdir, baxmayaraq ki, ətraf mühit hüququ nisbətən yeni bir hüquq sahəsi hesab olunur. Ətraf mühitin qorunmasının köklərini araşdırarkən müxtəlif sahələrə və elmlərə, o cümlədən din, fəlsəfə, etika, elm, iqtisadiyyat və milli və beynəlxalq hüquqa nəzər salmaq lazımdır. Ətraf mühit hüququ bu sahələrin hamısından götürülən prinsiplərə əsaslanır, çünki o, fənlərarası xarakter daşıyır. Tarixən din ətraf mühitin qorunmasında mühüm rol oynamışdır. Demək olar əksər dini fikirlərdə təbii resursların yaradan tərəfindən insana bəxş edildiyini və insanların bu resursları qorumaq və saxlamaq öhdəliyinin olduğunu öyrədir. Eyni zamanda, yerli xalqların mədəniyyətləri də ətraf mühitin qorunmasında güclü təsirə malikdir xalqlar üçün torpaq müqəddəsdir və onların sosial və mədəni kimliklərinin əsas hissəsidir.

Həmçinin ətraf mühitin qorunması ilə bağlı bərabərlik və ədalət kimi etik və fəlsəfi konsepsiyalar da mühüm rol oynayır. Bu konsepsiyalar bir çox ətraf mühit qanunvericilik aktlarına daxil edilib və beynəlxalq və milli səviyyələrdə hüquqi çərçivələrin inkişafında əsas rol oynayır. Elm, xüsusilə biologiya, kimya və fizika, ətraf mühit hüququnun inkişafında mühüm rol oynayıb. Elmi araşdırmalar və kəşflər insan fəaliyyətinin təbii sistemlərə təsirini proqnozlaşdırmağa və idarə etməyə kömək edir. Lakin ətraf mühit hüququ eyni zamanda çevik olmalıdır, çünki elm həmişə qəti nəticələr vermir və ətraf mühit daim dəyişir. Buna görə də, hüquqi çərçivələr bu qeyri-müəyyənlikləri və potensial geri dönməz zərərləri nəzərə alaraq tənzimlənməlidir.

Nəhayət, iqtisadi amillər ətraf mühitin qorunmasında böyük əhəmiyyət kəsb edir. İqtisadi inkişaf, xüsusən ilkin mərhələlərində, əksər hallarda ətraf mühitin pisləşməsi ilə nəticələnir. Ətraf mühitin qorunması tədbirləri baha başa gəldiyindən malların və xidmətlərin qiymətini artırır. Bu isə qlobal ticarətə təsir edir və xüsusilə iqtisadi cəhətdən inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında rəqabət üstünlüyünün bölüşdürülməsinə təsir göstərir.

Bu səbəbdən, ətraf mühitin qorunması və iqtisadi inkişaf arasında balans tapmaq əsas məqsədlərdən biridir və bu, ətraf mühit hüququ vasitəsilə tənzimlənir. Qaydalar, beynəlxalq müqavilələr və siyasət təşəbbüsləri kimi hüquqi mexanizmlər bu kompleks məsələləri həll etməyə çalışır. Nəticə olaraq, ətraf mühitin qorunması yalnız bir sahə ilə məhdudlaşmır, o, çoxşaxəli bir məsələdir və bu sahədə hüquqi normaların inkişaf etdirilməsi üçün hərtərəfli yanaşma tələb olunur. Hüquq, elm, din, iqtisadiyyat və etika bir-birinə təsir edərək, həm mövcud, həm də gələcək nəsillər üçün ətraf mühitin qorunmasını təmin edir.

Bəs qanun nə üçün ətraf mühitin qorunması üçün lazımdır? Ətraf mühitin pisləşməsinin əsasən insan fəaliyyəti nəticəsində baş verməsi nəzərə alınaraq, bu cür mənfi təsirlərin qarşısını almaq üçün məsuliyyət daşıyan dövlət orqanları məcburi hüquqi normalar yaratmaq üçün hüquqi qaydalar hazırlayır. Ətraf mühit hüququ adlanan bu qanunlar, ətraf mühitə ziyan vuran hərəkətlərin qarşısını almaq üçün icbari xarakter daşıyan normaları və tətbiq mexanizmlərini ehtiva edir. Bu hüquqi

qaydalar təkcə normalar və qaydalar müəyyən etmir, həm də idarəetmə vasitələri, təşviqlər və cəzalar kimi müdaxilə üsulları da təqdim edir.

Ətraf mühit hüququnda məcburi qaydalar əsas element olsa da, məcburi olmayan prinsiplər, məsələn, bəyanatlar və ya planlar da ətraf mühitin qorunmasını artırmaq üçün əlverişli ola bilər. Beləliklə, ətraf mühit hüququ, çirklənmənin və dünya üzrə təbii resursların tükənməsinin qarşısını almaq üçün vacib vasitə kimi çıxış edir. Beynəlxalq hüquq da vacibdir, çünki ətraf mühitlə bağlı bir çox problemlər sərhədləri aşan xarakter daşıyır.

Ətraf mühit hüququnun əsas funksiyası tükənməyən resursların gələcək nəsillər üçün qorunmasını təmin etməkdir. Bununla yanaşı, yenilənə bilən resurslar davamlı şəkildə idarə olunmalı və onların tükənməsinin qarşısı alınmalıdır. Məsələn, meşələrin qırılması kimi hallar həm iqlim dəyişikliyinə, həm də səhralaşmaya səbəb ola bilər. Müxtəlif heyvan növlərinin sağ qalması üçün vacib olan yaşayış yerləri qorunmalıdır ki, qida zənciri pozulmasın. Eyni zamanda təbii sərvətlərin əsas xüsusiyyətləri gələcək nəsillər üçün qorunmalıdır. Nəticə olaraq, ətraf mühit hüququ insan fəaliyyətini tənzimləyərək təbii resursların və ekosistemlərin qorunmasını təmin edən bir hüquq sahəsidir. O, həm məcburi hüquqi qaydaları, həm də məcburi olmayan prinsipləri əhatə edir və milli və beynəlxalq səviyyədə fəaliyyət göstərərək, indiki və gələcək nəsillər üçün ətraf mühitin qorunmasını təmin etməyə yönəlmişdir.

Onu da qeyd etmək lazımdır ki, beynəlxalq ekoloji hüquq 20-ci əsrin ikinci yarısında inkişaf etməyə başladı, lakin bəzi erkən tədbirlər də var idi. 1902-ci il Paris Konvensiyası kənd təsərrüfatı üçün vacib olan quşları qorumağa yönəlmiş ən erkən beynəlxalq razılaşmalardan biri idi. Daha sonra, 1933-cü il London Konvensiyası bu çərçivəni inkişaf etdirərək, Afrikada fauna və floranın qorunması üçün milli parklar yaratdı. Bu erkən tədbirlər, eləcə də 1954 və 1958-ci illərdə dəniz resursları və neft çirklənməsi ilə bağlı konvensiyalar müasir beynəlxalq ekoloji idarəetmə üçün təməl qoydu (Pierre-Marie Dupuy & Jorge E. Viñuales, 2018, p. 54). 1958-ci il Cenevrə Konfransı dəniz resurslarının qorunmasına dair dörd əsas müqavilə ilə nəticələndi. 1959-cu il Antarktika Müqaviləsi nüvə fəaliyyətini qadağan etdi və təbiəti qorudu. Ekoloji dövr 1960-cı illərin sonunda başladı, dünya resurslarının məhdud olduğu anlaşıldıqda və ictimaiyyətin ətraf mühitin qorunması üçün tələbi artdı. 1972-ci ildə BMT-nin Stokholmda keçirdiyi ilk böyük ekoloji konfrans nəticəsində Stokholm Bəyannaməsi qəbul edildi, bu bəyannamə beynəlxalq ekoloji hüququ formalaşdıran 26 prinsip müəyyən etdi. Konfrans həmçinin BMT-nin Ətraf Mühit Proqramının (UNEP) yaradılmasına səbəb oldu, bu qurum qlobal ekoloji idarəçiliyə nəzarət edir.

Stockholm Konfransından sonra bir sıra əhəmiyyətli ətraf mühit konvensiyaları qəbul edildi. 1971-ci il Ramsar Konvensiyası bataqlıqların qorunmasını hədəfləyir, 1972-ci il UNESCO Dünya İrsi Konvensiyası, həm mədəni, həm də təbii irsi qorumağa yönəlmiş bənzərsiz beynəlxalq bir razılaşmadır. Eyni zamanda, UNCLOS dəniz mühitinin idarə olunması üçün geniş bir çərçivə təqdim edir, dəniz resurslarının və biomüxtəlifliyin qorunması və davamlı istifadəsinə vurğulayır.

Azərbaycan Respublikasının Əsas Qanunu olan Konstistusiyasında ətraf mühitlə bağlı baza normalar müəyyən olunmuşdur. Belə ki, Konstitusyanın 39-cu maddəsində Sağlam ətraf mühitdə yaşamaq hüququ təsbit edilmişdir ("Azərbaycan Respublikasının Konstitusiyası"). Maddə 39, sağlam ətraf mühitdə yaşamaq hüququnu tanıyır, bu da hər bir insanın həyat keyfiyyəti və rifahı üçün vacibdir. Bu hüquq, beynəlxalq hüquq normaları ilə, o cümlədən 1992-ci ildə qəbul edilmiş Rio Bəyannaməsi ilə təsdiq edilmişdir ki, bu da insan hüquqları ilə ətraf mühitin qorunması arasındakı qarşılıqlı əlaqəni vurğulayır. Hər kəsin ətraf mühitin real vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquq pozuntuları nəticəsində sağlamlığa və əmlaka dəymiş zərərlərə görə kompensasiya almaq hüququ vardır. Bu müddəa, insanları ətraf mühitin vəziyyəti barədə məlumatlandırmağı təşviq edərək, onlara daha məlumatlı qərarlar vermək imkanı yaradır.

Maddənin üçüncü bəndi, heç kəsin qanunla müəyyən edilmiş hədlərdən artıq ətraf mühitə və təbii resurslara təhlükə yarada və ya zərər vura bilməyəcəyini vurğulayır. Bu, insanların və müəssisələrin ətraf mühitin mühafizəsi ilə bağlı qanunlara riayət etmələrinin hüquqi öhdəliyini təsdiqləyir. Bu prinsip dayanıqlı inkişaf anlayışına uyğun gəlir, yəni iqtisadi artım ilə ətraf mühitin mühafizəsi arasında bir tarazlıq yaratmağa çalışır. Beləliklə, Maddə 39 ətraf mühitlə bağlı hüquqları və dövlətin öhdəliklərini əhatə edir, eyni zamanda insanların rifahı üçün sağlam mühitin

qorunmasının əhəmiyyətini vurğulayır. Bu hüquqi çərçivə, gələcək nəsillərin sağlam ətraf mühitdə yaşamağına təminat verir.

Ətraf Mühitin Mühafizəsinə dair Azərbaycan Respublikasının qanunu ətraf mühitin mühafizəsinin hüquqi, iqtisadi və sosial əsaslarını müəyyən edir, bu qanunun məqsədi isə ekoloji tarazlığın qorunması, təbii ekosistemlərə təsir edən zərərli fəaliyyətlərin qarşısının alınması, bioloji müxtəlifliyin qorunması və resursların səmərəli istifadəsinin təşkil edilməsidir ("Ətraf mühitin mühafizəsi haqqında"). Beləliklə, bu yanaşma cəmiyyətin təbiət ilə qarşılıqlı əlaqəsinin tənzimlənməsini təmin etməklə, ətraf mühitin keyfiyyətinin artırılmasına yönəlmişdir. Qanun, dövlətin ətraf mühitin mühafizəsi sahəsində hüquqlarını geniş şəkildə müəyyən edir; bu, dövlət siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsi və onun həyata keçirilməsi üçün strateji tədbirlərin hazırlanmasını əhatə edir, bu da dövlətin ekoloji problemlərə qarşı mübarizəsinin planlaşdırılmasında mühüm rol oynayır. Dövlət, ətraf mühitin mühafizəsi sahəsində təsərrüfat və digər fəaliyyətlərin ekoloji tarazlığa olan keyfiyyət normativlərini işləyib hazırlamaq və təsdiq etmə qaydalarını müəyyən etmək hüququna malikdir, beləliklə, ekosistemlərin sağlamlığını qorumaq üçün müvafiq standartların tətbiqini təmin edir. Eyni zamanda dövlət ətraf mühitin mühafizəsinin dövlət fondları haqqında əsasnamələri təsdiq edir; bu fondlar isə ətraf mühitin qorunmasına yönəlmiş resursların toplanmasını və istifadəsini təmin edir.

Dövlət, təbii resursların istifadəyə verilməsi ilə bağlı qərarlar qəbul edərək, onların limitlərini və kvotalarını müəyyən edir; bu isə resursların davamlı istifadəsini və ekosistemlərin qorunmasını təmin etmək məqsədini güdür. Həmçinin təbiətdən istifadə edən hüquqi və fiziki şəxslərə lazımi icazələrin verilməsi üçün təbiətdən istifadə formalarının siyahısını və bu icazələrin verilməsi qaydalarını təsdiq edir. Dövlətin ətraf mühitin mühafizəsi sahəsindəki vəzifələri isə ekoloji tarazlığın qorunması üçün proqramların hazırlanması, dövlət ekoloji ekspertizasının təşkili və ətraf mühitin mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsini əhatə edir; bu, dövlətin ekoloji təhlükəsizliyini təmin etməsi üçün vacibdir.

Bununla yanaşı, dövlət, nadir və yox olmaq təhlükəsi ilə üzləşən heyvan və bitki növlərinin kadastrını apararaq "Qırmızı kitab"ı nəşr edir; bu kitab, mühafizə olunması zəruri olan növləri müəyyən edir və onların qorunması üçün tədbirlər görür. Vətəndaşların ətraf mühitin mühafizəsindəki hüquqları da qanunla təmin edilir; hər bir vətəndaş, həyatı və sağlamlığı üçün əlverişli ətraf mühitin olması və onun vəziyyəti ilə bağlı dəqiq məlumat almaq hüququna malikdir. Eyni zamanda ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyin pozulması nəticəsində sağlamlığa və əmlaka vurulan zərərin əvəzini almaq hüququ tanınır; bu hüquqlar, insanların ətraf mühitin mühafizəsində aktiv iştirakını təmin edir. Azərbaycan Respublikasında ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqi sistemi yaradılır; bu sistem, ətraf mühitin mühafizəsi və təbiətdən istifadənin idarə olunmasını təmin edir.

Nəticə etibarilə, Azərbaycan Respublikasının ətraf mühitin mühafizəsi qanunu, ekoloji tarazlığın qorunması, resursların səmərəli istifadəsi və vətəndaşların hüquqlarının təmin olunması məqsədini güdür; bu qanun, həm dövlətin, həm də cəmiyyətin birgə əməkdaşlığı ilə təbiətin qorunmasına yönəlmiş kompleks bir yanaşmanı əks etdirir.

## Nəticə

Ətraf mühit hüququ, insan fəaliyyətinin ekosistemlərə olan təsirlərini tənzimləyən və mühafizə edən hüquq sahəsi olaraq, müasir cəmiyyətin qarşılaşdığı ekoloji problemlərin həlli üçün kritik əhəmiyyət kəsb edir. Bu hüquq sahəsi, yalnız ətraf mühitin qorunmasını deyil, həm də nəsillərarası bərabərlik, ekoloji ədalət və insan sağlamlığının müdafiəsini təmin etməyə yönəlmişdir.

Dövlətin ətraf mühitin mühafizəsi sahəsindəki öhdəlikləri, qanunvericilik çərçivəsində müəyyən edilmiş standartlarla dəstəklənir və ekosistemlərin sağlamlığının qorunmasına xidmət edir. Eyni zamanda beynəlxalq hüquq çərçivəsində qəbul olunan konvensiyalar və protokollar, qlobal miqyasda ətraf mühitin qorunmasını təmin etmək üçün əsas prinsipləri müəyyən edir.

Nəticə etibarilə, ətraf mühit hüququ, yalnız qanunvericilikdən ibarət olmayıb, həm də cəmiyyətin ekoloji məsələlərə qarşı məsuliyyətini artırmaq üçün bir vasitə kimi çıxış edir. Bu sahənin inkişafı, insanın təbiətlə olan münasibətini daha da dərinləşdirmək və gələcək nəsillər üçün

sağlam bir mühitin qorunmasını təmin etmək məqsədini güdür. Ətraf mühitin mühafizəsi, bütün bəşəriyyətin rifahı üçün vacibdir və bu yolda atılacaq addımlar, yalnız hüquqi çərçivələrlə deyil, eyni zamanda cəmiyyətin hər bir üzvünün fəal iştirakı ilə mümkün olacaqdır.

## Ədəbiyyat

1. *Azərbaycan Respublikasının Konstitusiyası*. https://e-qanun.az/framework/897
2. *Ətraf mühitin mühafizəsi haqqında.* https://e-qanun.az/framework/3852
3. Birnie, P., Boyle, A., & Redgwell, C. (2009). *International Law and the Environment.* 3rd ed. Oxford University Press.
4. Helle Tegner Anker & Birgitte Egelund Olsenl. (2018). *Sustainable Management of Natural Resources.* Intersentia.
5. Philippe Sands & Paolo Galizzi. (2004). *Documents in International Environmental Law.* Cambridge University Press.
6. Pierre-Marie Dupuy & Jorge E. Viñuales. (2018). *International Environmental Law.* Cambridge University Press.
7. Richard Lazarus. (2004). *The Making of Environmental Law.* Harvard University Press.
8. *UNESCO World Heritage Convention*. https://jncc.gov.uk/our-work/unesco-world-heritage-convention/

Daxil oldu: 19.09.2024
Baxışa göndərildi: 07.10.2024
Təsdiq edildi: 16.11.2024
Çap olundu: 30.11.2024

https://doi.org/10.36719/2706-6185/41/84-88

**Pərvanə Qasımova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
aamrahli@mail.ru
https://orcid.org/0000-01234-5657-8898

# Folklor janrlarının mövzusu

## Xülasə

Folklorun həyati məzmununu xalqın həyat gerçəklikləri təşkil etməkdədir. Yuxarıda da qeyd olunduğu kimi, insan həyatı beşikdən məzara qədər folklorla əlaqəlidir. Bu əlaqə dolayı deyil, birbaşadır. Başqa deyilişlə, folklorun insan həyatındakı situasiyalarla sıx bağlıdır və onun üzvi bir hissəsidir. Beşik başında layla çalınır, məzar başında ağı deyilir; dünyaya gələn də, dünyadan gedən də oxşanır, əzizlənir. Həyatı və ölümü birləşdirən belə ümumilik, xalqın yaradıcılığında xalqın vəhdət fəlsəfəsi kimi seçilir.

Folklor mövzularını həyatdan almışdır. Daha doğrusu, folklor janrlarının mövzu əsası həyat hadisələri üzərində yaranmışdır. Əski mədəniyyətdə sıx-sıx ritual hərəkətlərini müşayiət edən folklor nümunələri tədricən ondan ayrılır, mərasim mənşəyindən qopduqdan sonra mərasim mənasını itirir. Amma yenə də əski təntənəsi ilə olmasa da, başlanğıcda bağlı olduğu həyat ritmlərinin müəyyən bir situasiyası ilə əlaqəsini kəsmədən yaşamağa davam edir. Bir qisim folklor nümunələri də artıq arxiv materialı kimi qorunur və ya muzey eksponatına çevrilərək sərgilənir. Məqalədə folklor qədim mədəniyyət göstəricisi kimi araşdırılaraq təhlilə cəlb edilir.

***Açar sözlər:*** *folklor, mədəniyyət, qədim, xalq, yaradıcılıq, janr, mövzu*

**Parvana Gasimova**
Azerbaijan State Pedagogical University
aamrahli@mail.ru
https://orcid.org/0000-01234-5657-8898

# The Subject of Folklore Genres

## Abstract

The vital content of folklore is formed by the realities of people's lives. As mentioned above, human life is related to folklore from the cradle to the grave. This connection is not indirect, but direct. In other words, folklore is closely connected with situations in human life and is an organic part of it. A lullaby is played at the cradle, a lament is said at the grave; both those who come into the world and those who leave the world are caressed and cherished. Such a commonality that unites life and death stands out as the philosophy of unity of the people in the creativity of the people.

Folklore took its themes from life. More precisely, the thematic basis of folklore genres was formed on life events. Folklore examples that accompanied dense ritual actions in the old culture gradually separated from it, and after breaking away from their ceremonial origins, they lost their ceremonial meaning. But still, although not with their old solemnity, they continue to live without severing their connection with a certain situation of the rhythms of life with which they were initially connected. Some folklore examples are now preserved as archive material or are exhibited as museum exhibits. The article examines and analyzes folklore as an indicator of ancient culture.

***Keywords:*** *folklore, culture, ancient, people, creativity, genre, theme*

## Giriş

Folklorun ideya mahiyyətini xalqın Tanrıya, təbiətə, cəmiyyətə və insana olan münasibətlərinin məcmusu təşkil etməkdədir. Bu münasibətlərdə ictimai həyat hadisələri insanların zəngin həyat

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

təcrübəsi baxımından təcəssüm etdirilir. Belə zəngin həyat təcrübəsi tarixi hadisələri, ailə münasibətlərini, insanın mənəvi fəaliyyət xüsusiyyətini dərk etməyə, xalqa öz idealları uğrunda çalışmağa və mübarizə aparmağa yardım edir, yüksək əxlaqi keyfiyyətlər tərbiyə edir.

**Tədqiqat**

Folklor xalq həyatının mühüm məsələlərinin dərk olunmasına, onların doğru qavranılmasına yardım edərək özündə tərəqqipərvər idealları, xalqın mücadiləsini, onların fəlsəfəsini, ictimai, dini və əxlaqi görüşlərini ifadə edir. Beləliklə, folklorda xalqın mənəvi həyatı bütün çalarları ilə əks olunur. Burada daha çox hadisələrin dəyərləndirilməsi və qəhrəmanların davranışı önəm daşımaqdadır. Folklor üçün personajların hərəkətlərinin aydın şəkildə müsbət və mənfi olaraq dəyərləndirlməsi xarakterikdir. Xalq yaradıcılığındakı qəhrəmanlar xalqın qəhrəman ideallarıdır. Mənfisi xalqın nəzərində ən mənfur olan insan, müsbəti isə müsbət qəhrəman idealıdır (Abbaslı, 2004, s. 686-706). Xalq qəhrəmanlıq haqqında bütün xəyal və təsəvvürlərini onun şəxsinə köçürür. Xalq qəhrəmanı yenilməzdir və onun həll edə bilməyəcəyi bir məsələ yoxdur. Xalq özünün bütün bilik və bacarığını, təcrübədə qazandığı biliklərini, xəyal və fantaziyalarını öz qəhrəmanını idealizə etmək üçün səfərbər edir və onu maksimum səviyyədə təqdim edir. Əfsanədə “ölüm haqdır” hökmünün təsdiqi üçün İsgəndəri Zülmətə qədər aparır, nağılda çarəsizliyə çarə tapmaq üçün sehrli almanı ağ divin bağından gətirdir, dastanda Basat Oğuz elini xilas etmək üçün qeyri-adi qüvvəylə qarşılaşır, böyük bir bəlanın simvolu olan Təpəgözü öldürür, Koroğlu gücsüzün intiqamını güclüdə qoymur, varlıdan alır, yoxsula paylayır, xalqın ədalət idealını xalq təsəvvürünə görə gerçəkləşdirir. Xalq öz düşüncəsinə görə sosial harmoniyanı təmin etməyin yollarını real vasitələrlə tapa bilməyənədə, möcüzəli və ya sehrli vasitələrdən istifadə edərək məqsədinə çatır. Bütün hallarda məsələ mənəvi səviyyədə həll olunur. Gerçəklikdə çözümü çətin olan problem folklorda öz asan həllini tapır. Çünki burada xalqın xəyal gücünün tam potensialı səfərbər olunmuş və işlək vəziyyətə gətirilmişdir (Akalın, 2005, s. 290).

Folklorun xəlqiliyi folklorun sosial təbiəti və ideya məzmun xüsusiyyətlərindən bəhs etdiyimiz yerdə göstərilmişdir.

Buraya onu əlavə edək ki, folklorun xəlqiliyinin əsası onun mahiyyətcə tərəqqipərvər ideya daşımasıdır. Folklorda müxtəlif şəkildə təzahür edən xəlqilik onun məzmun və forma xüsusiyyətlərini və hətta əsərin yaradılması prosesinin özünü və xalq içində mövcudluğu xüsusiyyətlərini müəyyənləşdirir. Buraya xəlqi bir nikbinlik də əlavə edilməlidir ki, o da xalq ruhunun ayrılmaz hissəsi kimi folklorda və folklor vasitəsilə xalqın ruhi tarazlığını, psixoloji komfortu və mənəvi harmoniyanı təmin edir.

Kollektiv yaradıcılıq hadisəsi olması folklorun əsas xüsusiyyətlərindən biridir. İlk öncə ona görə ki, folklorun yaranması, mənşəyi ibtidai mədəniyyət dövrünün kollektiv yaradıcılıq hadisəsi ilə əlaqəlidir. Yəni kollektivlik folklorun mənşəyində var. Mərasim mənşəli folklor da cəmiyyət üçün ümumi, ortaq yaradıcılıq hadisəsi kimi səciyyələnir. Bəzi primitiv yanaşmalarda olduğu kimi folklorun sinxron kollektiv yaradılış olaraq anlaşılması yanlışdır. Çünki folklorda kollektiv yaradılış prosesi diaxron hadisədir və zamanla baş verir. Folklor nümunələri ağızdan-ağıza keçir, cilalanır, yayılır. Bununla yanaşı bir sıra peşə, sənət sahələri ilə bağlı sosial qrupların yaradıcılığı da kollektiv xarakterlidir. Bu mənada folklorun yaranmasında və ya yenidən yaradılmasında kollektiv, müxtəlif sosial qruplar və ya xalq iştirak edir (Çobanoğlu, 2002, s. 54).

Ənənəvi yaradıcılıq hadisəsi olması da folklorun əsas səciyyəvi xüsusiyyətlərindən biridir. Ənənəvilik folklor fasiləsizliyi hadisəsidir. Ənənəvilik təhkiyə olunan mətnin nisbi davamlılığı, ifanın və ifa xarakterinin dəyişmədən nəsildən nəslə ötürülməsi, əsrlər ərzində yaranmış müəyyən süjeti və qəhrəmanları, forma və ifadə vasitələri olan əsərlərin saxlanmasıdır. Ənənəvilik də kollektiv yaradıcılıq kimi təkcə şifahi xalq yaradıcılığına aid deyil. O eyni zamanda digər xalq sənətlərinə (musiqi, rəqs, oyma sənəti, tikmə sənəti, toxuma sənəti və s.) də aiddir.

Ənənəviliyin sosial-tarixi və mədəni əsasları vardır:

Birincisi, ibtidai icma mədəniyyətindəki birgə yaşayışla bağlı olmasıdır. İkincisi, xalq yaradıcılığında real gerçəkliyin əks olunması, folklor nümunələrinin insan ağlının və düşüncəsinin məhsulu olması ilə əlaqəlidir. Çünki eyni etnik-mədəni mühitdə yaşayış, düşüncə və dil ümumiliyi vardır. Bu da ənənəviliyin yaranmasını şərtləndirir. Üçüncüsü, xalq yaradıcılığının özündə xalq

estetikasının prinsip və kateqoriyalarını ehtiva etməsidir. Başqa deyilişlə, xalqın bədii zövqü ənənəviliyin əsaslarından biri olaraq qəbul edilməkdədir. Çünki xalqın estetik zövqü əsrlər boyu formalaşır və əsrlər boyu da davam edir.

Dördüncüsü, folklorun xlaq tərəfindən kollektiv olaraq yaradılmasdır. Belə nümunələrə atalar sözləri, bayatılar, əfsanələr, nağıllar və digər anonim xalq yaradıcılığı janrları daxildir. Bu nümunələr kollektiv yaradıldığı üçün, kollektiv olaraq da yaşadılır. Beləliklə, ənənəvilik təmin edilmiş olur. Beşincisi, folkorun şifahiliyi ilə bağlıdır. Şifahi mədəniyyət xalq yaradıcılığı nümunələrinin nəsildən nəslə keçməsinin yollarını tənzimləyir. Belə ki, xüsusi söyləyici tipləri, boy söyləyiciləri-ozanlar, dastan söyləyiciləri-aşıqlar, nağıl söyləyiciləri-naqallar, rəvayət söyləyiciləri-rəvilər, ağı söyləyiciləri-ağıçılar və s. olmuşdur ki, bunlar xalq yaradıcılığı nümunələrini öz yaddaşalarında maksimum dərəcədə mühafizə etmiş və onları söyləyərək yayılmasını və ötürülməsini təmin etmişlər. Ənənəviliyin təmin olunmasında peşəkar folklor söyləyicilərinin rolu böyük olmuşdur (Gökdemir, 2003, s. 89).

Filologiyada, xüsusilə də, linqivistikada bu tipli dəyişkənliyə relevantlıq deyilir. Folklorşünaslıqda isə bu dəyişkənlik variantlılıq kimi səciyyələndirilə bilər. Ənənəvilik folklorun fasiləsizliyi və söyləmənin sabitliyi kimi anlaşılırsa, dəyişkənlik buna əks olan bir proses kimi dəyərləndirilə bilər. Amma, dəyişkənlik və sabitlik, ya da onları modelləşdirən mədəniyyət qanunauyğuluqları vahid bir sistem təşkil etməkdədir. Fasiləsiz davam edən ənənəvilik, fasiləsiz davam edən dəyişkənliklə ayrılmaz şəkildə fəaliyyət göstərir. Dəyişkənlik müxtəlif səviyyəli variantlar törədə bilər. Ənənəvilik də mühitdən, məkandan, zamandan və şəraitdən asılı olaraq müəyyən dəyişikliklərlə qarşılaşa bilər. Bu zaman mövcud ənənəni bilən peşəkar söyləyici tipləri dəyişkənliyin ciddi dərəcəyə qədər getməsinə mane olur, onu öz ənənəvi məcrasına qaytarırlar. İstər müxtəlif dərəcəli relevantlıqda, istərsə də qeyri- mütəşəkkil mühafizə olunmuş ənənəvilikdə sabit olan invariant struktur saxlanılır. Variantlaşma prosesində isə mövcud motivlər və söyləyici yaddaşının həcmi və improvizasiya imkanları ciddi rol oynayır. Amma bütün hallarda ənənəvi mətnin kod, məlumat və sxem səviyyələrindən biri saxlanılır və ənənə ilə əlaqəsini əldən vermir (Əfəndiyev, 1992).

Folklorun səciyyəvi xüsusiyyətlərindən biri də anonimlikdir. Bu xüsusiyyət folklorun bir çox janrlaına aiddir. Amma, folklor nümunələrinin müəllifinin olub-olmaması mənasında onları iki yerə ayırmaq zərurəti yaranır. Xalq yaradıcılığının əksər nümunələri anonimdir. Onların müəllifi xalqdır.Ona görə də Azərbaycan xalq yaradıcılığı, Azərbaycan xalq mahnıları, Azərbaycan xalq musiqisi, Azərbaycan xalq rəqsləri və s. deyilir. Xüsusilə, orta əsrlərdə yaranmış aşıq yaradıcılığı nümunələrinin hamısını anonim hesab etmək olmaz. Amma, bu xüsusiyyət aşıq yaradıcılığını şifahi mədəniyyət hadisəsi olmaqdan məhrum etmir və onu folklor mədəniyyətinin hüdudlarından kənara çıxarmır. Çünki, ənənəvilik, şifahilik, kollektivlik, variantlılıq və ya dəyişkənlik kimi xüsusiyyətlər aşıq sənətində də müxtəlif səviyyələrdə müşahidə olunur (Xəlil, 2006).

Folklorun bədii sistemi ilk öncə onun janrları ilə xarakterizə olunur. Çünki bu janrların hər birini xalq yaradıb və onlar folklorun bədii sisteminin əsas strukturunu təşkil etməkdədir. Atalar sözü, əfsanə, bayatı, nağıl, dastan, epik və lirik mətnlərin geniş şəbəkəsi bu sistemin nə qədər mürəkkəb və mütəşəkkil olduğunu göstərməkdədir. Bu janrların bir çoxu yazılı ədəbiyyatda yoxdur. Yazılı ədəbiyyat bu janrlardan bəzilərini örnək götürərək onun qəlibləri üzərində əsərlər yaratmışdır. Buraya əfsanə, nağıl, dastan kimi janrlar daxildir. Bayatı şeiri üstündə şeir yazan şairlər də vardır. Əlbəttə, burada istifadə olunan qəliblər, modellər, bədii sistem xalq yaradıcılığına məxsusdur. Ənənəvi qəlibdə olan mətnin içindəki sözlər isə dəyişə bilər (Dorson, 1988, s. 56).

Folklorun bədii sistemində obrazların, motivlərin və süjetlərin özünəməxsus xüsusiyyətləri vardır. İlk öncə, burada bədii kompozisiya vahidləri və mətnin struktur elementləri sabitdir və ənənəvidir. Folklor mətnin morfologiyasında formullaşmış strukturlar iştirak edir. Onlar bir-biri ilə zəncirlənmiş şəkildədir, formullar mətndə təkrarlanır, xəyali ünsürlər geniş işlənir, sehrli və möcüzəli vasitələrdən istifadə olunur, motivlər və süjetlər ənənəvidir. Buraya folklor mətnlərinin şifahi yaranması, şifahi yaşaması, şifahi yayılması və ötürülməsi də əlavə edilməlidir. Çünki folklorun bədii sistemində şifahiliyin də yeri vardır. Belə ki, mətndəki sabit və təkrarlanan formullar şifahiliyin göstəricisidir ki, uzun zaman boyunca mətnin sxemini formalaşdırmışdır.

Folklorun ictimai dəyəri onun idraki, ideya-tərbiyəvi və estetik əhəmiyyətindən ibarətdir. Xalq yaradıcılığının ictimai dəyərini təşkil edən idrak, ideya-tərbiyəvilik və estetik cəhətələr bir-biri ilə sıx şəkildə bağlıdır.

Folklorun idraki əhəmiyyəti hər şeydən öncə real həyat hadisələrinin, xalqın həyat tərzinin xüsusiyyətlərini əks etdirməsində təzahür edir. Sənətdə əks etdirilən həyat həqiqəti ictimai münasibətlər, xalqın əmək və məişəti, yüksək əxlaqi keyfiyyətlər, ölkənin təbiəti və s. haqqında zəngin bilik verir.

Folklorun idraki əhəmiyyətini folklor əsərlərindəki obraz, motiv və süjetlərin insan xarakterlərini, həyat hadisələrini geniş ümumiləşdirməsi və tipikləşdirməsi daha da artırır. Folklorun müxtəlif janrlarının hər biri öz təyinatına uyğun olaraq xalqın həyatında önəmli olan bir mühüm məsələni modelləşdirir. Layla, yatızdırılan uşağa da, layla çalan anaya da ruhi-psixoloji və mənəvi rahatlıq gətirir. Bayatı ayrılıq və həsrət hissini rahatladır, duyğuları səfərbər edərək ağrılı bir mərhələyə keçməsinin qarşısını alır (Boratav, 1973, s. 240-242).

Folklor obrazları çox ümumi və çox tipikdir. Amma bu ümumilik mücərrədlik yaratmadığı kimi, tipiklik də çox fərdilik formalaşdırmağa xidmət etmir. Folklordakı ümumi və tipik obraz xalqın öz obrazıdır. Həmin obrazda xalqın hər bir nümayəndəsinin xüsusiyyəti ümuləşdirilmiş və tipik bir obraza çevrilmişdir. Buradakı insan obrazlarının içərisində yaxşı və pis insanlar var, müsbət və mənfi qəhrəmanlar var. Sehrli personajlar və möcüzəli vasitələr də mənfi-müsbət qütblərinə ayrılırlar. Bu binar oppozisiya (ziddiyət cütlüyü) mifdə xaos-kosmos, ritulda profan-sakral, folklorda isə mənfi-müsbət münasibətləri modelində özünü göstərir (Abbaslı, 2009, s. 78).

Folklorda xalq obrazı əsas və vahid obrazdır. Folklor personajları, insanlar, heyvanlar, quşlar, ağaclar və başqa təbiət hadisələri və digər vasitələr hamısı xalq obrazının tamlığına xidmət edən ünsürlərdir. Xalq obrazı sintaqmatik və paradiqmatik münasibətlər sistemində aydınlaşdırıla və dərk oluna bilər.

Folklorun epik əsərlərində görünən əsas qəhrəmanlar (şah, şahzadə, vəzir, vəkil, cəllad, bağban, ovçu, tacir, sənətkar, zərgər, kəndli, varlı, yoxsul, rəiyyət, qoca, qarı, gənc, qız, oğlan, ağıllı, səfeh, zirəng, tənbəl, sadəlövh, hiyləgər, zalım, mərhəmətli, ədalətli və s.) və qəhərmana aid xüsusiyyətlər xalqın milli özünəməxsusuluğunu göstərən əsas əlamətlərdir və ya başqa deyilişlə, milli mental xüsusiyyətləridir. Folklor əsərləri bütün sosial təbəqələri təcəssüm etdirir. Burada tam tarixi-mədəni epoxalar və laylar da öz əksini tapa bilir. Məsələn, Şah İsmayıl məhəbbət dastanının qəhrəmanı, Şah Abbas əfsanə və nağıl, Xoca Nəsrəddin lətifə qəhrəmanı olur. Bu qəhrəmanların folklora daxil olması, dövrün motivlənməsi elə həmin mətnlərin özündə izah olunur. Beləliklə, folklorda düşüncəni narahat edən izahsız bir məsələ qalmır. Ona görə də folklorda dərk olunan gerçəklik xalqın düşündüyü həqiqətdir. Xalqın xəyal gücünün maksimum imkanları ilə yaradılan sənətdəki həqiqət onun bütün arzu və istəklərinin həyata keçməsinin, nikbin nəticələrin alınmasının, xoşbəxt sonluğun, sosial harmoniyanın təmin olunmasının əsas ideya-mənəvi qaynağı kimi seçilir (Nəbiyev, 2002, s. 19-43).

Xalq yaradıcılığı mütərəqqi ideyalardan, vətənə məhəbbətdən, sülhsevərlikdən ilham alır. Onun yaranışında yalnız pozitiv, mütləq müsbət, maksimum optimist düşüncə iştirak edir. Bundan yaranan əsər də sevgi, gözəllik, nikbinlik, haqq və ədalətin qələbəsi ilə dolu olur.

Oğuz yurdu, Oğuz eli, Qazlıq dağı, Gökçə dəniz, Şirvan, Naxçıvan, Ağsu, Qarasu, Kür, Araz, Qarabağ, Aran, Qaradağ, Baba dağ, Şah dağ, Dəmirqapı Dərbənd və s. folklorda vətən obrazını, Azərbaycanın təbiətini əks etdirir. Bu da vətənə təbii gözəllik fəlsəfi mənası qazandırır və onun estetik dərkini təmin edir.

Folklor xalqın milli-mədəni görüşlərini, fəlsəfi baxışlarını, mənəvi dünyasını ifadə edir. Bütün bunlarda folklorun ideya-tərbiyəvi əhəmiyyəti aşkarlana bilir.

## Nəticə

Folklorun estetik əhəmiyyəti ilk öncə onunla şərtlənir ki, o, dil, fikir və bədii düşüncənin əsasında xalqın yaratdığı mükəmməl bir söz sənətidir. Folklor xəyal, təxəyyül, fantaziya və simvolikadan sənətkarlıqla istifadə edərək gerçəkliyi dolayı yolla motivləndirir və onu poetikləşdirir. Bu poetikləşdirmə, sənət yaratma prosesində əsas vəzifəni xalqın bədii zövqü yerinə yetririr. Yəni

xalqın bədii zövqü folklorun estetik ölçülərini müəyyənləşdirən və modelləşdirən əsas faktor rolunda çıxış edir. Folklor formaları əsrlərlə xalq sənətkarları tərəfindən cilalanıb və estetik ölçülərini sabitləşdirib. Ona görə də folklor estetik hissi, gözəllik hissini, dil, ritm və forma gözəlliyi duyğusunu inkişaf etdirir. Folklorun estetik gücü ədəbiyyat, musiqi, teatr və s. kimi sənət növlərinin inkişafında böyük əhəmiyyət daşıyır. Nizami kimi dahi şairin əsasərlərinin əsas qaynağı folklordur. Füzulinin yaradıcılığında folklordan yaradıcı şəkildə istifadə olunur və bu ədəbi ənənə şəklini alır və müasir dövrdə də davam edir. Müasir ədəbiyyatda Sabirin, Cəlilin, Cəfərin, Cavidin, Səmədin, Mir Cəlalın, Bəxtiyarın və başqa onlarla ədibin yaradıcılığında folklor elementləri, motivləri bu və ya başqa şəkildə işlənmişdir. Folklorun az və ya çox dərəcədə ədəbi əsərlərə daxil olması ilk öncə onları zəruri estetik minimumun əsas nüvəsi olan xalq ruhu ilə təmin etmiş olur. Çünki xalq ruhu folklorun hər bir zərrəsində var. Bu zərrələrdən ədəbi əsərdə istifadə olunduqca o əsərlər də xalq ruhunun zərrələri ilə zənginləşərək bir tərəfdən hazır estetik elementlər alır, digər tərəfdən də onları yazıçı düşüncəsi ilə açır, inkişaf imkanlarını aydınlaşdırır, əlavələr edir, yeni keyfiyyət qazandırır və yeni bir estetik aktı, bədii sənət faktını gerçəkləşdirir.

## Ədəbiyyat

1. Abbaslı, İ. (2009). *Folklorşünaslıq. Azərbaycan ədəbiyyatı tarixi.* 6 cilddə I cild. Elm.
2. Abbaslı, İ. (2004). *Folklorşünaslıq. Azərbaycan ədəbiyyatı tarixi*. 6 cilddə I cild. Elm.
3. Akalın, S. (2005). *Alkışlar Kargışlar*. Çapar yayın evi.
4. Boratav, P. N. (1973). *Türk Elegiyalarının funksiyaları, mövzuları və formaları, Sinan İlliyi.*
5. Çobanoğlu, Ö. (2002). *Folklor nəzəriyyələri və tədqiqat üsulları tarixinə giriş*. Akçağ.
6. Dorson, M. Richard. (1988). *American Foklore*. The University of Chicago Press.
7. Əfəndiyev, P. (1992). *Azərbaycan şifahi xalq ədəbiyyatı* (dərslik).
8. Gökdemir Gönül. (2003). *Türk mifologiyasında*. And-And Kurumu.
9. Xəlil, A. (2006). *Əski türk savlarının semiotikası*. Səda.
10. Nəbiyev, A. (2002). *Azərbaycan xalq ədəbiyyatı* (dərslik). I hissə. Turan.

Daxil oldu: 20.09.2024
Baxışa göndərildi: 05.10.2024
Təsdiq edildi: 02.11.2024
Çap olundu: 30.11.2024

https://doi.org/10.36719/2706-6185/41/89-92

**Nazilə Sadiqova**
Naxçıvan Dövlət Universiteti
oruceliyevanazilə@gmail.com

# Əvəzliklər mətnin formal vahidlərindən biri kimi

**Xülasə**

Bu tədqiqatda əvəzliklərin mətn daxilində formal vahidlər kimi roluna, onların sintaktik və semantik səviyyələrdəki funksiyalarına diqqət yetirilmişdir. Əvəzliklər, xüsusilə işarə və nisbət əvəzlikləri, mətnin təkrarsız və axıcı şəkildə qurulmasına, məna əlaqələrinin qorunmasına, və mətnlərarası əlaqələrin təmin edilməsinə imkan verir. İşarə əvəzliklərinin ("this," "that," "these," "those") və nisbət əvəzliklərinin ("who," "which," "that") mətnin məntiqi ardıcıllığını və struktur bütövlüyünü qorumaqdakı rolu vurğulanmışdır. İşarə əvəzliklərinin tərcümədəki əhəmiyyəti də araşdırılmış, onların düzgün interpretasiyasının mətnin anlamını qorumaqda vacib olduğu qeyd edilmişdir. Nəticələrə əsasən, əvəzliklər mətnin aydınlığına, məzmun inkişafına və funksional səviyyədə səlisliyə mühüm töhfə verir.

***Açar sözlər:*** *əvəzliklər, sintaktik funksiya, semantik funksiya, mətn, mətnlərarası əlaqə*

**Nazila Sadigova**
Nakhchivan State University
oruceliyevanazilə@gmail.com

# Pronouns as Formal Units of Text

**Abstract**

This study focuses on the role of pronouns as formal units within a text, emphasizing their syntactic and semantic functions. Pronouns, particularly demonstrative and relative pronouns, enable the construction of texts in a smooth and non-repetitive manner, preserving meaning relationships and facilitating intertextual connections. The role of demonstrative pronouns ("this," "that," "these," "those") and relative pronouns ("who," "which," "that") in maintaining logical coherence and structural integrity within a text is highlighted. Additionally, the importance of demonstrative pronouns in translation is analyzed, underscoring that their accurate interpretation is essential for preserving the text's intended meaning. Findings indicate that pronouns contribute significantly to text clarity, content development, and functional fluency.

***Keywords:*** *pronouns, syntactic function, semantic function, text, intertextual relations*

## Giriş

Əvəzliklər isimləri əvəz edərək cümlələrin təkrarlanmadan səlis və axıcı şəkildə qurulmasına imkan yaradır. Əvəzliklərin istifadəsi yalnız mətnin strukturunu daha mütəşəkkil və səlis etməklə kifayətlənmir, həm də mətnin anlamını qorumağa və müxtəlif cümlələr arasında məna əlaqələrini yaratmağa kömək edir. Bu baxımdan, əvəzliklər həm yazılı, həm də şifahi mətnlərdə mühüm funksiyaya malikdir. Onların vasitəsilə mətndəki semantik əlaqələr qorunur və cümlələrin təkrar edilməsinin qarşısı alınır. Əvəzliklərin istifadəsi həm də dilin iqtisadi istifadəsini təmin edərək mətni qısa və yığcam saxlayır.

**Tədqiqat**

**Əvəzliklərin mətnlərarası rolu**

Əvəzliklər yalnız mətnin daxilində deyil, həm də mətnlərarası əlaqələrin qurulmasında mühüm rol oynayır. Onların funksiyası mətnin bütövlüyünü qorumaq və məzmunun məntiqli şəkildə inkişafını təmin etməkdir. Xüsusilə işarə və nisbət əvəzlikləri mətnlərarası əlaqələrin qurulmasında ön plandadır. Bu əvəzliklər vasitəsilə mətnin əvvəlində təqdim olunan informasiya sonrakı cümlə və

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

ya paraqraflarda məntiqi şəkildə inkişaf etdirilir və bütövlük təmin olunur (Cooper, 1997, pp. 61-92).

**İşarə əvəzliklərinin (Demonstrative pronouns) mətnlərarası rolu**

İşarə əvəzlikləri ("this," "that," "these," "those") mətnin əvvəlində və ya ortasında verilən məlumatlara işarə edərək mətnin davamlılığını təmin edir. İşarə əvəzlikləri vasitəsilə mətn daxilində təkrardan qaçınaraq cümlələr arasında əlaqə yaradılır. Məsələn:

- *"The company launched a new product last year. **This** has significantly boosted their sales".*

Burada "this" əvəzliyi əvvəlki cümlədəki "a new product" məzmununa işarə edərək, mətnin ardıcıllığını və əlaqəliliyini qoruyur.

İşarə əvəzlikləri həmçinin mətnlərarası əlaqələrdə vacibdir, çünki onlar mövzu haqqında olan məlumatın hansı hissəsinə istinad edildiyini göstərir və bu, oxucuya mətnin ümumi strukturunu başa düşməyə kömək edir (Kukharenko, 2003).

**Nisbət əvəzliklərinin (Relative pronouns) mətnlərarası rolu.**

Nisbət əvəzlikləri ("who," "whom," "which," "that") cümlələr və ya mətn parçası arasında əlaqə quraraq, mətni daha geniş bir informasiya şəbəkəsi daxilində ardıcıl və məntiqli edir. Nisbət əvəzlikləri mətnin elementlərini əlaqələndirərək oxucunun məlumatı daha aydın başa düşməsini təmin edir. Məsələn:

- *"The researcher, **who** conducted the study, presented his findings at the conference".*

Burada "who" əvəzliyi mətnin əvvəlindəki "researcher" sözünə istinad edir və məlumatı genişləndirir, beləliklə, mətnin axıcılığı və bütövlüyü qorunur (Aitchison, 2003).

Nisbət əvəzlikləri mətn daxilindəki mövzu və obyektləri əlaqələndirərək məzmunun inkişafını təmin edir. Onlar mətnlərarası əlaqələrdə də mühüm rol oynayır, çünki əlavə məlumatların düzgün şəkildə mətnə daxil edilməsini və oxucuya verilən məlumatların məntiqi ardıcıllığını təmin edir.

Bu əvəzliklərin hər iki növü – işarə və nisbət əvəzlikləri – mətnin müxtəlif hissələrini birləşdirərək onun bütövlüyünü və davamlılığını qorumağa kömək edir. Bu funksiyalar mətnin daha anlaşılan, axıcı və əlaqəli olmasını təmin edir. Beləliklə, əvəzliklər həm mətnin daxilində, həm də mətnlər arasında əlaqə yaradır və bu, oxucunun məlumatı daha asan qavramasına kömək edir (Oshima-Takane, Takane, & Shultz, 1999, pp. 545-575).

**Müasir ingilis dilində işarə əvəzliklərinin istifadəsi**

**İşarə əvəzliklərinin funksional rolu**

İşarə əvəzlikləri ("this," "that," "these," "those") müasir ingilis dilində məna əlaqələrini qorumaq və mətnin strukturunu saxlamaq üçün geniş istifadə olunur. Bu əvəzliklər vasitəsilə nitqdə və yazıda mövzular arasında əlaqə qurulur, cümlələr arasındakı məntiqi ardıcıllıq təmin edilir. İşarə əvəzlikləri obyektləri, hadisələri və ya anlayışları müəyyən edir, onlara işarə edir və mətndə hər hansı bir detalı təkrarlamadan həmin elementlərə istinad edir. Bu da yazılı və şifahi mətnlərin qısa, aydın və anlaşılır olmasına kömək edir (McKee, 1992, pp. 21-54).

İşarə əvəzliklərinin ən mühüm funksiyalarından biri mətnin müxtəlif hissələri arasında keçid yaratmaq və məna əlaqələrini saxlamaqdır. Məsələn:

- **"This"** işarə əvəzliyi, yaxın və ya yeni təqdim edilmiş bir obyektə və ya hadisəyə işarə etmək üçün istifadə olunur:
- *"I just read an article about climate change. **This** is a topic that needs more attention".*

Burada "this" əvəzliyi əvvəlki cümlədə təqdim edilən "an article about climate change" məzmununa istinad edir.

- **"That"** isə uzaq və ya artıq danışılmış bir obyektə işarə etmək üçün istifadə olunur:
- *"We visited the museum last week. **That** was an unforgettable experience".*

Burada "that" əvvəlki hadisəyə, yəni "the museum visit"ə istinad edir.

- **"These"** və **"those"** işarə əvəzlikləri isə çoxluq ifadə edir və obyektlərin yaxınlıq və ya uzaqlıq mövqeyini bildirir.
- *"**These** are the reports I mentioned earlier".* (yaxın obyektlərə işarə)
- *"**Those** were the days we spent in the countryside".* (uzaq obyektlərə və ya vaxt kəsiminə işarə)

İşarə əvəzlikləri, bu funksional rolu ilə mətnlərdə obyektlər və hadisələr arasında əlaqə yaratmaq, təkrarlanmadan mövzunun inkişafını təmin etmək və məna ardıcıllığını qorumaqda əhəmiyyətli rol oynayır (Crystal, 2008).

**İşarə əvəzliklərinin tərcümədə rolu**

İşarə əvəzliklərinin tərcüməsi müxtəlif dillər arasında ciddi çətinliklər yarada bilər, çünki hər bir dilin öz kontekst və mədəni spesifikliyi var. Tərcümə zamanı işarə əvəzliklərinin düzgün istifadəsi mətnin semantik dəqiqliyini təmin edir və tərcümə prosesində onların funksional rolunun saxlanması vacibdir.

Müxtəlif dillərdə işarə əvəzlikləri ("this," "that," "these," "those") tərcümə edilərkən onların məna çalarlarına, obyektlərin yaxınlıq və uzaqlıq dərəcəsinə diqqət yetirmək lazımdır. Məsələn, Azərbaycan dilində "this" və "that" əvəzlikləri, müvafiq olaraq, "bu" və "o" kimi tərcümə olunur. Lakin işarə əvəzliklərinin yaxınlıq-uzaqlıq mənası tərcümədə tam saxlanılmasa, mətnin orijinal mənasında təhriflər yarana bilər (Kaiser, 2013, pp. 109-122):

- İngilis dilində:
  *"This book is very interesting".*
  Tərcümə: *"Bu kitab çox maraqlıdır".*
- İngilis dilində:
  *"That day was special".*
  Tərcümə: *"O gün xüsusi idi".*

Tərcümə zamanı işarə əvəzliklərinin düzgün interpretasiyası mətndəki obyektlərin və ya hadisələrin yaxınlıq və uzaqlıq kontekstinə uyğun olmalıdır. Bu, tərcümənin dəqiqliyini və mətnin məna bütövlüyünü qorumağa kömək edir. İşarə əvəzliklərinin semantik dəqiqliyi pozulmadan tərcümə edilməsi tərcümə prosesinin keyfiyyətinə və tərcümə edilən mətnin anlaşıqlı olmasına birbaşa təsir edir. Avtomatlaşdırılmış tərcümə sistemləri də bu əvəzlikləri dəqiq tərcümə etməkdə çətinlik çəkir, çünki onların məna əlaqəsi çox vaxt mətndəki digər kontekstual elementlərdən asılıdır. Bu sahədə təkmilləşdirilmiş tərcümə alqoritmlərinin inkişafı tərcümə prosesini daha dəqiq və effektiv edə bilər (Sinclair, 1991).

## Nəticə

Nəticədə, işarə əvəzliklərinin düzgün tərcüməsi həm dilin funksional aspektlərinə diqqət yetirilməsini tələb edir, həm də mətnin semantik dəqiqliyini və oxucuya anlaşılan məzmunun təqdim edilməsini təmin edir.

Bu tədqiqatın nəticələrinə əsasən, əvəzliklər mətn daxilində formal vahidlər kimi müxtəlif mühüm funksiyalar yerinə yetirir və dilin həm sintaktik, həm də semantik səviyyələrində əhəmiyyətli rol oynayır. Əvəzliklərin düzgün və məqsədyönlü istifadəsi mətnin aydınlığını, məntiqi ardıcıllığını və strukturunu təmin edir.

Xüsusilə işarə əvəzliklərinin məna əlaqələrinin qurulmasında və mətnin məzmununun inkişafında vacib rolu vurğulanmışdır. Tədqiqatda həmçinin işarə əvəzliklərinin tərcümədə necə işlədildiyi və onların məna bütövlüyünü qorumaqda oynadığı rol geniş təhlil olunmuşdur. Əvəzliklərin semantik və praqmatik funksiyaları müasir dilçilikdə onların əhəmiyyətini bir daha təsdiq edir.

## Ədəbiyyat

1. Aitchison, J. (2003*). Words in the Mind: An Introduction to the Mental Lexicon*. Blackwell Publishing.
2. Crystal, D. (2008). *A Dictionary of Linguistics and Phonetics*. Blackwell Publishing.
3. Cooper, R. (1997). *The interpretation of pronouns. In Selections from the third Groningen round table*. Brill.
4. Kukharenko, V. A. (2003). *A Book of Practice in Stylistics*. New book.
5. Kaiser, E. (2013). Looking beyond personal pronouns and beyond English: Typological and computational complexity in reference resolution. *Theoretical Linguistics*, 39(1-2), 109-122.

6. McKee, C. (1992). A comparison of pronouns and anaphors in Italian and English acquisition. *Language acquisition*, 2(1), 21-54.
7. Oshima-Takane, Y., Takane, Y., & Shultz, T. R. (1999). The learning of first and second person pronouns in English: Network models and analysis. *Journal of Child Language*, 26(3), 545-575.
8. Sinclair, J. (1991). *Corpus, Concordance, Collocation*. Oxford University Press.

Daxil oldu: 11.09.2024
Baxışa göndərildi: 25.09.2024
Təsdiq edildi: 05.11.2024
Çap olundu: 30.11.2024

https://doi.org/10.36719/2706-6185/41/93-97

**Püstə Əhmədova**
Naxçıvan Dövlət Universiteti
pusteehmedova@yahoo.com
https://orcid.org/0009-0005-7857-4359

# Azərbaycan poeziyasında Məmməd Araz obrazı

**Xülasə**

Məmməd Araz şeirlərindəki incə duyğular, kədər, sevgi və ümid, insanın həyatda qarşılaşdığı çətinlikləri poetik dillə əks etdirir. Onun obrazı, yalnız bir şairin deyil, həm də insan psixologiyasını dərk edən bir fəlsəfi insan obrazı kimidir. Məmməd Araza həsr olunan əsərlərdə, onun vətən sevgisini daha da gücləndirir. Məmməd Arazın obrazı milli və insan ruhunun dərinliyini birləşdirən bir simadır. Onun yaradıcılığı, yalnız ədəbiyyat sahəsində deyil, eyni zamanda Azərbaycan mədəniyyətinin formalaşmasında da mühüm rol oynayır. Şairin vətənə olan sevgisi və insanlığa dair dərin düşüncələri ilə bugünkü nəsillərə ilham verməyə davam edir. Məmməd Araz Azərbaycan poeziyasının parlaq simalarından biri olaraq, öz yaradıcılığı ilə bir çox şairin və yazıçıların ilham mənbəyi olmuşdur. Onun xatirəsi ədəbiyyatımızda hələ də yaşayır və bir çox şair, onun ruhunu yaşatmaq üçün ona həsr olunmuş şeirlər yazmışdır.

***Açar sözlər:*** *Azərbaycan ədəbiyyatı, Məmməd Araz, obraz, əsər, poeziya, yaradıcılıq*

**Pusta Ahmadova**
Nakhchivan State University
pusteehmedova@yahoo.com
https://orcid.org/0009-0005-7857-4359

# The Image of Mammad Araz in Azerbaijani Poetry

**Abstract**

The gentle emotions, some love and hope in Mammad Araz's poems reflect the events in a person's life in a poetic language. His image is not only that of a poet, but also that of a philosopher who understands human psychology. In the works dedicated to Mammad Araz, it strengthens his love for the homeland. The image of Mammad Araz is a face that combines the depth of the national and human spirit. His creativity plays an important role not only in the field of literature, but also in the formation of Azerbaijani culture. The poet's deep thoughts about humanity continue to inspire today's generations. Mammad Araz, as one of the bright figures of Azerbaijani poetry, has been a source of inspiration for many poets and writers with his creativity. His memory lives on in our literature and many poets wrote poems dedicated to him to keep his spirit alive.

***Keywords:*** *Azerbaijani literature, Mammad Araz, image, work, poetry, creativity*

## Giriş

Azərbaycan ədəbiyyatında Əfzələddin Xaqanidən başlayaraq, Nizami Gəncəvinin, Məhsəti Gəncəvinin, Şah İsmayıl Xətainin, Məhəmməd Füzulinin, İmaddin Nəsiminin, Molla Pənah Vaqifin və başqa ədiblərimizin möhtəşəm obrazları yaradılmışdır. Bu obrazlar hər üç növdə – həm lirik, həm epik, həm də dramatik növdə yaradılmışdır. Böyük sənətkarlarımızın obrazı daha çox poeziya nümunələrində canlandırılıb. Qətiyyətlə deyə bilərəm ki, Azərbaycan poeziyasında Məmməd Araza həsr olunan obrazı canlandırılan poeziya nümunələri qədər heç bir sənətkara bu qədər poeziya nümunələri ilə qarşılaşmadım (Mehdiyev, 2000, s. 213). Məmməd Araz Azərbaycan ədəbiyyatında əhəmiyyətli bir sima olaraq, özünəməxsus obrazı ilə tanınır. Məmməd Araz, Azərbaycan poeziyasının parlaq simalarından biri olaraq, öz yaradıcılığı ilə bir çox şair və yazıçıların ilham mənbəyi olmuşdur. Onun xatirəsi, ədəbiyyatımızda hələ də yaşayır və bir çox şair, onun ruhunu

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

yaşatmaq üçün ona həsr olunmuş şeirlər yazmışdır. Bu şeirlərdə vətən sevgisi və azadlıq idealları ön planda durur. Kamil insanın başlıca mənəvi dəyəri onun düşdüyü mühit və şəraitdən asılı olmayaraq əxlaqlı və halal yaşamağındadır (Kərimli, 2013, s. 20). Şairlər, Arazın yaradıcılığındakı Vətən mövzusunu öz əsərlərində yeni bir tərzdə işləyərək, onun ideyalarını davam etdirirlər. Vətənə olan həsrət, müharibə dövrü xatirələri və milli kimlik mövzuları, bu şeirlərin əsas məzmununu təşkil edir və sənətkarlar Məmməd Arazın daxili aləmini, kədərini və sevinclərini öz əsərləri ilə ifadə etməyə çalışırlar (Xəlilov, 2002, s. 256).

M.Arazın həyatında yaşadığı çətinliklər, eyni zamanda onun yaradıcılığında ortaya çıxan dərin hissiyat, bu şeirlərdə gözəl bir şəkildə təcəssüm etdirilir. Məmməd Araza həsr olunmuş şeirlər, onun ədəbiyyatdakı təsirini və əhəmiyyətini bir daha nümayiş etdirir. Bu şeirlər, yalnız onun xatirəsini yaşatmaqla qalmır, eyni zamanda Azərbaycan ədəbiyyatının zənginliyini və dərinliyini də əks etdirir. Arazın ruhu, bu şeirlər vasitəsilə yeni nəsillərə ötürülür. Elə sənətkarlar var ki, onlar M. Arazın poetik dünyasında ayrıca bir dünyadırlar (Yusifli, 1994, s. 106).

Bu nümunələrlə tanış olanda Məmməd Araz qüdrəti, səmimi ürəkdən gələn lirizm insanı Məmməd Araz dünyasına qərq edir. Məmməd Arazın əsərlərini oxuyanda insan fəqli bir aləmdə özünü hiss edir. Yeni uçmağı öyrənən quş kimi uçmağın fövqünə qərq olur, dünyanı unudur. Azərbaycan ədəbiyyatında Məmməd Araza yüzlərlə şeir həsr olunub, obrazı yaradılıb (Araz, 2003, s. 387).

**Tədqiqat**

Milvarid Dilbazi "Məni təkləməyən deyən şairə", Söhrab Tahir "Qardaşım", Xəlil Rza Ulutürk "Məmməd Araza", Fikrət Qoca "Cavanlıq dostum Məmməd Araza məktub", Məmməd İsmayıl "Unut məni", Musa Yaqub "Nə qədər ki…", "Bu dünyanın qara daşı göyərməz", Aşıq Şəmkir "Şairin", Nəriman Həsənzadə "Sevir bu dünyanı bu etirasla", Ramiz Rövşən "Araz danışır", Hüseyn Razi "Dünya", "Hünər ölməz söz qocalmaz", Zəlimxan Yaqub "Məmməd Araz var", Asim Yadigar "Bir nağıl de", Hikmət Ziya "Məmməd Araz var", Xanəli Kərimli "Toğluqayanın Məmməd Araza məktubu", Hüseyn Arif "Birazda bizə saxla", Vaqif Məmmədov "Məmməd Araz var", "Arazlar nə yaman sözlü oturub", Azəroğlu "Məmməd Araza məktub" və başqalarının şeirləri var. Məmməd Araz yaradıcılığı Azərbaycan xalqının poetik dünyasıdır (Axundlu, 1998, s. 97).

Azərbaycan poeziyasında Məmməd Arazın möhtəşəm obrazını yaradan, onu öz əsərlərinin mündəricəsinə çevirən qüdrətli şairlərimizdən biri olan Xəlil Rza Ulutürkün şeirləri özünəməxsus cəhətləri ilə seçilir. "Məmməd Araza" adlı şeiri kiçik poema təsiri bağışlayır. Şeirdə Məmməd Arazın zəhməti, xalqı üçün çırpınan istəkləri misralarda əks olunur. Öz yaradıcılığının məzmunluğu, yeniliyi və xüsusilə milliliyi ilə seçilən Xəlil Rza Ulutürkün ədəbi irsində, ümumən, Azərbaycanın qüdrətli söz ustadlarına müraciətlə yazılan əsərlər çoxluq təşkil edir ki, onlardan biri də "Məmməd Araza" adlı şeiridir. Şeirdə Məmməd Araz qüdrəti əks olunur.

Mən səni görmüşəm, tunc yumruqların
Yerlərə, göylərə hökm eyləyəndə,
Qarlı Ərzurumdan əngin Xəzərə
Can atan, hayqıran Araz axarı
Sənin ürəyindən yol istəyəndə! (Quliyev, 2001, s. 72)

Milvarid Dilbazinin də yaradıcılığında Məmməd Araz ön sırada dayanır. Onun Məmməd Araza həsr etdiyi "Məni təkləməyin deyən şairə" şeirində M.Arazın yaradıcılığına və onun Vətənə olan sevgisinə dərin bir ehtiramla yanaşdığı ifadə edir.

Şeirdə Arazın mübariz ruhu, şairin söz sənətindəki ustalığı və Vətəni sevgi dolu bir dil ilə təsvir olunur. Dilbazi, Arazın poeziyasından ilhamlanaraq, onun azərbaycanlıların qəlbindəki yerini və əhəmiyyətini vurğulayır.

Sən vətən havalı, el nəfəslisən,
Sənət dünyasında bahar fəslisən.
Nizami, Füzuli, Vaqif nəslisən
Ilhamın yollarda yorula bilməz (Quliyev, 2001, s. 69)

Bu şeir, yalnız Arazın xatirəsini yaşatmaqla yanaşı, onun yaradıcılığının müasir dövrdə necə qiymətləndiyini də ön plana çıxarır. Xalq şairi Azəroğlunun "Məmməd Araza məktub" adlı şeiri də

özünəməxsusluğu ilə seçilir. Məmməd Arazın misralarını epiqraf kimi istifadə edən şair Məmməd Araza xitabən

Oxudum şeirini, kövrəldim yaman,
Belə niskil olmaz, belə dərd olmaz.
Ürək deyənləri necə yazmasın!
Ürək yaman şeydir, ay Məmməd Araz!
Ürək min söz deyir hey yavaş-yavaş,
Yüzündən birini yazmırıq ancaq,
Mənim də arzumdur səninlə, qardaş,
Ərdəbildə olaq, Təbrizdə olaq… (Quliyev, 2001, s. 120).

Söhrab Tahirin "Qardaşım" adlı şeiri də Məmməd Arazın xatirəsinə həsr olunmuşdur. Şeirdə Arazın düşüncələri və insanlığa olan sevgisi vurğulanır, milli dəyərlərə bağlılığı qeyd olunur. Şeirdəki emosional dərinlik, Arazın itirilməsi ilə bağlı hiss edilən kədəri, eyni zamanda onun irsinin yaşatmaq arzusunu əks etdirir.

Xoşbəxt taleyin var, taleyi dindir,
Yox, onu yaşamaq mənə çətindir.
Budur azadlığın yolunda indi
Çıxmışam mən yola, qardaşım! (Quliyev, 2001, s. 99).

Hüseyn Arifin Məmməd Araza həsr etdiyi "Bir az da bizə saxla" şeiri, dərin emosional yüklə dolu bir əsərdir. Şair bu şeirdə insanın iç dünyasını, duyğularını və həyatın mənasını araşdırır. Məmməd Arifin istifadə etdiyi dil, səmimi və içtənidir. Şeirin sadə, lakin təsirli ifadələri, oxucu ilə birbaşa emosional əlaqə yaradır.

Çinarı elə andın,
Təbiət dilə gəldi.
Kərəmə elə yandın,
Məhəbbət dilə gəldi.
Babəki baba sandın
Cəsarət dilə gəldi.
Tarixlərə dönəndə
Nəsillərin önündə
Elə çal, elə çağır,
Bir az da bizə saxla! (Quliyev, 2001, s. 28)

"Biraz da bizə saxla" ifadəsi, bir yandan həyatda dəyərlərin saxlanılması, digər yandan isə xatirələrin qorunması simvolu olaraq çıxış edir. Bu, oxucuda dərin düşüncələr yaratmağa imkan tanıyır.

Xanəli Kərimlinin "Tofluqayanın Məmməd Araza məktubu" şeiri dərin düşüncələr və emosiyalarla dolu bir əsərdir. Bu şeirdə Şair M. Arazla emosional bir bağ qurur.

Ürəyimi bir söz yaman yandırır,
Sən dediyin söz yaman yandırır:
"Gecikmişəm, Məmməd Araz,
Yəqin dağlar küsüb məndən
Sən mənim tarımsan, köklənmiş sazım,
Mən səndən küsmərəm, Məmməd Arazım (Quliyev, 2001, s. 95)

Şeirdə dostluq, qardaşlıq və insan əlaqələrinin əhəmiyyəti önə çıxır və insanın ruhunu zənginləşdirən bir amil kimi təqdim olunur.

Fikrət Qocanın "Cavanlıq dostum Məmməd Araza məktub" adlı şeirində Fikrət Qoca, Arazın sözlərinin və fikirlərinin necə dərin iz buraxdığını ifadə edir.

Ucaldandır, taxtdan salan dünyadı,
Könül qıran, könül alan dünyadı,
Sən dedin ki, "dünya yalan dünyadı"
Bu yalandan yazdığımız qalandı (Vəliyeva, 2013, s. 75).

Ramiz Rövşənin “Araz danışır” seirində şairin içindəki duyğular – həsrət, sevgi, kədər şeirdə açıq şəkildə əks olunur. R.Rövşən, bu duyğuları gözəl poetik dil ilə təqdim edir. Ramiz Rövşənin dili, sadə və anlaşıqlı bir üslubdadır, lakin eyni zamanda poetik dərinliklə zəngindir. Bu, oxucunun şeirlə daha sıx emosional əlaqə qurmasına imkan tanıyır.

Biz yatırıq, Araz yatır,
Yox-yox Araz oyaq olur.
Araz indi aramızda
Özü boyda torpaq olur.
Iki bölür dalğaları,
Iki bölür suları da.
Balıqlar da ayrı düşür
O yarıda, bu yarıda (Quliyev, 2001, s. 55).

Araz, yalnız bir coğrafi obyekt deyil, eyni zamanda insan ruhunun, vətən sevgisinin və azərbaycanlıların kimliyinin simvoludur. Şeir, Arazın simvolik təhlili ilə zənginləşdirilmişdir. Ramiz Rövşənin "Araz Danışır" şeiri, vətən sevgisini, tarixi irsi və insan duyğularını dərin bir şəkildə ifadə edir. Bu əsər, Arazın səsi vasitəsilə Azərbaycanın mədəniyyətinin, ruhunun və gözəlliklərinin yaşadılmasına çağırış edir (Araz, 2003, s. 201). Rövşənin poetik dili, bu şeiri Azərbaycan poeziyasının dəyərli nümunələrindən birinə çevirir. Müasir oxucu tərəfindən ən oxunaqlı, ən çox sevilən şairlərdən olan Məmməd Arazın yaradıcılığı rəngarəng və təkrarsızdır. Məmməd Araz poeziyasının bu qədər şirinliyi və ecazkar qüvvəyə malik olması, ilk növbədə, duyduğu, yaşadığı gözəlliklərin xalq ilə təmasından qaynaqlanmış, xalq yaradıcılığı süzgəcindən keçərək ələnmiş, arıdılmış duyğu düzümündə təqdim olunması ilə əlaqədardır (Muradoğlu, 2013, s. 24).

## Nəticə

Bu şeirlər, Məmməd Araza olan dərin sevgi və ehtiramı, onun irsinin əhəmiyyətini vurğulayır. Hər biri Məmməd Araz yaradıcılığına olan təsiri ilə bərabər, onun ədəbiyyatımızdakı yerini bir daha xatırladır. Məmməd Araz obrazı, Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan bir obrazdır. Bu obrazın ideya-bədii xüsusiyyətləri vətənə olan dərin sevgisi və bağlılığı ilə seçilir. Məmməd Araz, mübariz bir ruhu təmsil edir. O, ədalət, azadlıq və insan hüquqları uğrunda mübarizə edən bir obraz kimi tanınır.

Arazın iç dünyası, emosional zənginliklərlə doludur. O, sevgi, həsrət, kədər və sevinc kimi müxtəlif duyğuları dərindən yaşayır və ifadə edir.

M. Araz poetik dili və söz ustalığı ilə diqqət çəkir. Onun şeirlərində metaforalar, simvolizm və təsvir vasitələri ustalıqla işlənir və insanın daxili aləmini, onun hisslərini və münasibətlərini tədqiq edir. Bu, oxucularla dərindən bir emosional əlaqə yaradır. Azərbaycanın mədəni irsini yaşatmağın və qorumanın əhəmiyyətini vurğulayır. O, milli kimliyin gücləndirilməsinə yönələn fikirlər irəliləyir.

Məmməd Araz obrazı həm də bir mübariz, həm vətən sevgisi ilə dolu bir insan obrazı kimi tanınır. Onun ideya-bədii xüsusiyyətləri, Azərbaycan ədəbiyyatında dərin izlər buraxmışdır. Bu, onun yaradıcılığının zamansız olduğunu və müasir dövrdə də aktual qaldığını göstərir.

## Ədəbiyyat

1. Araz, M. (2003). *Seçilmiş əsərləri*. 4 clddə. I cild. Ozan.
2. Araz, M. (2003). *Seçilmiş əsərləri*. 4 cilddə. II cild. Ozan.
3. Axundlu, Y. İ. (1998). *İstiqlal şairləri*. Elm.
4. Xəlilov, Ə. (2002). *Məmməd Araz dünyası*. Azərbaycan Universiteti.
5. Kərimli, X. (2013). Məmməd Araz yaradıcılığında azərbaycançılıq. *Naxçıvan*, 27.
6. Quliyev, H. C. (2001). *Haqqın var yaşamağa, haqqın var, Məmməd Araz* (xatirələr, ithaflar). Nurlan.
7. Mehdiyev, H. (2000). *Çağdaş poema və gerçəklik*. Elm.

8. Muradoğlu, N. (2013). *Sözün Məmməd Araz zirvəsi* (şair və xalq yaradıcılığı problemi). Elm və təhsil.
9. Vəliyeva, S. (2013). *Haqqın var yaşamağa* (məqalələr). "OL" MMC.
10. Yusifli, V. (1994). *Məmməd Araz dünyası: Şur.*

Daxil oldu: 24.09.2024
Baxışa göndərildi: 13.10.2024
Təsdiq edildi: 17.11.2024
Çap olundu: 30.11.2024

https://doi.org/10.36719/2706-6185/41/98-102

**Günel Mustafayeva**
Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası
mustafayevagunel90@gmail.com

# Avropa İttifaqı hüququnda ümumi prinsiplərin rolu və əhəmiyyəti

**Xülasə**

"Avropa İttifaqı hüququnda ümumi prinsiplərin rolu və əhəmiyyəti" məqaləsində Avropa İttifaqının hüquqi sistemindəki bu prinsiplərin təkcə hüququn normativ strukturu olmadığını, eyni zamanda cəmiyyətin ehtiyaclarına cavab verən bir mexanizm olduğu göstərilir. Hüquqi iyerarxiyada mühüm mövqeyə malik olan ümumi prinsiplər, hüququn daha çevik, adaptiv və dəyər mərkəzli bir sistem kimi inkişaf etməsini təmin edir. Beləliklə, ümumi prinsiplər yalnız Aİ hüququnun deyil, həm də qlobal hüquq anlayışının inkişafına töhfə verir. Gələcəkdə də bu prinsiplərin həm hüquqi sistemin təməlini qorumaqda, həm də yeni çağırışlara uyğunlaşmada mühüm rol oynayacağı şübhəsizdir. Bu səbəbdən, ümumi prinsiplər Aİ hüququnun həm nəzəri əsaslarını, həm də praktiki tətbiqini möhkəmləndirən bir sütun olaraq qalır.

***Açar sözlər:*** *ümumi prinsiplər, fundamental hüquqlar, Aİ institutları, Üzv Dövlətlər, Avropa İttifaqı*

**Gunel Mustafayeva**
The Academy of Justice of the Ministry of Justice of the Republic of Azerbaijan
mustafayevagunel90@gmail.com

# The Role and Significance of General Principles in European Union Law

**Abstract**

In the article "The Role and Significance of General Principles in European Union Law" it is demonstrated that these principles in the EU legal system not only represent a normative structure but also serve as a mechanism that responds to societal needs. General principles, which hold a significant position in the legal hierarchy, ensure the development of law as a more flexible, adaptive, and value-driven system. Thus, these principles contribute not only to EU law but also to the evolution of global legal concepts. It is certain that, in the future, these principles will continue to play a crucial role in preserving the foundations of the legal system and adapting to new challenges. For this reason, general principles remain a cornerstone that strengthens both the theoretical foundations and practical applications of EU law.

***Keywords:*** *general principles, fundamental rights, EU institutions, Member States, European Union*

## Giriş

Avropa İttifaqı hüququnda ümumi prinsiplər xüsusi əhəmiyyətə malikdir və hüquqi sistemin dayanıqlılığını təmin edən əsas sütunlar kimi çıxış edir. Onlar həm nəzəri, həm də praktiki aspektlərdə geniş tətbiq sahəsinə malikdir və müxtəlif hüquqi boşluqları doldurmaqla hüququn davamlılığını təmin edirlər. Bu prinsiplər, normalar daxilində birbaşa olaraq görünməz olsa da, hüquqi strukturun müxtəlif elementlərini birləşdirən güclü bir əlaqə rolunu oynayır. Onların əsas funksiyası hüququn müasir dövrün dəyişən tələblərinə uyğunlaşmasını təmin etməkdir.

Ümumi prinsiplər, qanunların kifayət etmədiyi hallarda, hüququn daha çevik və ədalətli şəkildə tətbiqinə imkan verir. Bu, xüsusilə hüquqi mətnlərin şərhində və hüquqi boşluqların aradan qaldırılmasında mühüm rol oynayır.

Avropa İttifaqının hüquqi çərçivəsində ümumi prinsiplər yalnız texniki məsələlərlə məhdudlaşmır; onlar həm də etik və sosial dəyərləri əks etdirir. Hüquq sisteminin dərin təməllərinə

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

söykənərək, bu prinsiplər qanunların daha humanist və cəmiyyətin dəyərlərinə uyğun şəkildə tətbiqinə imkan yaradır. Fundamental hüquqların qorunması və insan ləyaqətinin təmin edilməsi kimi məqsədlər bu prinsiplərin əsas məqsədlərindəndir. Üzv dövlətlərin milli hüquq sistemlərinin Aİ hüququ ilə uzlaşdırılması prosesində də ümumi prinsiplərin əhəmiyyəti nəzərə çarpır.

**Tədqiqat**

Avropa İttifaqı hüququnun ümumi prinsipləri güclü normalar olaraq, əsas Aİ hüquqları arasında öz yerini tutur. Bu prinsiplər Aİ hüququnun konstitusionlaşmasında mühüm rol oynayır (General principles in the EU legal order: past, present and future directions, 2022). Aİ hüququnda da ümumi prinsiplər hüquqi sistemin müxtəlif elementlərini birləşdirir, qanunvericilikdəki boşluqları doldurur və hüquqi nizamın bütövlüyünü təmin edirlər. Bu prinsiplərin əsas xüsusiyyəti onların dəyişkən və elastik olmalarıdır. Yəni hüquq sisteminin qarşılaşdığı yeni situasiyalara uyğunlaşa bilən prinsiplərdir. Məsələn, hər hansı qanun müəyyən vəziyyəti həll etməkdə yetərsiz olduqda, ümumi prinsiplər bu qanunun tətbiqinə daha geniş mənada yanaşmağa imkan verir və hətta bəzi hallarda mövcud qaydaların yenidən şərh olunmasına şərait yaradır. Beləliklə, hüquq sistemi zaman keçdikcə dəyişən reallıqlara uyğunlaşır və yenilənir. Müvafiq Aİ qanununun olmadığı və ya müvafiq qaydaların sadəcə cavab vermədiyi hallarda, ümumi prinsiplər Aİ qanunundakı boşluğu Aİ qanunlarının ümumi məcmusu və ümumi prinsiplərlə uyğun bir şəkildə doldurmaq üçün istifadə edilə bilər (Opinon of Advocate General Kokott, 2010).

Ümumi prinsiplər yalnız texniki bir funksiyanı yerinə yetirmir, eyni zamanda Aİ hüququnun dəyərləri ilə də bağlıdır. Məsələn, qanunvericiliyin əxlaqi və ictimai qaydaları əks etdirməsi hər zaman mümkün olmur. Lakin ümumi prinsiplər bu boşluğu dolduraraq əxlaqi dəyərləri və sosial inancları hüquqi məzmuna daxil edir. Bu, Aİ hüququna bir mənəvi əsas verir, çünki o, sadəcə qanunlardan ibarət deyil, həm də cəmiyyətin etik dəyərlərini əks etdirir. Birləşmiş Avropanın qurulması üzv dövlətlərin də tələb etdiyi və tətbiqi Aİ-nin icraedici orqanlarına həvalə edilən fundamental prinsiplərə əsaslanır ("L'ABC du droit de l'Union européenne", 2010).

Əlbəttə ki, çoxsaylı ümumi prinsiplər mövcud olduğundan və hər biri müxtəlif funksiyalar yerinə yetirdiyindən, onların hamısına burada geniş şəkildə toxunmaq mümkün deyil. Amma ümumi şəkildə qeyd etmək lazımdır k, bütün prinsiplər fundamental hüquqların qorunmasına xidmət edir. Bu, özü əslində Aİ hüququnda mühüm prinsip olmaqla yanaşı, qanunun tətbiqində hüquqların müdafiəsini təmin edir.

Aİ hüququndakı bir çox ümumi prinsiplər yazılı deyil və zamanla məhkəmə qərarları vasitəsilə inkişaf etmişdir. Bu prinsiplər əvvəlcə məhkəmələr tərəfindən formalaşdırılıb, lakin zaman keçdikcə bir çoxu rəsmi hüquqi mətnlərə, o cümlədən Müqavilələrə daxil edilmişdir. Məsələn, Aİ-nin institusional strukturuna aid bəzi prinsiplər Avropa İttifaqının Təsis Müqaviləsində (TEU) açıq şəkildə qeyd olunur. Bunlara "səmimi əməkdaşlıq" prinsipi daxildir ki, bu da Aİ institutlarının və Üzv Dövlətlərin qarşılıqlı yaxşı niyyətlə işləməsini tələb edir; "səlahiyyətlərin ötürülməsi" prinsipi, bu da Üzv Dövlətlər tərəfindən Aİ-yə verilən səlahiyyətlər çərçivəsində hərəkət etməyi təmin edir; "Üzv Dövlətlərin bərabərliyi" prinsipi, bütün üzv dövlətlərin Aİ-nin qərar qəbuletmə proseslərində bərabər şəkildə iştirakını təmin edir; "milli konstitusiya kimliyinə hörmət" prinsipi isə hər bir üzv dövlətin konstitusiya strukturunun əhəmiyyətini qəbul edir. Bundan əlavə, "subsidiarlıq" və "mütənasiblik" kimi prinsiplər də Aİ-nin fəaliyyət sahəsini və hədlərini müəyyən edir.

1992-ci il Maastrixt Müqaviləsi ilə təqdim edilən TEU-nun 6-cı maddəsi isə fundamental hüquqlarla bağlı ümumi prinsiplərə aid əsas müddəa olaraq çıxış edir. Bu maddə, Aİ-nin fundamental hüquqların qorunmasına sadiqliyini təsdiq edir və onların İttifaq daxilində hüquqi çərçivəsini müəyyən edir. Bu, Aİ hüququnda mühüm bir dəyişiklik oldu və bu prinsiplərə hüquqi sistemin formalaşmasında daha açıq və mühüm rol verdi. Maastrix Müqaviləsi həmçinin əhəmiyyətli dərəcədə əhəmiyyətli dəyişikliklər etdi. O, subsidiarlıq prinsipini təsis etdi. EC-nin çox "federal" olmasına dair narahatlıqları azaltmaq üçün təqdim olundu, fəaliyyətin ən yaxşı şəkildə İcma səviyyəsində və milli səviyyədə həyata keçirildiyi sahələri ayırd etdi (EU Law: Text, Cases, and Materials).

Ümumiyyətlə, bir çox ümumi prinsiplər müqavilələrdə təsbit olunmasına baxmayaraq, onlar məhkəmə təfsirləri vasitəsilə inkişaf etməyə davam edir, hüquqda olan boşluqları doldurur və açıq

şəkildə qeyd olunmayan sahələrdə yol göstərir. Bu prinsiplər hüquqi nizamın bütövlüyünü və Aİ-nin dəyərləri ilə uyğunluğunu təmin edir, yeni çağırışlara və ortaya çıxan hüquqi ehtiyaclara cavab verir.

Aİ hüququnda bəzi müddəalar, məsələn, Avropa İttifaqının Fəaliyyəti Haqqında Müqavilənin (TFEU) 18, 45 və 157-ci maddələri, diskriminasiyanın qarşısını almağa dair əsas prinsipləri təsbit edir. Bu maddələr Aİ daxilində diskriminasiya əleyhinə tədbirləri gücləndirir və üzv dövlətlər arasında bərabərliyi təmin edir.

Avropa İttifaqı hüququnun əsasını təşkil edən və onun tətbiqində mühüm rol oynayan ən xarakterik prinsiplərdən biri “birbaşa təsir” (direct effect) prinsipidir. Bu prinsip, Avropa İttifaqı Ədalət Məhkəməsinin (Court of Justice of the European Union, CJEU) presedent hüququ vasitəsilə inkişaf etdirilmişdir və fərdlərə Aİ hüquq normalarını milli məhkəmələrdə birbaşa tətbiq etmə imkanı yaradır. Birbaşa təsir prinsipi, əsasən, müqavilələrin özündə birbaşa göstərilməsə də, CJEU-nun işində müəyyən edilmişdir. Həmin qərara əsasən, Aİ hüquq normaları, əgər onlar aydın, dəqiq və şərtsizdirsə, fərdlər tərəfindən birbaşa müdafiə oluna bilər. Avropa Ədalət Məhkəməsi (AƏM) Avropa Birliyinin hüquq sisteminin inkişafına yazılmamış ümumi hüquq prinsiplərini işləyib hazırlamaqla mühüm təsir göstərmişdir (The General Principles of EU Law, 2023).

